**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazma hüququnda*

**KƏMALƏ MƏHƏMMƏD qızı HACIYEVA**

# DİNİN İSRAİLİN SİYASİ HƏYATINDA ROLU

**İxtisaslaşma: HSM – 060211 – Regionşünaslıq**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**DİSSERTASİYA**

Elmi rəhbər: ________________________

*Ə.M. ABDIYEVA*

*Fəlsəfə elmləri üzrə fəlsəfə doktoru,dosent*

**BAKI - 2017**

# MÜNDƏRİCAT

**GİRİŞ..................................................................................................3-9**

**FƏSİL 1. İSRAİL DÖVLƏTİNİN YARANMASI VƏ DİNİ SİYASİ STRUKTURU.........................................................................................10-28**

1.1 Dini sionizm-İsrail dövlətinin yaranmasının ideoloji əsaslarından biri kimi.........................................................................................................10-18

1.2 İsrail dövlətinin siyasi və dini-etnik mənzərəsi…………………......18-28

**FƏSİL 2. İSRAİLDƏ DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİNİN TƏHLİLİ………...........................................................................29-47**

2.1 Dövlət sistemində dini institutlar……………………………....29-39

2.2 Dinin İsrail cəmiyyətinin ictimai-siyasi həyatına təsiri…………..39-47

**FƏSİL 3. İSRAİL XARİCİ SİYASƏTİNDƏ DİN FAKTORU ………………………………….......................................................48-67**

3.1 Ərəb-İsrail münaqişəsində yəhudi dini ekstremizmi və müsəlman radikalizmi……………………………….............................48-57

3.2 İsrailin xarici siyasət əlaqələrində din amilindən istifadə..........................................................................................57-67

**NƏTİCƏ..........................................................................................67-69**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI………………….70-80**

# GİRİŞ

**Mövzunun aktuallığı.** İsrail dövlətində din-dövlət, din-siyasət, din-cəmiyyət arasındakı münasibətlərin tədqiqi elmi cəhətdən böyük əhəmiyyət kəsb edir.

İsraildə din-dövlət münasibətləri dünyanın digər ölkələri ilə müqayisədə fərqlidir. Bir tərəfdən Qərb dövlətlərinin əksəriyyətindən, Rusiyadan, o cümlədən Azərbaycandan fərqli olaraq, din dövlətdən ayrı deyil, digər tərəfdən də Səudiyyə Ərəbistanı, İran kimi müsəlman dövlətlərindən fərqli olaraq, teokratik dövlət də deyil. Görünən tərəf isə odur ki, rəsmi teokratik dövlət olmasa da, din de-fakto olaraq hakim mövqeyə malikdir.

Dövlətin yaranması ilə din mövzusu aktual məsələlərdən birinə çevrilmişdir. Dövlət-din arasındakı tənzimlənmələr səlahiyyət, identiklik, dözümlülük və bir sıra məsələlərlə bağlı gərginliyə səbəb olmuşdur. Müasir dövrdə yəhudi identikliyi qorunub saxlanılır mı? Yaxud yəhudi kimliyi özünü hansı formada göstərir? kimi suallar maraq doğurur. İudaizm dini, yəhudi identikliyi, İsrailin yəhudi dövləti olub-olmaması, ölkədə təsirli yəhudi dini blokun meydana gəlməsi İsraildə din-dövlət münasibətlərinə aydınlıq gətirmək baxımından əhəmiyyətlidir.

İsrail çoxdinli, çoxkonfessiyalı dövlətdir. Ölkənin böyük əksəriyyətini yəhudilər təşkil edir. Yəhudilərlə yanaşı dini-etnik azlıqlar kimi müsəlmanlar, xristianlar, druzlar və bəhailər də İsrail vətəndaşıdırlar. Lakin, gündəlik həyatda, etik davranışlarda həm yəhudilərin öz aralarında, həm də digər dinlərin nümayəndələri arasında müəyyən fərqlər qoyulur. Dini inanclarına görə fərqlənən dünyəvi və haredi (ultra-ortodoks) yəhudilərin bir-birinə münasibəti, yəhudilər və digər dinlərin nümayəndələri arasındakı münasibətlərin və s. araşdırılması da bu mövzunu aktual edən məsələlərdəndir.

Knessetdə dini-siyasi partiyalar da təmsil olunurlar. Bütün Knesset seçkilərində dini-siyasi partiyaların iştirakı, dünyəvi partiyalarla eyni koalisiyaya daxil olması, qanunvericilik prosesinə təsir edə bilməsi onların gücünü artırır. Ölkədə həmçinin ərəb partiyaları da fəaliyyət göstərir. Lakin ərəb partiyaları yəhudi dini partiyaları ilə

eyni statusa malik deyil. Bu məsələlərlə yanaşı, teokratik dövlət olmayan İsraildə Din İşləri üzrə Nazirliyin və digər dini institutların fəaliyyətinin tədqiqi maraq doğurur və dinin siyasətdə yerinin öyrənilməsi baxımından mövzunun aktuallığına dəlalət edir.

Müasir dövrdə də Yaxın Şərq münaqişəsi davam edir və münaqişənin davam etməsində də əsas faktorlardan biri dindir. Elmi tədqiqat işi münaqişənin tənzimlənməsi prosesinə dini təşkilatların təsirinin öyrənilməsi baxımdan da əhəmiyyət kəsb edir.

Tarixən olduğu kimi, müasir dövrdə də dünyanın bir çox ölkəsində, həmçinin Azərbaycanda da yəhudi icmaları mövcuddur. Azərbaycanda yaşayan yəhudilər sərbəst şəkildə dini fəaliyyətlərini həyata keçirir, ibadət edə bilirlər. Ölkəmizdə yaşayan yəhudi icması İsrail-Azərbaycan münasibətlərində bir körpüdür. İsraildə dinlə bağlı baş verən dəyişikliklər dünyada, o cümlədən Azərbaycanda yaşayan yəhudilərə təsirsiz qalmır. Bu baxımdan mövzunun tədqiqi Azərbaycan-İsrail əlaqələrinin dinlə bağlı olan aspektlərinə aydınlıq gətirmək üçün zəruridir.

**Mövzunun öyrənilmə dərəcəsi.** Tədqiqat prosesində mövzu ilə bağlı mövcud ədəbiyyat bazasından, nəşr olunmuş rəsmi sənədlərdən geniş istifadə olunmuşdur. Dissertasiya işinin yazılmasında azərbaycan, türk, rus, ingilis və ibri dillərində olan ədəbiyyatlardan, qəzet və jurnallardan, internet resurslarından istifadə edilmişdir.

Tədqiqat işi aparılan prosesdə XX əsrdə araşdırılmış mövzularala yanaşı, XXI əsrin əvvəllərində tədqiq olunmuş mövzulardan da istifadə edilmişdir.

Tədqiqat zamanı Şlomo Sandın yəhudilərin identiklik məsələsinin tədqiqinə yer ayırdığı "Yəhudi insanların ixtirası" [95] adlı əsərinə müraciət edilmişdir. Bu əsərdə yəhudilərin identkliyi, İsraildə idenyiklik siyasəti ilə bağlı dərindən araşdırma aparılmışdır. Bu əsərlə yanaşı, dini sionizmin araşdırılması zamanı Sədat Kızıloğlunun "İsrail dövlətinin yaradılmasına qədər keçən dövrdə yəhudilər və sionizmin inkişafı" [12], Klaudia Baumqartın "Demokratiya, müxtəliflik və münaqişə" [32], Avinoam Rosenakın Ravvin Kokun ideologiyasına həsr edilmiş "Ravvin Kok və şagirdləri arasında dini sionizm: Balfur bəyannaməsindən başlayaraq" [113] kimi materiallara müraciət edilmiş və tədqiqat işinin ərsəyə gəlməsində istifadə edilmişdir.

Eyni qaydada İsrail dövlətinin siyasi və dini-etnik mənzərəsi haqqında təhlil aparılarkən müxtəlif statistik məlumatlara da istinad edilmişdir. İoşua Yatesin haredi və dünyəvi yəhudilər arasındakı mübarizədən, I Aliya da daxil olmaqla, Sionizmin siyasi hərəkat kimi yaranması və dövlətin qurulmasında oynadığı rolundan, Ben Qurion hökuməti dövründəki vəziyyətdən bəhs olunan “Haredim və dünyəvilər: İsrailin daxili mədəni müharibəsi və israilli identikliyi üçün mübarizə” [112] adlı elmi işi və digər əsərlər tədqiq edilmiş və ədəbiyyat siyahısında yer almışdır.

İsraildəki mövcud dini institutların təhlili üçün tərkibində dini icmaların təşkil olunmasından, Ali Ravvinat, dini məhkəmələr, dini şuralar, Din İşlər üzrə Nazirliyin də yer aldığı və müəllifi Benyamin Neubergerin olduğu “İsrail dövlətində güc və siyasət” adlı kitabın VI hissəsindən [21], Natan Lernerin “İsraildə din və dünyəvi dövlət” [74] haqqında məlumat verdiyi eyniadlı məqaləsindən və s. materiallardan istifadə edilmişdir.

Dinin İsrail cəmiyyətinin ictimai-siyasi həyatına təsiri ilə bağlı aparılan təhlil zamanı İsrail Açıq Universitetinin professoru Benyamin Neubergerin “İsraildə din və demokratiya” adlı araşdırmasından [114], Milli Təhlükəsizlik Araşdırmaları İnstitunun ərsəyə gətirdiyi “İsraildə hərbi xidmət: Çətinliklər və nəticələri” [77] adlı əsərdən, Şlomo Hassonun müəllifi olduğu “İsraildə din və dövlət, mümkün ssenarilər” adlı əsərdən [54], İ. M. Baulinanın “İsraildə vətəndaş dini: Beqindən Netenyahuya qədər” məqaləsindən [20], Musya Tverskayanın müəllifi olduğu “Demokratiya və din problemi” [22] adlı məqaləsindən və s istifadə olunmuşdur.

Fələstin-İsrail münaqişəsinin gedişatında dini ektstremist qruplarının fəaliyyətini araşdırmaq üçün beynəlxalq terrorizm, ekstremist qrupların tarixi və müasir ekstremizm, dini fundamentalizmin təhlil olunduğu Tod K. Vagerin “Çağdaş ekstremist qrupların ortaqlığı” adlı magistrlıq işi [106], bununla yanaşı dini radikal qrup olan Həmasın fəaliyyəti ilə bağlı yazılmış Dənizcan Səfəroğlunun “Fələstin siyasətinin yeni aktoru. Praqmatik təşkilat kimi Həmas” magistrlıq işi [14], dr. Çağrı Erhanın “Fələstin-İsrail sülh prosesi hara gedir?” adlı məqaləsi [7], Ori Slonimin “Həmas və terror: ABŞ üçün zorakılıqla əlaqədar alternativ şərh” məqaləsi [96] və s. əsərlərdən istifadə olunmuşdur.

İsraildən xaricdə yaşayan yəhudilərin və bəzi xristian sionistlərin, evangelistlərin dövlətin xarici siyasətinə göstərdikləri təsirinə həsr olunmuş əsərlərə misal olaraq Çikaqo Universitetinin professoru Con. C. Meaşeymer və Harvard Universitetinin professoru Stefan M. Voltun birgə yazdığı "İsrail lobbisi və ABŞ-ın xarici siyasəti" əsəri [76], Mehmet Şahinin müəllifi olduğu "Din-xarici siyasət əlaqələri. ABŞ nümunəsi" doktorluq işi [15], Yasin Yayların "Evangelizm və Türkiyə planı" magistrlıq işi [18], Taylor Pokrantın "Etnik qrupların ABŞ-ın xarici siyasətinə təsiri" adlı məqaləsi [84] də daxil olmaqla bir sıra əsərləri misal göstərmək olar.

İstifadə olunmuş materiallar arasında dövri mətbuat və internet resursları da əhəmiyyətli yer tutur.

Qeyd olunan materiallardan istifadə bir tərəfdən problemin hansı səviyyədə öyrənildiyini aşkara çıxarmağa, digər tərəfdən tədqiqatı tarixi və mövcud siyasi reallıqlar nəzər alınmaqla sistemli şəkildə aparmağa kömək etmişdir.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyektini əsasən 1948-2016-cı illəri əhatə edən ərzində dinin İsrail dövlətin siyasi həyatındakı yeri və rolu təşkil edir.

**Tədqiqatın predmeti.** İsrail dövlətinin yaranmasının ideoloji əsaslarından biri kimi dini sionizm, ölkənin demoqrafik quruluşunun dini-etnik cəhətdən bölgüsü, dövlətdə fəaliyyət göstərən dini institutların təhlili, din faktorunun ərəb-İsrail münaqişəsinə təsiri, dövlətin siyasi fiqurlarının və xaricdəki yəhudi lobbi təşkilatlarının fəaliyyətində dindən istifadə tədqiqat işinin predmetinə daxildir.

**Dissertasiyanın məqsədi.** Tədqiqat işinin əsas məqsədi əsasən 1948-2016-cı illəri əhatə edən dövr ərzində dinin İsrailin siyasi mühitinə, regional və beynəlxalq münasibətlərə təsirini öyrənməkdən ibarətdir.

**Dissertasiyanın vəzifələri.** Müəyyən olunmuş məqsədə çatmaq üçün aşağıdakı vəzifələri yerinə yetirmək nəzərdə tutulur:

- İsrail dövlətinin yaradılmasında ideoloji əsaslardan biri olan dini sionizmin rolunu aydınlaşdırmaq;
- Ölkə əhalisinin siyasi və dini-etnik tərkibini təhlil etmək;

- Dövlət sistemində Din İşləri üzrə Nazirlik, Ali Ravvinat, dini məhkəmə, siyasi partiyalar kimi dini institutlarının fəaliyyətini və onların cəmiyyətin ictimai-siyasi həyatına təsirini araşdırmaq;
- Ərəb-İsrail münaqişəsinin gedişatında özünü göstərən yəhudi dini ektremizmi və müsəlman radikalizminin elementlərini qeyd etmək;
- İsrailin xarici siyasət əlaqələrində din amilindən istifadəni təhlil etmək.

**Tədqiqatın metodoloji əsasları.** Magistr dissertasiyasının yerinə yetirilməsi zamanı müxtəlif metodlardan istifadə olunmuşdur. İş prosesində qarşıya qoyulan məqsədlərə çatmaq, İsrailin siyasi həyatında əhəmiyyətli rola malik olan dinin dövlətlə münasibətlərini təhlil etmək, problemlərin mahiyyətini açmaq və ümumiləşdirmələr aparmaq məqsədilə elmi-müqayisəli təhlil, sintez, deduksiya və induksiya kimi metodlardan istifadə olunmuşdur.

**Dissertasiyanın elmi yeniliyi.** Məlum olduğu kimi, İsraildə din və cəmiyyət, din və siyasət haqqında müxtəlif səpkidə araşdırmalar aparılmışdır. Dissertasiyanın özündə ehtiva etdiyi məsələlər ətrafında az sayda ədəbiyyat bazası mövcud olsa da, dinin İsrail dövlətinin siyasi həyatındakı rolu ilə bağlı bəzi ilkin mənbələr məhz bu işlə Azərbaycanda elmi dövriyyəyə gətirilmişdir. Din və İsrailin siyasi həyatatının qarşılıqlı əlaqəsinin azərbaycanlı müəllifin baxış bucağı altında və neytral şəkildə qiymətləndirilməsini də tədqiqatın elmi yenilikləri sırasına daxil etmək olar.

**Tədqiqat işinin təcrübi əhəmiyyəti.** Dissertasiya işində öz əksini tapmış məsələlər, əldə olunan nəticələr və aparılmış ümumiləşmələr dinin İsrailin siyasi həyatında rolu ilə bağlı bir çox suallara aydınlıq gətirilməsi baxımından əhəmiyyətli hesab oluna bilər.

İş prosesində əldə edilmiş yekun nəticələr öyrənilən məsələ ilə bağlı müəyyən proqnozların verilməsi və qiymətləndirmələrin aparılması istiqamətində yardımçı ola bilər. Bununla yanaşı, dissertasiyanın materialları əsasında dinin İsrailin daxili və xarici siyasətinə təsiri, İsraildə mövcud olan dini institutların dövlətin ictimai-siyasi həyatında əhəmiyyəti ilə bağlı tədqiqatların aparılması, analitik materialların hazırlanması mümkündür.

Tədqiqat işində toxunulmuş suallarla bağlı əldə edilmiş nəticələr problemlə bağlı dərsliklərin, metodik vəsaitlərin, tədris proqramlarının, mühazirə mətnlərinin hazırlanmasında da əhəmiyyətli ola bilər.

**Tədqiqat işinin aprobasiyası.** Magistrlik dissertasiyasının əsas müddəaları müəllifin dərc olunmuş, aşağıda göstərilmiş məqalə və tezislərində öz əksini tapmışdır:

1. Hacıyeva K. Yerusəlim – 3 dinin mərkəzi kimi // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş mədəniyyətşünaslığın aktual problemləri tələbə elmi konfransının məruzələri. Bakı Slavyan Universiteti. Bakı-2015 (Jurnalın nəşri ləğv olunub) Məruzə diploma layiq görülmüşdür.
2. Hacıyeva K. İsraildə dini turizm mərkəzləri // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş illik konfrans məruzələrinin tezisləri. Qərb Universiteti. Bakı-2016
3. Hacıyeva K. Şas – İsraildə yəhudilərin dini-siyasi partiyası kimi // Ümummmilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş illik konfrans məruzələrinin tezisləri . Azərbaycan Dillər Universiteti. II Hissə. Bakı-2016 s. 279-280.
4. Hacıyeva K. Azərbaycan-İsrail münasibətlərində din faktoru // Azərbaycan və Avropa: Multikulturalizm, tolerantlıq və birgəyaşayışın problemləri və perspektivləri mövzusunda tələbə, magistr və şagirdlərin Respublika Elmi-Praktik Konfransının materialları. Bakı Slavyan Universiteti. Bakı-2016 s. 212.
5. Hacıyeva K. Yəhudi identikliyinə münasibətdə haredi və dünyəvi yəhudilərin fikir ayrılıqları // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə və Azərbaycan Dillər Universitetinin yaradılmasının 80 illiyinə həsr olunmuş illik konfransının məruzələrinin tezisləri (II Hissə). Bakı-2017 s. 236-238. Məruzə 1-ci dərəcəli diploma layiq görülmüşdür.

6. Hacıyeva K. Dinin İsrail cəmiyyətinin ictimai-siyasi həyatına təsiri //(ADU-nun elmi xəbərləri jurnalı – çapdadır)
7. Hacıyeva K. İsrail dövlətinin siyasi və dini-etnik mənzərəsi // (BM və aktual problemləri jurnalı – çapdadaır)

**Tədqiqat işinin strukturu.** Magistr dissertasiyası “Giriş”, üç fəsil, altı paraqraf, “Nəticə” və “İstifadə olunmuş ədəbiyyat siyahısı”ndan ibarətdir.

# FƏSİL 1. İSRAİL DÖVLƏTİNİN YARANMASI VƏ DİNİ SİYASİ STRUKTURU

## 1.1 Dini sionizm – İsrail dövlətinin yaranmasının ideoloji əsaslarından biri kimi

İsrail dövlətinin yaradılmasında sionizmin böyük rolu olmuşdur. Sionizm ideologiyasına görə, yəhudilərin Bibliyada təsbit olunmuş İsrail torpaqlarına və ya İsrail dövlətinə haqqı vardır.

XIX əsrin 40-cı illərindən etibarən Havovei Tzion (Lovers of Zion) kimi kiçik sionist qrupların meydana gəlməsi sionizm ideallarının yaranmasında atılan ilkin addımlardan olmuşdur. İlk ideallar Moses Hess və Leon Pinsker tərəfindən irəli sürülmüşdür [55; 100]. Yəhudi millətçiliyinin ilk müdafiəçisi olan Moses Hessin yəhudi xalqını dirçəltmək üçün yeni irqi nəzəriyyəyə ehtiyacı var idi. O, öz dövrünün şübhəli elmi biliklərindən, xüsusilə də fiziki antropologiyadan istifadə edərək, onları yeni identiklik nəzəriyyəsinə inteqrasiya etmişdir. Çox güman ki, o, yəhudi millətçiliyinin meydana gəlməsində birinci şəxs idi, lakin sonuncu deyildi. 1862-ci ildə "Roma və Yerusəlim"("Rome and Jerusalem") əsərinin nəşr olunmasından sonrakı 35 il ərzində Avropada sionistlərin və anti-sionistlərin sayının əhəmiyyətli dərəcədə artdığı müşahidə olundu. XIX əsrin sonlarındakı imperialist dövrdə Avropada inkişaf edən irqçi elmlər diqqət mərkəzində olmağa başladı və yeni siyasi partiyaların ideoloji quruluşunun bir hissəsinə çevrildi. Bunların arasında gənc sionist hərəkatı da var idi.

Çox güman ki, 1890-cı ildə "sionizm" terminini yaradan ilk intelektual Natan Birnbaum olmuşdur və o, M. Hessin tərk etdiyi arqumenti araşdırmağa başlamışdır. Lakin Natan Birnbaumun Sionist hərəkatının çiçəklənməsində əhəmiyyətli rolu olmasına baxmayaraq, yəhudi milliyətçi idealların inkişafına nəzər salsaq, çox uzun danışmağa ehtiyac qalmır. "Sionist" terminini yaratmasına baxmayaraq, o, sionizmin qabaqcıl mütəfəkkirlərindən olmamış və nəhayət, o, hərəkatda iştirakını dayandırmış

və ortodoks olmuşdur [95, 256-258; 12, 45-46]. Buna baxmayaraq, sionizm Teodor Hertselin adı ilə daha çox yadda qalmışdır. T. Herselin 1896-cı ildə nəşr etdirdiyi "Yəhudi dövləti" ("The Jewish State") və 1902-ci ildə nəşr olunan "Qədim-yeni torpaq" ("Altneuland") kitabları onun sələflərindən fərqli olaraq yəhudi dövləti yaratmaq mövzusunda daha uğurlu olduğunu deməyə əsas verir. Dreyfus hadisəsi (1884-cü ildə Fransız ordusunda xidmət edən yəhudi əsilli Alfred Dreyfusa Fransaya aid gizli məlumatları Almaniyaya ötürdüyü üçün ömrlük həbs cəzası verilmişdi.) Teodor Hertzeli yəhudi problemini həll etmək üçün ruhlandırmış və o, 1897-ci ildə, İsveçrədə - Basteldə ilk Sionist konqresinin keçirilməsinə nail olmuşdu.

Sionizmə dindarların münasibətinə gəldikdə isə, XIX əsrin sonlarında sionizm tarix səhnəsinə daxil olduqda, ortodoksal yəhudi icması bu dünyəvi, milliyətçi, dini dünyagörüşünə inteqrasiya etməkdə çətinlik çəkmişdir. Teodor Hertselin sionizmi maarifçilik, dünyəviləşmə, liberalizm və milliyyətçilik məsələlərinə xüsusi yəhudi cavabı kimi təsvir oluna bilər.

Avineri erkən sionizmin Avropa liberalizminin ən yaxşı ənənələrini, yəhudi irsinin müasir və dünyəvi şərhi ilə birləşdirdiyini və beləcə anti-semitizm qarşısında Avropa mədəniyyətinin uğursuzluğuna dair tənqidi fikir meydana gətirdiyindən bəhs edir. Ortodoks yəhudiliyə qarşı isə sionizm meydan oxumağa başladı, çünki bu vaxta qədərki utopik mənəvi İsrail torpağı öz dini hərəkatı olmadan siyasi səylərin mərkəzində çıxış edirdi. Sionizm özünü daha çox Avropa yəhudilərinin artan ehtiyaclarına və meydana gələn anti-semitizmə cavab verən, dövrünün dünyəvi milliyyətçi hərəkatlarından biri kimi təqdim etmişdir [32, 11]. Anti-semitik düşüncələrə görə isə sionizm siyasi və maliyyə cəhətdən dəstəkləri də daxil olmaqla, müxtəlif vasitələrlə yəhudi xalqını dəstəkləməkdən başqa bir şey deyildir. Bu terminə verilən ən qədim istinad isə II Samuel 5:7-dəndir. Burada deyilir ki, David indi Sion şəhəri adlanan Sion qalasını zəbt etmişdir.

Bir çox baxımdan sionizm yəhudilərin tarixində müasirliyi göstərir və digər milliyətçiliklər kimi dünyəvi liberalizm ənənəsinə söykənir. Eyni zamanda dövrün digər millətçilikləri kimi yəhudi dini ənənəsini və tarixin simvol və motivlərini milli hərəkatı təşviq etmək üçün istifadə edir. Bu əsas qərarsızlıq bir-birilə mübarizə

aparan sionizmin dini versiyası və liberal-dünyəvi kimi iki milli layihənin ortaya çıxmasına zəmin yaratmışdır.

Yəhudi dindarların sionizmə fərqli münasibətləri qeyd olunan müasirliyə dini reaksiyaların növlərini əks etdirir. Ultra-ortodoksal yəhudilər əsasən yəhudi dövləti yaratma fikrinə qarşı çıxaraq sionizmə qarşı çıxmışdılar. Müasir ortodoksallar isə əksinə, daha uyğun strategiyanı üstün tuturlar. Onlar sionizmi və modern həyat tərzini dəstəkləyirlər, lakin yəhudi dövlətinin , yəhudi dini norma və prinsipləri ilə qurulması və idarə edilməsi mövzusunda təkid edirlər. Müasir ortodoksallıq qısa zaman ərzində "dini sionizm" və "milli dini" adları altında dini motivasiyaya sahib olan millətçiliyin platformasına çevrildi. Beləliklə, dini düşərgə dini olmayan sionist və dini sionist tərəflər arasında bölünmüşdü. Yişuvdakı (yəhudi məskənləri) ilk ravvin Avraham İtsak HaKohen Kuk dini sionizm üçün başlıca ilham mənbəyi olmuşdur [24]. O, 1924-cü ildə Yerusəlimdə (şərq mənbələrində Qüds) "Merkaz HaRav" yeşivasının əsasını qoymuşdur [23]. A. İ. H. Kokdan əvvəl də sionizm ideyası , yəni Məsihin gəlişini gözləmədən yəhudilərin Siona (Fələstinə) qayıdışı XIX əsrin ortalarında ravvin Q.Kalişer (1795-1874, Şərqi Prussiya) və ravvin İ.Alakalayanın (1798-1878, Serbiya) əsərlərində formalaşmışdır. Onlar Yerusəlimə (Qüds) 1874-cü ildə köçmüşdülər. Bu müəlliflər bir çox məsələlərdə XVIII əsrdə yaşamış Vilens Qaon tərəfindən irəli sürülən ideyalara əsaslanırlar. Onlar liberalizm erasında yaşayırdılar. Həmin dövrdə yəhudilərin yəhudi həyat tərzinə öyrəşəcəklərinə inam güclü olmuşdur. Buna görə də, nə öz müasir quruluşunda antisemitizm, nə də yəhudiliyin məhvi təhlükəsi onlara təsir eləmirdi. Yəhudilərin Eretz Yisraelə (İsrail torpağı) sərbəst qayıdışı və orada öz dövlətlərini qurmaları messianik prosesin ilk mərhələsi olmuşdur. Onlar praktiki olaraq ölkədə yerləşmənin və ölkə ideasının mənimsənilməsinə gətirib çıxaran addımların təməlini qoymuşdular [22, 6]. Kokun teologiyası isə fərqli anlayışı özündə cəmləşdirmişdir. Digərləri müqəddəsliyi Tövrata riayət edilməsində gördüyü halda, İ. Kok İsrail torpaqlarına və yəhudi xalqına xas müqəddəslik təyin etmişdir [32, 12-13].

Ənənəvi ortodoks düşüncənin Məsih ünsürü ilə əlaqədar olaraq, yeni dinamika – 1920-ci ildə yişuvun baş ravvini İshaq HaKohen Kok sionist səyini və yəhudi

dövlətini qurtuluşa və Məsihin gəlişinə gedən yolda ön mərhələ elan etmişdir. Ravvin A. İ. K. Kukun “Degel Yeruşalaym” (Yerusəlim bayrağı) adlı hərəkatı dindar müşahidəçi icmanın bütün sektalarını birləşdirməyi qarşısına məqsəd qoyan milli-dini yəhudi hərəkatı idi. Hərəkat sionizm hərəkatı ilə yanaşı gedirdi və Shivat Tzion və Siona qayıdış proseslərinin formalaşmasına kömək oldmuşdu. Ravvin Kok Erets Yisraelin yenidən qurulmasının və yenilənməsinin dini düşərgədəki siyasi boşluqlarla körpü yaradacağı fikrində idi. Degel Yeruşalaymın əsasının qoyulması, daha sonra var olduğu iki böyük dini-siyasi icmanı Dindar Sionist Mizraxi hərəkatı (Religious Zionist Mizrachi movement) və Agudat Yisraelin anti-sionist mövqeyini gücləndirdiyi mövzusundakı anlayışını əks etdirirdi. Ravvin Kok bu fiqurların hər birinin cəmiyyətin öz sektorunda dəyərli töhvə verəcəyinə inanırdı. Həmçinin ümid edirdi ki, hər iki hərəkat öz normal fəaliyyətlərini davam etdiyi kimi, dindar cəmiyyətin bir hissəsi olaraq tam şəkildə birləşəcəklər.

Avinoam Rosenak adlı müəllif öz mülahizələrində qeyd edir ki, dinə 3 yanaşma vardır:

- qapalı
- tamamilə açıq
- qismən açıq və qapalı

Müəllif bildirir ki, dini dünya ilə sionizm arasındakı əlaqə hər zaman təzyiq altında olmuşdur. Lakin bu istiqamətdə müxtəlif yanaşmalar bu təzyiqi müəyyən mənada dəyişmişdir. Bu mənada qeyd edə bilərik ki, Ravvin Kokun dini inamı da özünü müasirlik və sekulyarizasiya simasında göstərirdi. O, əslində milliyyətçiliyin artması və yəhudi xalqının geri qayıtmasından heyran qalmışdı və bu istiqamətdə üçbucaq modeli təklif etmişdi: İsrail əhalisi, Erets Yisrael və İsrailin Tövratı.

Ravvin Kok gücün əlaqəsini izah edərkən yəhudilərin siyasi müstəqilliyi məsələsinə toxunmuşdur. O güc deyərkən fiziki və siyasi güc məsələsinə toxunaraq, fiziki gücün önəmini,vücudun müqəddəsliyini də vurğulayırdı.

Dinin insan mənəviyyatına təsirindən danışan Ravvin Kok dinin insan üçün əhəmiyyətindən bəhs edirdi. Ravvin Kokun yanaşmasının əsasını sekulyar dünya təşkil edirdisə də, o dini baxışlarını da kənara qoymurdu [113].

Ravvin Kokun ateizmə münasibətinə gəlincə isə, o, ateizm ideyalarını din çərçivəsində inkişaf etdirməyin vacib olduğunu hesab edən ilk dindar filosof idi. Ateizmdə bu ilahi işığın qığılcımı - şübhədir. Şübhə kor-koranə şəkildə mövcud olan inama əksdir. Bizim Allah haqqında anlayışımız məhdud olduğundan, biz şübhələnməliyik, təhlil aparmalıyıq. İdeal iudaizm – cavab deyil, suala keçiddir, başqa cür inkişaf etmək, irəliyə hərəkət etmək mümkün deyil [22].

Ətrafındakı bütün mədəniyyətlərə və yaxşı ideologiyalara açıq olan Ravvin Kok hər şeyin mərkəzində insanlığı görürdü. Eyni zamanda düşünürdü ki, yəhudilik insanlıq ənənələrini qorumaq üçün ən önəmli mənbədir [113].

Ravvin Kok, fərdi hərəkətlər mövzusundakı simpatiyasını saxlamasına baxmayaraq, sionizm hərəkatı ilə mübarizə etmək üçün birləşmiş dini cəbhə yaratmağa çalışdı. Onu da qeyd etmək lazımdır ki, dini liderlərdən biri olsa da, İ. Kok haredi cəmiyyətində də bir çox düşmən qazanmış oldu [29]. Bütün səylərinə baxmayaraq, bu cəmiyyət arasında çox uğur qazana bilmədi.

Bununla belə sionist hərəkatına ən güclü müqavimət Hasidik qüvvələrindən gəlmişdir. Həm yazılarında, həm də çıxışlarındaən açıq sözlü müqabil Lübavitçer ravvini - ravvin Şalom Dov Baer Şnerson  idi. Ravvin Şnerson öz fikrini belə əsaslandırırdı ki, sionizm Məsihin biri digərinin törəməsi olan 2 prinsipdəki ənənəvi fikrini rədd edirdi. Sionizmə qarşı əsas etiraz odur ki, o Məsih dövrünə olan itaətkar mövqeyi rədd edir. Talmuda görə, hər kəs Məsihin zühuruna yol açmaq üçün Allahın bəşəri məsələlərə fövqəltəbii müdaxiləsini gözləməlidir. Bütün bəşər fəallığı "sonu (ölümü) sürətləndirmək" andının aradan qaldırılmasıdır. İkincisi, bəşər amilinin səbəb olduğu istənilən şey utopik ideala çatmır. Ravvin Şnersona görə, Məsih dövrünün anlayışı ideal, təmiz və mükəmməl dövlətdir, bu da yalnız Allahın  möcüzəvi vasitəçiliyi ilə reallaşdırıla bilər.

XIX əsrin sonlarında ən erkən dini Milli Sionist mütəfəkkirləri məsələyə köklü surətdə fərqli yanaşma seçdilər. Bizim Dini Sionistlərin ilk nəsli adlandırdığımız ideoloqlara Ravvin Yehuda Alxalay, Eliyahu Qolomb, Natan Fredland, eyni zamanda Zvi Hirş Kalişer və başqaları aid idi. Onların islah etmə, yəni günahların

bağışlanması fikri belə başa düşüldü ki, onun reallaşması insanın gücü daxilində təşəbbüs edilmiş təbii prosesi əhatə edir [85].

Ümumiyyətlə, təzyiq altında yaşamış Şərqi Avropa yəhudilərinin tərəfdarı olduğu mədəni sionizm isə Fələstin torpaqlarında yəhudilərin yerləşməsinə kifayət edən yəhudi məskənlərinin yaradılması və bu torpaqlarda mədəni yenidən doğuş fikrini müdafiə edirdi. Hərəkatın baş müdafiəçilərindən Aşer Ginqsberq (Ahad HaAm) Fələstin torpaqlarındakı bu yenidən doğuşun, diasporadakı yəhudi həyatını da canlandıracağına və bütün bu inkişafların sonunda yəhudi əxlaq və dəyərləri çərçivəsində yəhudi identikliyinin meydana gələcəyinə inanırdı. Bu identiklik meydana gəlmədən qurulacaq yəhudi dövlətinə isə Hertselin əksinə olaraq isti baxmırdı [17, 15-19]. Onu da qeyd etmək lazımdır ki, ravvinlər arasıda da fikir ayrılıqları mövcud olmuşdur. O cümlədən, sionizmə münasibətdə də Zvi Hirş Kalişer və Yehuda Salomon Hai Alkalaini qeyd etmək lazımdır. Sionizm ideologiya kimi yaranıb formalaşdığı zaman onun tərəfdarları – aktivistləri demək olar ki, sırf ateist və aqnostik idilər. Ümumiyyətlə, yəhudilikdə sionizmə kök salmaq niyyətində olan bu iki ravvin belə - Z. H. Kalişer və Y. S. H. Alkalai – yəhudi ənənəsindən çox, XIX əsr Avropa millətçiliyinin atmosferindən daha da ilham aldı. Kalişer və Alkalai onları yəhudi ənənəsindən uzaqlaşdıran müzakirələr aparır, tez-tez şərəf və qürurdan bəhs edirdilər [111, 75-85]. Ravvin Şmuel Mohilever isə qeyd edirdi ki, yəhudilərin varlığının qaynağı olan Tövrat onların atalarının torpaqlarında canlanmasında əsas qüvvə olmalıdır. Eyni zamanda yəhudilərin "dirçəliş" ifadəsinə aydınlıq gətirərək, dirçəliş yeni insanların yeni mədəniyyətlə qalxması kimi yox, qədim insanların yenidən doğuluşu olduğuna dair fikir irəli sürmüşdür. Belə ki, ravvinlərin kiçik hissəsi Sionist layihəsinə qoşulduqda dini sionizm icad edildikdə dünyəvi və sionist yəhudilər arasındakı açıq ayrı-seçkilik azalmışdır.

Dövlətin dünyadakı Tanrının varlığı və Ravvin Kokun digər təlimləri dini sionist qrupların artmasına və Altı günlük (1967-ci il) müharibədən sonra mühacirlər hərəkatına böyük ölçüdə təsir etmişdir [45, 8]. Belə ki, dindar sionistlərin dövlətin meydana gəlməsində daha az marağa sahib olmalarına baxmayaraq, 1967-ci il İyun döyüşündən sonra mühacirlər birliyi ön planda olan illərdə əhəmiyyətli rol oynamağa

başlamışdır. 1990-cı illərdəki sülh prosesi, dünyəvi və dini düşərgələr arasındakı bölünməyi dərinləşdirmişdir. Koalisyonal və lobbiçi siyasətlər vasitəsilə, kiçik dini partiyalar hökumət siyasəti üzərində nisbətsiz olaraq yüksək təsir yaratmışdır.

Qeyd edək ki, dünyəvi olmasına baxmayaraq, sionizm ideologiyası dini düşüncədən ilhamlanmışdır. Teodor Hertselin başçılığı altında sionistlərin dövlət yaratmaq cəhdləri nəticəsində yəhudilərə dövlət yaratmaq üçün təklif olunan torpaqlardan biri də Uqanda idi. Lakin Uqanda Sion deyildi və heç vaxt da olmadı. Buna cavab olaraq T. Hertsel VI Sionist Konqresində and içərkən təntənəli şəkildə Yerusəlimə sadiq qalacağını bildirmişdir [98, 14-26]. Belə ki, fikrimizcə, 14 May 1948-ci ildə İsrail dövlətinin yaradılması sionizmin uğurlu fəaliyyətinin nəticəsi hesab olunur.

Bununla yanaşı, ənənəvi dinlər mütəmadi olaraq millətçiliyi dəstəklədiyi halda, yəhudilik və sionizm arasındakı münasibətlər böyük ölçüdə fərqlənir. İlk əvvəllər ənənəvi yəhudilik meyllərinin dərhal rədd etdiyi sionizmə etiraz halları bu günə qədər də müşahidə olunur.

Hazırkı dövrdə yəhudilərin əksəriyyəti ayin qaydalarına əməl etməsə də, ravvin yəhudiliyi kimi tanınan əsas dəyər və prinsiplər yəhudi həyatını təyin etmiş oldu. Ravvin yəhudiliyi II əsrdən bu yana hazırlanan – Midraş, Mişna, Talmuddan ibarət olan şifahi Tövrata əsaslanır [111, 75-85].

Bəzi yəhudilərin fikrincə, din zamanı, sionizm məkanı təqdis edir. Buna görə də yəhudilərin həm dini, həm də sionizmi rituallaşdırmalarına ehtiyac var. Onlar fikirləşirlər ki, din onlara müqəddəs təqvim verir, sionizm isə müqəddəs xəritə ilə təmin edir. Məkanın liturgiyası – onların vətənlərinə ziyarət və bəziləri üçün hazırda orada yaşayıb o yerin çevrələri ilə əlaqədə olan diaspora yəhudiləri müqəddəs zaman hissini bilirlər. Aliyanın belə müqəddəs seçim olduğunu qeyd edirlər. Yəni bu vaxtından əvvəl məkanın müqəddəsliyini qeyd etmək qərarıdır. Dini Sionizm iki baxımdan diaspora dövrü - zamanı və İsrail məkanı vasitəsilə Məsih ilə bağlıdır. Yaradılış, vəhy və islah etmənin, yəni günahların bağışlanmasının dini konseptual sxemi Sionizm sürgün mühacirəti və islah etməsilə qarşılaşdırılır və müqayisə edilir. Hər ikisində günahların bağışlanmasının simvollarına rast gəlinir, lakin sionizm üçün

bu zamanında təsadüf edilən, baş verən məkani hadisə - fenomen olduğu halda, din üçün bu, məkanında təsadüf olunan zamana aid bir şeydir.

Bəziləri bu fikirdədir ki, sionizm İsraildə hər kəsə təkabül edərsə, israillilərə həyatlarının mədəni və ruhi aləmlərində mənalı şey təqdim etməlidir. Başqa sözlə, İsrail cəmiyyətindəki sionizm ideologiyası və hərəkat yəhudi identikliyinə bağlı olmalıdır. İsraildəki yəhudilərə - gənc və yaşlı, yeni immiqrantlar və əməkdar immiqrantlar, sabralar və elm adamları - yəhudi keçmişinə, indiki və gələcəkdəki yəhudi ənənəsinə (təbii ki plüralist olaraq aydın olmuş) və yəhudi tarixinə bağlanmalarında köməkçi olmalıdır [72].

Əlbəttə dini sionistlərin böyük əksəriyyəti teoloq (ilahiyyatçı) deyillər və bu təməl dini mülahizələrdə öz düşüncələrini dünyəvi məsələlərdə, xüsusilə də, milli identiklik qayğıları, vətəndaşlıq, azlıqların hüquqları, demokratiya və siyasi baxışlarda əsaslandırırlar.

1980-ci illərin sonlarından bəri, dini sionistlər İMQ-nə (İsrail Müdafiə Qüvvələri-Israel Defense Forces) qoşuldular və yüksək vəzifəli hərbiçilərdən də ola bildilər.

Dini sionist ideologiyanın əsas axını, hazırkı dövrdə Siona geri dönüş və yəhudi dövlətinin yaradılmasını  başlıca olaraq anti-semitizm və zorakılığa cavab olaraq deyil, dini və ilahi ideallarınhəyata keçməsi hədəfini əsas götürür.  Bundan başqa, bu ideologiya yəhudi dövlətinin institutlarında və ictimai həyatında ilahi fikirlərin dərk edilməsinə əsaslanır. Nəticədə, dini sionistlər inanırlar ki, bu dərketmə həm utopist, həm də bərpaedici xarakterə malik olacaq.  Bu utopik və bərpaedici istək də müasir dini sionizmə messianik xarakter verir.

Müasir dini sionizm demokratiyanı xalqın iradəsini ifadə edən hökümət mənasında dəstəkləyir. Dini sionizm ideologiyasına əsasən, xalqın, millətin əsl daxili iradəsi, əslində Allahın iradəsidir. Dindar sionistlər və onların nümayəndələri bu təməl, teoloji, ideoloji və siyasi mülahizələrdən praktik, gündəlik ictimai və siyasi məsələlər üzrə öz stendlərini formalaşdırmaq üçün istifadə edirlər [87].

Bu gün dini sionizm özündə müxtəlif ideologiyalı, bu və ya digər əmrlərə əməl edilməsinə ciddi yanaşanları, Halaxanın (yəhudi qanunları) astanasında olanları və onu “sadələşdirmək” üçün vasitələr axtaran liberalları, özlərini Xardal (haredim

datiim leumiim) adlandıran qatı dindarları , ravvin A. İ. Kuku öyrənənlərdən "neoxasidlərə" qədər müxtəlif təşkilatları, qrupları və fərdləri birləşdirir.

Eyni zamanda, İsrail dövlətinin qurulmasından bu günə qədər dini-sionist partiyalar ölkənin siyasi həyatında aktiv iştirak edirlər. Bundan əlavə, dini sionistləri İsrail dövlətinə "müqəddəs gəmi" kimi yanaşmaları və ictimai həyatın müxtəlif sferalarına inteqrasiya eləmək cəhdləri birləşdirir.

Dinə əsaslanan Erets Yisraelə qayıtmaq ideyası İsrail dövlətinin yaranma ideologiyasında əhəmiyyətli rol oynamışdır. Fələstindəki ingilis mandatlığının sona çatmasından bir gün əvvəl, 14 May 1948-ci ildə müstəqilliyini elan edərək qurulan İsrail dövləti, yarandığı vaxtdan təxminən 70 il keçən dövlətdir. Və İsrail dövləti dini və tarixi köklərini Tövratda bəhs edilən İsrail Torpaqlarına (Eretz İsrail) qədər aparır[4].

Nəticə olaraq, bunu deyə bilərik ki, İsrail dövlətinin yaranmasında siyasi sionizmin rolu böyükdür. Lakin, Sionizmin meydana gəlməsi ilə onun dini sionizm qolu da yaranmışdır. Belə ki, hazırkı dövrdə də dini sionizmin tərəfdarları mövcuddur və bu, yəhudilər arasında özünü dövlətin siyasi, dini-etnik mənzərəsində də göstərir.

## 1.2. İsrail dövlətinin siyasi və dini etnik mənzərəsi

İsrail ərazi cəhətdən kiçik ölkə olsa da, ölkənin azsaylı əhalisi zəngin dini-etnik mənzərəyə malikdir. Mərkəzi Statistika Bürosunun (Central Bureau of Statistics) məruzəsinə əsasən, 2016-cı ilin sonlarında İsrail dövlətinin əhalisinin sayı 8.680.000 nəfərə çatmışdır. Yarandığı gündən bu günə kimi ölkə əhalisinin sayı 10 dəfə artmışdır [65]. Əhalinin 74.8 %-ni (6.450.000) yəhudilər, 20.8 %-ni (1.796.000) ərəblər və 4.4%-ni (384.000) isə ərəb olmayan xristiyanlar, bahailər və digərləri təşkil edir [105]. Dövlətin yəhudi əhalisinin təxminən 80%-i dünyəvi, 20%-i isə dindardır və haredilər dindar əhalinin təxminən 6%-ini təşkil edir (2008) [39, 89]. Dövlət yarandığı dövrdə 806.000 vətəndaş var idisə, 1949 və 1958-ci illərdə əhalinin sayı

müvafiq olaraq, bir və iki milyona çatdı. Mövcud əhali artımını nəzərdən keçirən mütəxəssislər 2025-ci ilə qədər İsrail əhalisinin 10 milyona çatacağını qeyd edirlər [105].

Qanun yəhudilik, xristiyanlıq, islam, druz və bahayi dinlərini və şərqi ortodoks, latın (Roma katolik), qriqoryan erməni, erməni katolik, suriyalı katolik, kəldani, yunan katolik melkit, maronit, suriyalı ortodoks kimi qəbul edilən xristian dini icmaları tanıyır [59, 5-7].

1999-cu ildə Qutman İnstitutu tərəfindən aparılan araşdırmalara görə, İsrailin yəhudi əhalisinin 43%-i (ümumi 2717 nəfərdən 1272 nəfəri) özlərini dindar olmayan kimi, əlavə olaraq 5/100-i isə özlərini din əleyhdarı kimi təqdim etmişdilər [73, 7]. 2014-cü ildə haredim İsrail əhalisinin 11%-ini əhatə edirdi. 2030-cu ilə qədər 18%-ə çatacağı gözlənilir [93, 2].

Salo Vismayer Baron özünün "Yəhudilərin sosial və dini tarixi" ("A Social and Religious History of the Jews") kitabında qeyd edirdi ki, XIX əsrin sonlarında yəhudi milliyyətçiliyi yəhudi həyat tərzində yenidən dominant güc halına gəldi. Yəhudilikdən xəbərdar olan hər bir yəhudi, yəhudi etnik quruluşuna olan bağlılığını ya təsdiq etməli, ya da inkar etməli idi. Bir çox yəhudiləri əhatə edən öz milli dövlətlərini yaratmaq ümidi olmayan yəhudi millətі ciddi maneənin olduğunu irəli sürdülər. Yəhudilərin müxtəlif etnik çoxluqlar tərəfindən absorbsiyası öncədən güman edilsə belə, hər milli dövlət mümkün qədər tam milli olmalıdır. Milli hökümətə inteqrasiya olunsalar belə, onlar öz etnik homogenliklərinə təsir olunmasına yol verməməlidirlər. Bununla belə bu dövrdə milli unifikasiyaya aparan Qərbi Avropada, eləcə də Almaniya və İtaliyada nisbətən azsaylı yəhudi əhalisini getdikcə etnik qrupdan daha çox dini qrup kimi hesab edirdilər [31, 262-293].

Qeyd edək ki, Şərqi Avropadan İsrailə köç edən haredim aşkenazi yəhudilərdir. Yaxın Şərq və Şimali Afrikada İslam ölkələrindən, eyni zamanda İspaniyadan İsrailə köç edən ortodokslar isə sefard yəhudiləridir. İsrail dövlətinin yarandığı ilk illərdən aşkenazi yəhudilər sefard yəhudilərinə ayrı-seçkilik etdilər. Aşkenazi yəhudilər sefard yəhudilərini eyni keçmişi, ənənəni paylaşmayan , intelekti olmayan geridəqalmış insanlar kimi görürdü. Aşkenazi sionistlər də belə fikirləşirdilər. İstər haredi, istərsə

də sionist sefardlara bu səbəbdən ikinci dərəcəli vətəndaş kimi rəftar edirdilər. Aşkenazi haredilər daha çox sosial idilər, akademik cəhətdən və maddi gəlir əldə etmək cəhətdən sefard yəhudilərdən öndə gəlirdilər. Eyni şeylər sionistlərə də aid idi. Bu haredi icmasının tamamilə birləşməsinə maneə yaratmışdır [112, 28-32].

XVIII əsrin sonlarında Ortodoks hərəkatında bölünmə baş vermişdir. Bəzi yəhudilər yəhudiliyin və müasir həyatın möhkəm dini ehtiyaclarının uyğunlaşdırılmasının mümkün olduğunu və bunun davam etdirilməsinin lazım olduğuna inanırdılar. Bu yanaşma onları assimilyasiya edən digər yəhudilərdən fərqləndiridi, çünki onlar yəhudi inanclarının hər hansı bir parçasını fəda etmədilər. Bu yəhudilər "müasir ortodoks" olaraq tanınırdı. Bununla yanaşı, belə bir balansın olacağına və "əsl yəhudi" olmağın modernliyinə inanmayan yəhudilər də vardı. Bu yəhudilər isə hazırkı dövrdə də "ultra-ortodokslar" kimi tanınır [90, 249].

Aşer Maozun fikrincə, ortodoksluk dindən azad olma qanunuyla əlaqədar real problemdir, çünki Halaxa hər yəhudini yalnız öz davranışları üçün deyil, eyni zamanda yəhudini yəhudinin davranışından məsul hesab edir. Maozun fikrinə görə, ortodoksluq dindən azadlığa olan tələbi qanun və dəyərlərə söykənən dəyər kimi deyil, rahatlıq kimi görür, bu səbəblə də bu tələbi tamamilə qeyri-qanuni hesab edir.

Dünyəvilər arasında yaşayan ortodokslar sosial və coğrafi cəhətdən daha çox izolyasiya olunurlar. İsrailin yəhudi əhalisi artdıqca ultra-ortodoks azlığın ciddi şəkildə riayət etdikləri ritualları yerinə yetirmək üçün özlərini dünyəvi icmalardan ayırması açıq idi. Bəzi tədqiqatçılar qeyd etmişdilər ki, bu insanlar tamamilə fərqli dünyada yaşayırlar. Onların özünəməxsus geyim tərzləri, öz məktəbləri və məhəllələri var, əksəriyyəti televiziyanı izləmirlər və ya müasir populyar fəaliyyətlərlə məşğul olmurlar [99].

Ümumilikdə, İsrailin yəhudi əhalisi dini etiqadına görə hiloni (dünyəvi), masorti (ənənəçi), haredi (ultra-ortodoksal), dati (ortodoksal) olmaqla 4 yerə bölünür. Haredilərin həyatında din əhəmiyyətli rol oynayır. Haredi sözü hərfi mənada "Allahdan qorxan" mənasını verir və əksər haredilər (ultra-ortodoksallar) özlərini cəmiyyətin digər üzvlərindən təcrid edirlər, onlar dövlətin idarəolunmasında dini qanunların prioritet olmasının mütləqliyini təkidlə qeyd edirlər. Dünyəvi yəhudilər

isə əksinə olaraq qeyd edirlər ki, demokratik prinsiplər dini qanunlardan üstün götürülməlidir. Haredi yəhudilər dövlətə münasibətdə belə fikirləşirlər ki, Məsiha gəlməmişdən əvvəl gərək rəsmi İsrail dövləti yaradılmasın. Məsələn, digər yəhudilərlə müqayisədə haredilərin çox az qismi Sionizmi qəbul edir. Dati (dindar) yəhudilər dini mövqeyinə görə haredilərə daha yaxındır. Amma onlardan fərqli olaraq, orduda iştirak edirlər. Dindarların əksəriyyəti ölkə siyasətində aktiv iştirak edir və digər yəhudilərlə müqayisədə ərəblərin ölkədən təcrid olunması ideyasını daha çox dindar yəhudilər dəstəkləyirlər [66].

Heç şübhə yoxdur ki, din İsrail dövlətinin müxtəlif istiqamətlərinə yayılmışdır. İsrail hökümətini, dövlətin dəstəklədiyi institutları və İsrail parlamenti Knessetdə keçən qanunları təmsil edən fiqurlarda dini təsir diqqətə çarpan dərəcədədir. Ölkədə dünyəvilər tərəfindən ən çox tənqid olunan şey isə yəhudi vətəndaşların şabat istirahət qanunları kimi bəzi dini ritualların tətbiqinə uyğunlaşmağa məcbur edilməsidir [99, 1]. Eyni zamanda dini normalar böyük ölçüdə hər bir israillinin həyatına təsir edir. Məsələn, şənbə və yəhudi bayramları günlərində kütləvi nəqliyyat vasitələri işləmir və evlilik və ailə məsələri dini qanunlara tabedir.

Əvvəllərdə də qeyd olunduğu kimi, İsraildə mübahisənin əsas səbəblərindən biri də dindar və dindar olmayan yəhudilər arasındakı ziddiyyətdir. 1948-ci ildə - İsrailin müstəqilliyini elan etdiyi ilk vaxtlarda ortodoks yəhudilik rəsmi olaraq tanınmış və din millətin yəhudi vətəndaşları üçün dəstəklənmişdir. Eyni zamanda ortodoks vətəndaşlar da status-kvonu əldə saxlamağa niyyətlidirlər. Bunun əksinə olaraq, İsraildəki qeyri-dindar yəhudilər "dini plüralizmi təşviq etmək" üçün əllərindən gələni edirlər.

Ölkənin haredi əhalisi özlərindən olmayanı kənarlaşdırırlar və bu gündəlik həyatın hər sahəsində hiss edilir. Məsələn, Beyt Şemeşdə dünyəvi bir qadın geyiminə görə haredi kişinin hücumuna məruz qalmış, heç kim də köməyinə gəlməməişdir. Xüsusilə, məbədin son qalıqlarından olan Qərb divarında (הכותל המערבי-Kotel HaMaaravi) bu vəziyyət tez-tez müşahidə olunur. Haredilər yaşayan bölgədə açılan xəstəxana broşuralarında dini geyim qaydalarına uyğun olmadığı üçün qadın həkimlərin şəkillərindən istifadə edilmir. Bundan başqa, haredilərin yaşadıqları

bölgələrdə avtobuslarda cinsiyyət ayrı-seçkiliyi müşahidə olunur – avtobusun qabaq tərəfi kişilər üçün, arxa tərəfi isə qadınlar üçün ayrılmışdır. “Kav Mehadrin” adlı avtobusda dini geyim qaydalarına və digər dini qaydalara əməl olunur. Bu, 2011-ci ilə qədər qanuni idi, daha sonra ləğv olunsa da, yenə də tətbiq edilir [10].

Dünyəvi yəhudilər və haredilər arasında gərginlik həmişə yüksək olmuşdur, lakin onlar arasındakı fikir ayrılığının – münaqişənin gələcəkdə necə olacağı qeyri-müəyyəndir. Bu mənada İsrailin dünyəvi – haredi əhalisin münasibətləri haqqında dəqiq proqnozlar demək mümkün deyil. Hazırda hər iki tərəfin udmaq və uduzması üçün müəyyən əlamətlər var. Fikrimizcə, əgər ölkədə haredi təsiri bugünkü kimi davam etsə, İsrail heç vaxt tamamilə müasir ola bilməz. Həmçinin İsrail haredilər olmadan da bütünlükdə yəhudi identikliyini (dini nüqteyi nəzərdən) qoruya bilməz. Həmçinin qeyd etmək olar ki, etnik identiklik, Fələstin problemi, Yerusəlimin statusu məsələsi və digər məişət problemləri ölkənin yəhudi və yəhudi olmayan əhailisi arasında vaxtaşırı artıb-azalan narazılığın əsas mənbələrindəndir.

İsrail Müstəqillik Bəyannaməsi, [57; 64] "dinindən, irqindən və ya cinsiyyətindən asılı olmayaraq, bütün sakinlərinə sosial və siyasi hüquqlarının bərabərliyini təmin edəcək" bir dövlət qurmağı vəd etmişdir. Qanunla bərabər olmalarına baxmayaraq, hökumətin dəstəklədiyi 2003-cü il Komissiya hesabatı, ictimai qaynaqlarının yəhudilər və ərəblər arasında bölgüsündə balanssızlıq müəyyən etdi və ayrı-seçkiliyin aradan qaldırılması və yəhudilərlə ərəblər arasında dövlət xidmətlərindən qeyri-bərabər istifadəni azaltmaq üçün həll ediməsi lazım olan məsələlərin daha çox olduğunu ifadə etmişdir [63, 3-4].

Yəhudilər və İsrail ərəbləri arasındakı münasibətlərə təsir edən əsas fatorlardan biri təbii ki, Fələstin-İsrail münaqişəsi, ümumilikdə ərəb-İsrail münaqişəsinin davamıdır. Eyni zamanda etnik kimlik və vətəndaş kimliyi əsas ziddiyyət kimi mənfi abu-hava yaratmışdır və bu, İsraildəki ərəb azlığın da statusuna təsir etmişdir [115]. İsraildə etnik kimlik ictimai münasibət və davranışın əhəmiyyətli determinantı kimi qəbul edilir. 1947-ci ildə Fələstin əhalisinin 2/3-sini təşkil edən ərəblər yeni İsrail dövlətində azlığa çevrildilər. Eyni zamanda, ərəblərin əksinə olaraq, yəhudilərin dünyanın hər yerindən Fələstinə miqrasiyası nəticəsində İsrail dövləti öz

suverenliyində böyük əksəriyyətə nail oldu. 1966-cı ilə qədər, təxminən 20 ilə yaxın ərəb sakinlər hərbi idarəyə tabe saxlanıldılar. Ancaq ərəb icmasında hərbi rəhbərliyin qoyduğu qanunlar aradan qaldırılmadı. 1950-ci il, 5 iyulda qüvvəyə minmiş "Qayıdış (və ya geri dönmə) qanunu"na görə, (The Law of Return) İsrail dövləti hər bir yəhudi üçün milli ev kimi təyin edilmişdi. Beləcə, İsrailə qayıtmaq istəyən hər bir yəhudi avtomatik vətəndaşlıq qazanırdı. Digər qruplara isə bu aid deyildi [91].

Ölkədə yəhudilərin öz aralarında narazılıqlar olduğu kimi, polis ilə ərəb azlıq arasındakı xroniki şübhə və narazılıq, böyük, mübahisəli ictimai asayiş hadisələri ilə periodik olaraq gücləndirilir. Baş vermiş ciddi hadisələrdən biri, keçmiş müdafiə naziri Ariel Şaronun Yerusəlimdəki Məbəd dağını ziyarət etməsindən sonra 2000-ci ilin oktyabrında reallaşmışdı. Şaronun ziyarəti ərəblər tərəfindən Əl-Əqsa məscidinin müqəddəsliyinin pozulması kimi qiymətləndirilmiş və səkkiz gün davam edən qiyam dalğasına yol açmışdı. Polis, bu çətinliklərə sərt tədbirlərlə cavab vermiş və nəticə etibarilə 13 ərəb öldürülmüşdü [53, 731]. Ölkədəki digər dinlərin nümayəndələrindən olan xristianlar 1948-ci il İsrail Müstəqillik Bəyannaməsinə əsasən, sərbəst şəkildə dini etiqad və vicdan azadlığından yararlanırlar. 1967-ci ildə bütün müqəddəs yerlərə pulsuz giriş zəmanət altına alındı [50]. Həmçinin, İsrailin müsəlmanların müqəddəs yerləri ilə müqayisədə xristianların müqəddəs yerləri ilə qarşılıqlı əlaqəsi daha az problemlidir. Yunan ortodoks və yunan katolik kilsələri ilə əlaqədar olaraq, üzvlərinin əksəriyyəti ərəblər olmasına baxmayaraq, din adamları yunandır və xüsusilə kilsələrin mülkiyyət məsələsi ilə bağlı olaraq liderlər və din adamları arasında gərginlik mövcuddur. İngilis və İsrail hüquq sistemi tərəfindən qəbul edilən türk sisteminə görə, dövlət tərəfindən təsdiqlənən fərqli xristian qruplar fərdi status məsələləri və dini məhkəmələr üzərində qanuni məhkəmə səlahiyyətinə malikdir, hökumət tərəfindən maliyyələşdirilmədiyi halda evlilik və boşanma ilə əlaqədar qərar qəbul etmə səlahiyyətinə malikdir [43].

Yerusəlimdəki xristianların vəziyyəti, əsasən, Fələstin-İsrail münaqişəsinin mərkəzində yer alan mövqelərindən və Yerusəlimin mübahisəli statusundan təsirlənir. Fələstin muxtar bölgələrdə getdikcə artan ayrı-seçkilik müəyyən problemlərə səbəb olur və orada yaşayan xristianlarla əlaqə saxlamaq daha da çətinləşir. İsrail və Qərb

Sahil (West Bank) arasındakı təhlükəsizlik divarı da müqəddəs məkanlara daxil olmaq üçün çətin olur. Bundan başqa ailələlərin Fələstin muxtariyyatı altında yaşayan qohumaları ilə qanuni şəkildə birləşmələri artıq çətindir. Digər problem isə Yerusəlimdəki xristian icmalarında yaşamaq istəyən xarici kilsə nümayəndələri üçün mövcud olan vizalar məhdudlaşdırılır.

Hazırkı dövrdə xristian ərəblər ərəb milliyyətçiliyi mövzusunda ənənəvi olaraq vəzifə duyğusu hiss edirlər və fələstinli qardaşlarını Fələstin dövləti qurma arzusunda dəstəkləyirlər. İki dövlətli həll indiki dövrdə İsraildəki ərəb xristianlar tərəfindən əsas axın kimi görülür.

Lakin xristianların əksəriyyəti Fələstin dövlətinin də onları azlıq mövqeyinə gətirəcəyənin fərqindədir. "Müqəddəs torpaqlardakı  xristian ərəblər ürəkdən azad Fələstin dövlətinin yaradılmasını dəstəkləyirlər. Lakin Ərəb milliyyətçi hərəkatının xristianlara bərabərhüquqlu vətəndaş kimi davranılması üçün lazımlı şərtləri, yəni siyasətin bütünlüklə dünyəviləşməsini əsla əldə edə bilməyəcəklərini də başa düşürlər.

İsrailin ərəb azlığının artan islamlaşması və ərəblərin əksəriyyəti arasında islamıın ərəb ilə eyniləşdirilməsi, xristianlara şüurlu olaraq xristian şəxsiyyətinə işarə edərək ərəb vatandaşlıqlarını arxa plana keçirmələrinə yol açdı. Dini və milli identiklik arasındakı bu  böhran xüsusilə gənclərdə gözə çarpır. Gənc xristianlar yerli kilsələrin xüsusilə xristian dini identikliyini gücləndirmək üçün çox az şey etdiyinə inanırlar [50].

2008-ci ildə isə İsrail Araşdırmaları üçün Yerusəlim İnstitutu tərəfindən 500 yəhudinin sorğusunun keçirilməsi ilə İsraildə xristianların ənənəvi və dünyəvi yəhudilərdən daha çox dindar yəhudilər tərəfindən rədd edilməsi halı özünü yüksək səviyyədə göstərdi. Məsələn, 85% deyirdi ki, onlar İsraildə və İsraildən xaricdə heç bir xristian tanımırlar. (34% dindar olmayan yəhudi ilə müqayisədə) 31% dindar olmayan yəhudiyə qarşı 67% Yerusəlimin xristianların mərkəzi şəhəri olmasına inanmırdılar.

Nurit Novis Deutş “İsraildə dindar yəhudilərin  yəhudi olmayanlara münasibəti” adlı məqaləsində “dindar yəhudilər” və “yəhudi olmayanlar” kimdir suallarına cavab

axtarmışdır. Müəllif qeyd edirdi ki, Tel-Əviv məktəblərindən birində keçirilən sorğuda 536 yeniyetmədən eyni yaşda və eynicinsli ərəblə dostluq etmək istəyib istəmədiklərini soruşmuşdular. Nəticədə dünyəvi və ənənəvi yəhudilərin 23%-i cavab verməkdən imtina etmişdi, 100/80 % haredi və dindar sionistlər isə ərəbləri özlərinə dost olaraq seçməyəcəklərini bildirmişdilər. Bu sorğu da sübut etdi ki, 39% dünyəvi və ənənəvi yəhudiyə qarşı dindar yeniyetmələrin 82%-i İsraildə ərəblərin yəhudilərlə birgə bərabərhüquqlu olmasına qarşıdır [38].

Ölkə əhalisinin digər dini-etnik azlıqlarından olan, dünyadakı ümumi sayı iki milyon çatan druzların əksəriyyəti 3 Aralıq dənizi ölkəsində - Suriya, Livan və İsraildə yaşayır. Druzların əsas xarakterik cəhətləri onların gizli olan və yalnız kiçik qrupun tanıdığı dinləridir. Druzların öz milli dəyərləri və fərqli mədəniyyətləri yoxdur. İcmanın ağsaqqalları artıq gənc nəslin kimliklə bağlı suallarına qənaətbəxş cavab verə bilmir. Bu da qismən dinlərinin gizliliyi ilə bağlıdır.

Druzların əsas dini kitabı "Qütb al-Hikma" ya da "Rasail al-Hikma" (Müdriklik kitabı və ya Müdriklik yazıları) olaraq adlandırılmışdır. Bu kitab gizli sayılır və yalnız dini alimlərin araşdırmasına icazə verilir. Dini iqamət təriqətin 25%-indən çoxunu təşkil etmir. Druzların əksəriyyəti "dünyəvi" (Juhhal) olaraq qəbul edilir və bazar və cümə axşamı axşamları reallaşacaq dini kitablara ya da dini məclislərə iştirak etməyə icazə verilmir. "Qütb əl-Hikma" ərəbcə yazılmış və çap edilmiş olaraq nəşr olunması qadağandır. Bu mətnlər, kitabların icazəsi olmayan şəxslər tərəfindən araşdırılmasından diqqətlə qorunmasını təmin etmək üçün dini müdriklər və xəttatlar tərəfindən nüsxəyə alınır [37]. Druzlar dini inanclarına görə, içki içmir, siqaret çəkmirlər. Nə donuz əti yeyir, nə də içki içirlər. Dul və ya boşanmış qadınların yenidən evlənməsinə icazə verilmir. Ərəb qadınların əksinə, druz qadınlarının əksəriyyəti evdən kənarda işləyirlər [27]. Belə ki, yəhudi əhalisinə yaxın olan, dövlətin maraqlarına uyğun gələn sahələrdə - siyasi və hərbi sahələrdə İsrailin mənafeyinə uyğun fəalliyyət göstərmələrinə baxmayaraq, dini və etnik bütünlük onları bir-birindən ayırır [79, 575].

Druzlar hər nə qədər ərəblərin kiçik bir hissəsi kimi qəbul edilsə belə, onların ərəblərlə münasibətləri heç vaxt çox yaxşı olmamışdır. Çünki druzların ərəb

hökmranlığı dövrundə kəndləri yandırılmış, İslama bağlıymış kimi görünməyə məcbur edilmişdir. Buna görə də, 1936-1039-cu illərdə ərəb müqaviməti dövründə də, 1948-ci il müharibəsində də İsrail tərəfindən iştirak etmişdilər. Bu seçimlərinə görə, druzlar ərəblər tərəfindən "murtazika" (pulgir) adlandırılırlar [6, 8].

Fələstindəki ingilis mandatlığının ilk illərində druzların sayı yalnız 7 min idi, bu da əhalinin 1/100-ini təşkil edirdi. Nəticə olaraq, 1948-ci ildə onların sayı demək olar ki, 20 minə çatdı. Fələstin druzlarının gələcək münasibətlərinə təsir edən əsas amillərdən biri yəhudilərin Fələstin xaricindəki druzları üsyanlara geri qaytarmaq üçün iki sözükeçən druzun – Həsən Əbu Rukn və Əl- Əysami – işə götürüldüyü 1936-1939-cu illər üsyanı idi [83].

Druzların Fələstindəki 1948-ci ildən əvvəlki tarixçəsi, ərəb-İsrail bölünməsinin tarixi olaraq görülən xüsusi tədbirlərlə əlaqədar olaraq hansı şərtə bağlandığını göstərir. Druzların ərəblərə və ya israillilərə qoşulması, yəhudi-druz və druz-ərəb münasibətlərinin spesifik təbiətindən və zamanla necə taktiki olaraq motivasiya edilmiş öhdəliklərə çevrildiyindən qaynaqlanmışdır. Çərkəz və bədəvilər kimi digər qrupların üzvləri də Azlıqlar Birliyinə qoşulmuş, lakin onları çoxu 1948-ci il ərzində öz evlərini tərk etmişdilər [47, 5]. Hazırda isə druzlar ölkənin ümumi əhalisinin 1.8%-ini, azlıqların isə 10%-ini təşkil edir [25].

Müharibədən parçalanmış Yaxın Şərqdə birlikdə çalışan və çiçəklənməkdə olan münasibətləri inkişaf etdirən fərqli din, milliyyət və fərqli tarixlərə sahib olan iki qrupu tapmaq nadir hallarda mümkündür. Yenə də ərəb druzlar və İsrail yəhudiləri arasındakı güclü əlaqə Yaxın Şərqin gələcəyi üçün ümidverici haldır.

İsrail vətəndaşı kimi druzlar səsvermə hüququna malikdirlər, universal səhiyyə qayğısından, hüquqlarından, məhkəmə sisteminin müstəqilliyindən yararlanırlar və Knessetdə bir neçə nümayəndələri də var [27]. Hərbi xidmətdən azad olan müsəlman və xristianlardan fərqli olaraq, druzlar 1956-cı ildən bəri 18 yaşından etibarən yəhudilər kimi məcburi əsgərlik etməli oldular.

Müasir dövrdə identiklik seçimində keçmişdə mümkün olandan daha çox azadlıq vardır.

Son illərdə druz birliyi üzvləri rəsmi ayrı-seçkiliyə və hökümətin onların maraqlarına laqeyd yanaşmasına qarşı güclü protesto etdilər. Onların artan məyusluğu və narazılığı yəhudilərin daha yüksək sosial-iqtisadi statusa sahib olduqları hissindən qaynaqlanır. Xüsusilə də, gənc cütlər və təxliyyə olunmuş əsgərlər üçün məhdud mənzil və ərazi istifadəsinə işarə edirlər. Bu vəziyyət, əslində, druz kişilərinin 1956-cı il orduda xidmət müqaviləsinə qarşı çıxmaları ilə nəticələnmışdir [86].

İsraildə məskunlaşmış dini azlıqlar arasında ən kiçik qruplardan biri də bahailərdir. Bəhai inancı bütün bəşər cəmiyyətinin ruhani birliyinin olmasına əsaslanan monoteist din hesab olunur. İsrail iudaizmdə, xristianlıqda, islamda olduğu kimi bəhailərin də müqəddəs yerlərindən biridir. Bunun da əsəs səbəbi kimi, bu inancın banisi Bahayullahın Akkoda sürgündə olmasını, sonradan bu ərazilərdə digər bahailərin də artmasını göstərə bilərik [52, 114-135].

Ölkə əhalisinin dini azlıqlarından olan (druz, xristian və müsəlmanlar) 3 dini qrupun coğrafi bölgüsü fərqlidir. Demək olar ki, bütün druzlar Şimal bölgəsində (80%) və Hayfa bölgəsində (19%) yaşayır. Xristianlar isə müvafiq olaraq 70% və 13%, Yerusəlimdə (11%), Mərkəz bölgədə (3%) və Tel-Əvivdə (1%) məskunlaşmışdır. Müsalmanlar isə digərləri ilə müqayisədə daha geniş ərazilərə yayılmışdır: Şimal bölgəsində (40%), Yerusəlim bölgəsində (21%), Hayfada (15%), Mərkəzi bölgədə (12%), Cənub bölgəsində (11%) və Tel-Əvivdə (1%). Ərəb məskənlərinin əksəriyyəti dini kompozisiyalarına görə, 116 məskəndə 81-ində məskunlaşanların 90%-dən çoxu müsəlmalar, 13 məskəndə 90%-dən çox druzlar, 2 şəhərdə isə demək olar ki, bütün əhali xristianlardır.

İsrailin dindar əhalisinin əksəriyyəti Yerusəlimdə məskunlaşmışdır. Əsas dini mərkəzlərdən biri kimi Yerusəlim həm yəhudilərin, həm müsəlmanların, həm də xristianların vətənidir və şəhər yəhudi, müsəlman, xristian və erməni məhəlləsi olmaqla 4 məhəllədən ibarətdir.

Yəhudilər Yerusəlimi siyasi və mənəvi paytaxtları hesab edirlər və bununla yanaşı qeyd edirlər ki, Yerusəlim yüz milyonlarla monoteist dinlərə inananların dini identikliyində mühüm rol oynayır. Ərəb dünyası Yerusəlimi ən əhəmiyyətli

müqəddəs yerləri kimi görməsələr də, müqəddəs yerlərindən biri hesab edirlər. Bundan başqa Yerusəlim vətəndaşlarının təxminən ¾-ü yəhudi olsa da, əksər fələstinli ərəb də şəhəri öz evləri adlandırır [102].

Qeyd etdiyimiz kimi İsrail çoxdinli, çoxkonfessiyalı ölkədir. Bu baxımdan İsrail dövlətinin zəngin dini-etnik və siyasi mənzərəsi mövcuddur. Dövlət yaranmamışdan öncə Fələstin ərazisində ərəblər (əsasən də müsəlman ərəblər) üstünlük təşkil etsə də, müasir dövrdə həm dini, həm də etniklik baxımından ölkə əhalisi yəhudilərdən təşkil olunmuşdur. Dövlətin siyasi həyatındakı fəaliyyətinə görə də yəhudilər birinci sırada yer alır.

# FƏSİL 2. İSRAİLDƏ DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİNİN TƏHLİLİ

## 2.1. Dövlət sistemində dini institutlar

İsraildə rəsmi konstitusiyanın olmaması leqal sistemin nəzərə çarpan xüsusiyyətlərini təqdim edir. Digər ölkələrin əksinə olaraq, burada qanun və din problemləri konstitusion terminlərlə qaydaya salınmamış və həll olunmamışdır.

Yaxın Şərqdəki qonşu ölkələrdən fərqli olaraq, İsrailin yazılı konstitusiyası yoxdur. Ölkənin "Əsas Qanun" aktları konstitusiyanı əvəz edir, lakin bütün qanunlar da "Əsas Qanunların tərkib hissəsi deyil. Dövlətin yaranmasından təxminən 7 onillik keçməsinə baxmayaraq, hələ də yazılı, konkret konstitusiyasının olmaması ,əsasən, din, dünyəvilik və "yəhudi" termini ilə əlaqədar anlaşılmazlıqlara görə ortaya çıxmışdır və yazılı konstintusiyanın əvəzinə ayrı-ayrı hissələrsən ibarət olan əsas qanunlar hazırlanmışdır [74, 423-425]. Konstitusiyanın olmaması baxımdan İsrail Böyük Britaniyaya oxşayır. Yazılı konstitusiyanın hazırlanması ilə bağlı səylərə baxmayaraq, dini partiyalar bu prosesin qarşısını uğurla almışdılar. Onların iddiası bu idi ki, İsrailin yeganə konstitusiyası Tövrat – qədim dini qanunlar olsun [33, 74].

Həmin vaxtdan sonra da konstitusiya ilə bağlı bir neçə təkliflər və layihəhələr də olmuşdur. Bunlardan sonuncusu, 2006-cı ildə XVI Knessetin Konstitusiya, Qanun və Ədalət Komitəsi tərəfindən hazırlanmışdır [30, 229-238].

Dövlət ilə din arasındakı sığınma əlaqələri, əksəriyyətin mübahisəli mövzularda qərar verərkən gücünü istifadəyə maneə törətməsi həqiqətindən qaynaqlanır. Bunun yerinə, Şabat müşahidə, fərdi status, ictimai sahədə, kaşrut müşahidəsi də daxil olmaq üzrə kritik bölgələrdəki tələblərinə hörmət duyan ultra-ortodoks və milli dini də daxil olmaq üzrə dini azlıq ilə siyasi yerləşmə üçün səy göstərən konsorsium demokratiyası modeli inkişaf etdirildi. Tarixən, İsraildəki vəziyyət, demokratiyanı davam etdirmə meylini əks etdirdiyi halda, dövlət və din arasında, fərqli dəyər və mənfəətlərə sahib

siyasi partiyalar arasında praqmatik yerləşmə tənzimləmələri yaradır. Bu, İsrail kimi bölünmüş cəmiyyətdə xüsusilə kritik əhəmiyyət daşıyır [54, 20].

Ölkənin rəsmi konstitusiyası olmasa belə qanunlar və siyasət dini azadlığı qoruyur və praktikada hökumət ümumiyyətlə dini azadlığa hörmət edir. "Ali Məhkəmə, İnsanlıq ləyaqəti və Azadlıq Əsas Qanunu"nun (Basic Law) dini azadlığı qoruduğunu dəfələrlə irəli sürmüşdür. Əsas Qanun, ölkəni "Yəhudi və demokratik dövlət" olaraq təyin edir və dini inancları nə olursa olsun dini azadlığı və ictimai və siyasi bərabərliyi vəd edən İsrail Dövləti Quruluş Deklorasiyasına istinad mövcuddur [60, 2].

Din İşləri üzrə Nazirlik (The Ministry of Religious Services) siyasətdə gücün əsas mərkəzlərindən biridir. Bu nazirlik 1948-ci ildə bütün konfession icmalar – yəhudilər, müsəlmanlar, xristianlar, druzlar və təsdiq olunmayan dini icmalar, o cümlədən, karaimlər və samarityanlara qayğı göstərmək və dini xidmət etmək üçün yaradılmışdır [21, 101-102]. Qeyd edək ki, Din İşləri üzrə Nazirlik Knesset yaradılmamışdan əvvəl təsis edilmişdir. İlk din naziri isə II Aliya ilə ölkəyə gəlmiş Yehuda Leyb Maymon olmuşdur. O, I və II hökümət dövründə də nazir vəzifəsini icra etmişdir. [78].

Nazirlik Ali Ravvinat Şurasını, Ravvin məhkəmələrini idarə edir, onlara nəzarəti həyata keçirir. Ravvin məhkəmələrinin maliyyələşdirilməsini həyata keçirir [45, 10]. Nazirliyin vəzifələrindən biri də 45% dini şuraların üzvlərini təsdiq etmək və onların büdcəsinin 40%-ni qarşılamaqdır. Din İşlər Nazirliyinin geniş fəaliyyət sahəsi vardır: dinlə bağlı suallarda iştirak edir; müqəddəs yerləri qoruyur; sinaqoqlar və məscidlər tikir; yeşivalara maliyyə yardımı edir; nigah və boşanma işlərinə nəzarət edir. DİN Ali Ravvinat ravvinlərinin seçkisinə təsir edir [21, 101-102]. Din İşlər Nazirliyi yəhudi icması üçün dini xidmətlərin təmin edilməsi baxımdan 133 yəhudi dini şurası üzərində səlahiyyətə malikdir [21,5-6].

Ali Ravvinat dövlətin ali din müəssisəsidir və siyasi hakimiyyətin gücüdür. Sonuncu dəfə Ali Ravvinatın tərkibi, seçki proseduru və səlahiyyətləri 1980-ci ildə "İsrailin Ali Ravvinatı haqqında qanun"la qurulmuşdur. Ali Ravvinat Şurasının tərkibini bu akt qanuniləşdirir. Ümumilkdə 16 ravvindən ibarətdir. 2 ali ravvin, böyük

şəhərlərin 4 əsas (baş) ravvini (Tel-Əviv, Yerusəlim, Hayfa, Beer-Şeva) və digər 10 ravvin. Bununla yanaşı, dövrün əvvəlində qəbul olunan qanunda sefard və aşkenaz ravvinlər arasında bərabərlik prinsipi saxlanılır. Hər qrupdan 1 ali ravvin, 2 böyük şəhərlərin ravvinləri, 5 digər ravvin olmaqla, nəticədə hər birindən 8 ravvin Ali ravvinatın üzvüdür. İki ali ravvin növbə ilə Ali Ravvinat Şurası və Ali Ravvinat məhkəməsinin prezidenti vəzifəsini icra edirlər. Ali Ravvinat Şurası dövlət orqanıdır və onun bütün büdcəsini dövlət ödəyir. 150 adamdan ibarət olan seçici heyəti hər 5 ildən bir Ali Ravvinat Şurasının üzvlərini və hər 10 ildən bir Ali ravvinləri seçirlər. Seçki heyətinə 80 ravvin - böyük şəhərlərin əsas ravvinləri, əsas hərbi ravvin və bəzi böyük olmayan şəhər, rayon və qəsəbələrin ravvinləri və 70 nəfər ictimaiyyət nümayəndələri – şəhər merləri, şura başçıları, dini şuraların nümayəndələri, 2 nazir, 5 knesset deputatı daxildir. 10 ictimaiyyət nümayəndəsi Din İşləri üzrə Nazirlik tərəfindən təsdiqlənir. Ali Ravvinat Şurasının və Ali ravvinlərin seçki prosesinə Mafdal, Şas, Aqudat Yisrael, Avoda və Likud partiyaları təsir edir. Ümumilikdə deyə bilərik ki, Ali Ravvinatın aktiv fəalliyyət sxemi mövcuddur. Ali Ravvinat yəhudi müəyyənləşdirilməsi problemində, reformist və koservatist məsələlərin və siyasi münaqişələrin həllində aktiv iştirak edir. Ali Ravvinat həm də partiya siyasətində fəaliyyət göstərir. Ali Ravvinat Mafdal partiyasının nəzarəti altında olmuşdur və indi də iki institut arasında xüsusi əlaqə mövcuddur [21, 74-82]. Ali Ravvinat kaşrut , evlilik, yerli ravin üçün lazımi xüsusiyyətləri ayırd etmək, yəhudi dini qanunları və adətləri ilə bağlı olan digər məsələlərdən məsuldur.

Ali Ravvinat bələdiyyədən, ticarət komitəsindən, dini şuradan və siyasi partiyaların filiallarından ibarət olan çox nüfuzlu orqandır. "Şəhərlərin ravvini seçki fərmanı"na (1974) əsasən, ravvinlərin yerli statusu təyin edilib. Ravvinlərin 75 yaşı olmayana qədər öz postunu tərk edə bilməzlər. Yerli ravvinlərdən ən vacib vəzifəli olan böyük şəhərlərin ravvinləridir. Ali və yerli ravvinlər arasında olan əlaqə iyerarxikdir. Ümumilikdə, demək olar ki, 1977-ci il çevrilişinə qədər yerli ravvin vəzifələrinin böyük hissəsi Mafdal və Mapayın (sonra da Avoda) müqaviləsi ilə təsdiqlənirdi. 1977-ci ildən başlayaraq, Mafdal, Likud və Avoda tərəfindən üçtərəfli danışıqlar keçirilir. Son vaxtlar Şas partiyasının təsiri hiss olunur [21, 87].

Dini sistem prosesinə bölgə ravvin məhkəmləri və ali ravvin məhkəmələri daxildir. Müsəlman və druz dini məhkəmələri dövlətin ədalət sisteminin ayrılmaz hissələridir. Kadi qanununa (1961) və druz dini qanununa görə (1962) şəriət, druz və appelyasiya məhkəməsi təsdiq olunmuşdur [21, 82]. Xüsusilə də, müsəlman və xristian dini məhkəmələrinin özünəməxsus rəsmi quruluşu vardır. Müsəlman və druz məhkəmələrinin hakimləri Knesset tərəfindən seçilir.

İsraildə 3 druz məhkəməsi vardır:

- Akrada druz məhkəməsi – 1963-cü ildə;
- Masadeh-Qolan yüksəkliyində – 1972-ci ildə;
- Akrada Druz Appelyasiya məhkəməsi – 1963-cü ildə yaradılmışdır.

Druz Appelyasiya məhkəməsi 1963-cü ildə Hayfada yaradılmış və 1988-ci ilin oktyabrında Akraya köçürülmüşdür. Druz kəndlərində nigah məsələrini nizamlamaq üçün 62 rəsmi nümayəndə fəaliyyət göstərir və onlardan 7-si Qolan yüksəkliyindədir. Druz dini məhkəmələrinin onlara verdiyi səlahiyyətlərdən istifadə edərək onlar druz dini qaydalarına əsasən nigah işlərini yerinə yetirirlər. Yaradıldığı gündən Dini İşlər üzrə Nazirliyin tabeliyində olan druz məhkəmələri 2001-ci il yanvarın 28-də Ədliyyə Nazirliyinin tabeliyinə keçmişdir.

İsrailin mövcud olan iki hüquqi sistemi vardır. Bunlar, dini məhkəmələr (yəhudi, müsəlman, xristian, druzlar) və vətəndaş məhkəmələridir. Əvvəllər yəhudi cütlüyünün boşanması yalnız Ravvinat Batei Din məhkəmələrində ola bilərdi. Beyt Din və ya Batey Din, yəhudi məhkəmələrində ravvinlərlə əlaqədar qaynaqlarda adı çəkilən yəhuddi məhkəməsi ilə bağlı mənbələrdə rast gəlinən termindir. Müasir dövrdə, ümumiyyətlə, boşanma və qida ilə bağlı qanunlara nəzarəti kimi dini mövzularla əlaqədar məsələlərə nəzarət edir. İsraildə bu termin (beyt din, batey din) Knesset qanunları ilə normal dini funksiyalarla yanaşı, fərdi statusda məhkəmə səlahiyyətinə malik olan ravvin məhkəməsi kimi fəaliyyət göstərir [61]. Aliment, qəyyumluq, mülklərin bölünməsi ilə bağlı iddialar qaldırılarsa bu hallar Ailə məhkəmələrində baxılmalıdır. Əgər cütlükdən biri tərəfindən iş Batei Din məhkəməsində açılırsa onda bütün işə ancaq dünyəvi qanunlar əsasında yox, Halaxa-yəhudi qanunları əsasında baxılacaq. Yəhudi cütlük boşanmaq üzrəykən, hər nə qədər

boşanmanın özü ravvinat məhkəməsində olsa da, iddianın ilk dəfə edildiyi məhkəmə əsas səlahiyyətlərə malikdir. Bu iddiaların birinci iddiaya aid olması şərtilə mümkündür. Həmçinin qeyd olunur ki, vətəndaş məhkəmələri qadınlara ravvinat məhkəmələrindən daha səxavətli rəftar edir. 1995-ci ildə qüvvəyə minən "Ailə Məhkəmələri" aktı, bu mövzuları mühakimə üçün yeni hüquq məhkəmələri qərarı meydana gətirdi [62].

2005-ci il qanunlarına əsasən yəhudi dini məhkəmələri Baş Nazirin ofisinin və İsrail Ali Ravvinatlığının nəzarəti altındadır.

Dini Şuralar hər bir şəhər və regionda dini xidmətləri (kaşrut, sinaqoqlar və dəfn yerlərinin seçilməsi, nigahların qeydə alinması və s.) həyata keçirir. Dini Şuraların üzvləri 45%-i yerli bələdiyyə, 45%-i Dini İşlər üzrə Nazirlik, 10%-i isə yerli ravvinatlıq tərəfindən seçilir.

İsraildə hal-hazırda mövcud olan dini təşkilatlar sırasında dini tolerantlıq missiyası daşıyan təşkilatlar da mövcuddur. Bunlardan biri də İsraildə Dinlərarası Koordinasiya Şurasıdır (Israel and the Occupied Palestinian Territories - ICCI). Şuranın missiyası dini dəyərləri bölünmə və ektremizm ünsürlərindən qorumaqdan ibarətdir. Bunu bacarmaq üçün İDKŞ gənclər, qadınlar və dini liderlərlə birlikdə, yəhudi-ərəblərin bir yerdə yaşaması və sülhün inşası layihələrini təşviq etmək üçün çalışır. Bu təşkilat 75 yəhudi, fələstinli (müsəlman), xristian icmalarını əhatə edir [58].

İsraildə cəmiyyətinin çoxmədəniyyətliliyi təhsil sisteminə də təsir etmişdir. Burada dini təhsil müəssisələri də öz növbəsində bir neçə yerə bölünür. Bu bölgü bəzi ədəbiyyatlarda fərqli göstərilir. Bəzi mənbələrdə İsrailin təhsil sistemi yəhudi məktəblərindən (təhsil dili ibri dili) və ərəb məktəblərindən (təhsil dili ərəbcədir) ibarətdir. İbri dilində olan təhsil üç hissəyə bölünür:

- dünyəvi dövlət məktəbləri (Statesecular);
- dini dövlət məktəbləri (State-religious);
- müstəqil ultraortodoks məktəbləri (Independent Ultra-Ortodox).

İsraildə ərəb kitabları yalnız ərəb dilli məktəblərdə keçilir. Lakin bu ərəbdilli məktəblərə verilən kitablar İsraildəki ərəb icması tərəfindən yox, Təhsil Nazirliyi

(Israeli Ministry of Education) tərəfindən hazırlanır və təsdiq edilir. Dünyəvi dövlət məktəbləri İsrail Təhsil Nazirliyi tərəfindən təsdiq edilir və nəzarət olunan tədris planı ilə dini olmayan təhsil verilir. Dini dövlət məktəbləri də eynilə yoxlanılır, nəzarət edilir. Ortodoks ailələrin uşaqlarına dini təhsil verilir. Ultra-ortodoks məktəblər isə müstəqil fəaliyyət göstərirlər və elə bu səbəbdən də onların kitabları İsrail Təhsil Nazirliyinə tabe deyil. Ultra-ortodoks təhsil sistemi ultra-ortodoksların kompleks ornamentini əks etdirir. Hər məzhəbin və hətta hər alt qrupun öz təhsil sistemi vardır. Bu səbəbdən bu sistemdə 1200-dən çox məktəb vardır və bu məktəblərin sayı artmaqda davam edir. Lakin məktəblərin sayı çox olsa da, hər məktəbin ümumi şagirdlərinin sayı bir çox hallarda az olur. 2000-ci ildə İsraildəki bütün şagirdlərin 19.2%-i ultra-ortodoks sisteminin bir parçası olaraq qeydə alındığı halda, 2004-cü ildə bu göstərici 26.2%-ə qədər (təxminən 500.000 uşaq) yüksəlmişdir [104, 1-5]. Digər mənbəyə əsasən isə ərəbdilli məktəblər də ayrıca təsnifatlandırılır.

- Ölkənin ən çox yayılmış və yəhudilərin çoxunun təhsil aldığı dövlət məktəbləri;
- İudaizmin, yəhudi ənənələrinin öyrədildiyi dövlət din məktəbləri;
- Təhsil dilinin ərəb dilində olduğu, xüsusilə ərəb və druz tarixi, dini və mədəniyyəti üzrə fokuslanan ərəb və druz məktəbləri;
- Müxtəlif institutlar tərəfindən himayə edilən dini məktəblər.

Nəticədə, İsrail təhsil sistemində dini təhsilin ayrı olduğunu, ərəb uşaqların ayrı məktəblərddə təhsil aldığını görmək mümkündür. Son illərdə, ana ataların uşaqlarının təhsilini istiqamətləndirmə qayğısının artması ilə birlikdə, xüsusi ana-ata və təlimçi qrupların fəlsəfə və inanclarını əks etdirən bəzi yeni məktəblər yaradılıb. Ümumilikdə təhsilin yüzdə 80-i Təhsil Nazirliyi tərəfindən, qalan qismi isə digər qurumlar tərəfindən maliyyələşdirilir [11, 171-173].

Ölkədəki digər dini institutlardan biri də dini partiyalardır. Ümumiyyətcə, İsrail demokratiyasının quruluş daşları siyasi partiyalar olmuşdur. İsrail təxminən əlli il əvvəl bir “parteienstaat” (partiya-dövlət) olaraq xarakterizə edilmişdir və siyasi partiyaların, siyasətin gündəlik həyatında da rolu azalmamışdır.

Qriqori Mahler İsrailin siyasi partiya sistemini demək olar ki, həddindən artıq inkişaf etmiş kimi təsrifləndirmişdir [75, 9]. Çoxpartiyalı sistemə malik olan İsraildə partiyalar bir neçə qrupa bölünür. Bunlar arasında dini radikal partiyalar da mövcuddur. Dini patiyaların yaranma tarixi dövlət qurulmamışdan əvvəlki vaxta təsadüf edir. Aqudat Yisrael (the Israelite Union-İsrail Birliyi) dövlət yaranmamışdan qabaq yaradılmış ən güclü ultra-ortodoks partiya hesab olunmuşdur. Partiyanın əsası 1912-ci ildə  qoyulmuşdur. 1992-ci ildə Aqudat Yisrael partiyasının Deqel HaTora (The flag of Torah-Tövrat bayrağı) ilə birləşməsindən Birləşmiş Tövrat Yəhudiliyi (Yahadut HaTorah Hameyuxedet-United Torah Judaism) partiyası yaranmışdır [48]. Deqel HaTora isə 1988-ci ildə, XII Knesset seçkiləri ərəfəsində yaranmışdır və həmin il Knessetdə 2 kürsü qazanmışdır. Sonrakı seçkilərə isə BTY-indən qoşulmuşdur [103]. Aqudat Yisrael və Deqel HaTorah fərqli baxışlara sahib olmalarına baxmayaraq, Knessetdə güclərini birləşdirmək üçün vahid ad altında fəaliyyət göstərməyi üstün tutmuşdular.  1993-cü ildə iki ultra-ortodoks partiyanın birləşməsindən yaranan Birləşmiş Tövrat Yəhudiliyi  şəhər şurasında 7 kürsü ilə ən böyük fraksiya olmuşdur. B. Netenyahunun I hökuməti dövründə (1996-1999-cu illər) Məskunlaşma Naziri müavini vəzifəsi BTY partiyasının səlahiyyətində olmuşdur və həmin il Knessetdə 4 kürsü əldə etmişdir [70].

1998-ci ildə bu partiya 7 kürsü ilə uğurunu davam etdirdiyi halda ultra-ortodoks Şas partiyası öz kürsüsünün sayını 3-dən 5-ə qədər çatdırmışdır. 2003-ci ildə Ehud Olmert baş nazir olduqdan sonra bələdiyyə rəhbəri vəzifəsindən istefa etdi. Həmin ilin iyununda Birləşmiş Tövrat Yəhudiliyi partiyasının üzvü Uri Luplianskiy Ehud Olmertin yerinə seçildi. Bu seçimlər müddətində BTY 9 şura kürsüsünü qazanaraq gücləndi. Şas partiyası da 5 kürsü əldə etdi. Beləcə, ultra-ortodoks partiyalar birlikdə şəhər şurasındakı 31 yerdən 14-ünə sahib oldular [41]. 2009-cu il Knesset seçkilərində partiya 5 yer qazanmışdır. Bu fraksiya sioinst deyil. Partiyanın rəhbəri Almaniya yəhudilərindən olan Yaakov Litzmandır. O, 2015-ci ilə qədər Səhiyyə Nazirinin müavini vəzifəsini icra etmişdir.  2015-ci ildən bu gün də daxil olmaqla Səhiyyə Naziri vəzifəsini yerinə yetirir. Birləşmiş Tövrat Yəhudiliyi ultra-ortodoksların təhsil və sosial rifah sahəsində mənfəətləri ilə yanaşı, milli hərbi xidmət

kimi müəyyən məsələlərdə də təkliflər irəli sürür və ultra ortodoksların maraqlarının təmin olunmasına çalışır [48].

Birləşmiş Tövrat Yəhudiliyi Partiyası, fələstinlilərlə həyata keçirilən müzakirələri dəstəkləmir, bu mövzuda Knessetdə keçirilən səsvermələrdə əleyhinə səs verir. Ancaq koalisiya hökuməti içərisində iştirak etməsi və ya hökumətlə maliyyə yardımları ilə əlaqədar müzakirə vəziyyətində isə Knesset yığıncaqlarına qoşulmama kimi siyasət tətbiq edir. İsrailin daxili və xarici siyasətində Tövrat təlimlərinin əsas kimi qəbul olunmasının lazım olduğunu müdafiə edən partiya, yəhudi dövlətinin qurulmasını dəstəkləyir və bu dövlətin dini hüquqla idarə olunması lazım olduğunu müdafiə edir. BTY-nə görə, İsrail torpaqları tanrı tərəfindən yəhudi xalqına bəxş edilmişdir. Belə ki, yeni məskunlaşmalarda bir problem görməyən BTY yəhudi məskənlərinin salınmasını dəstəkləyir.

Dini partiyalardan biri də Mafdal partiyasıdır. Mafleal HaDatit Leumit (National Religious Party-Milli Dini Partiya) qısaltması olan, Mafdal olaraq da tanınan Milli Dini Partiya 1956-cı ildə HaPoel HaMizraxinin (Şərqi işçilər, bu partiya ortodoks dini işçilər partiyası kimi 1922-ci ildə yaradılmışdır) və Mizraxi (Şərqi, 1902-ci ildə ortodoks dini sionist partiya kimi qurulmuşdur) partiyalarının birləşməsi ilə yaradıldı. Mizraxi 1949-cu ildə digər dini partiayalarla Birləşmiş Dini Cəbhə yaratmaq üçün birləşdi. 1948-1977-ci illər ərzində Mafdal Likudla koalisiya qurmuş, qarşılıqlı olaraq Din İşləri Nazirliyinə nəzarət etmişdir. Mafdal 1981-ci ilə qədər səslərin təxminən yüzdə onunu davamlı olaraq qazanmış və Knessetdə 12 kürsüyə sahib olmuşdur. O dövrdən sonra isə Mafdal kontingenti ilə digər dini partiyaların fəaliyyəti artmış və Mafdalın Knessetdəki yeri əhəmiyyətli dərəcədə kiçilmişdir. Mafdal partiyası 2008-ci ildə rəsmi olaraq yaradılmış dini sionist partiya olan Yəhudi Evi (HaBayt HaYehudi – The Jewish Home) partiyasının tərkibinə qoşulmuşdur.

Şas Partiyası 1984-ci ildə İraq əsilli Ovadia Yosef tərəfindən qurulmuşdur. Partiyanın adı Şomrey Sefarad (Sefaradların gözətçisi) sözlərinin ibricəsindən əmələ gəlmişdir. Şas partiyası Aqudat Yisrael partiyasının sefard nüsxəsi kimidir. Adından da aydın olduğu kimi, aşkenazilərin İsraildəki fəaliyyətinə qarşı reaksiya olaraq meydana çıxmışdır. Sağçı və dini partiya olaraq xarakterizə edilən Şas yəhudi

şəxsiyyəti ilə dövlət institutları içərisində güclü şəkildə iştirakın vacibliyini və yeşivaların dövlət tərəfindən büdcə ayrılaraq dəstəklənməsi lazım olduğunu müdafiə edir. Ortodoks sefard yəhudilərinin dəstəklədiyi Şas hazırda İsraildə ən böyük partiyalardan biri hesab olunur. Ultra-ortodoks sefard partiyası hesab olunur [56].

Sefardların dini-etnik yenilənməsi hərəkatının nəticəsində yaranan Şas siyasi partiyası Şas Partiyasının mənəvi lideri yarandığı dövrdən etibarən ravvin Ovadia Yosef olmuşdur (2013-cü il vəfat etdiyi vaxta qədər) [108]. O, ABŞ-İsrail əlaqələrinə xüsusi əhəmiyyət verirdi və Obama dövründə yaşanan problemlərin aradan qaldırılması və Vaşinqton ilə əlaqələrin düzəldilməsi üçün yeni məskunlaşmaların dayandırılması mövzusunun müzakirə oluna biləcəyini söyləyirdi [88].

Şas partiyası İsrailin siyasətində olduqca təsirli olmaqda davam edir. Bu partiya yarandığı dövrdən etibarən Likud və Əmək (Labor-Avoda) partiyalarının liderliyindəki koalision hökümətə dəstək vermişdir. Partiya hal-hazırda da hakim Likud partiyası ilə eyni koalisiyadadır. Daxili İşlər Nazirliyi də daxil olmaqla, 4 nazirlik bu partiya üzvü tərəfindən idarə edilir. Şas ən çox səsini 1999-cu il seçkilərində - 17 səs – qazanmışdır [48]. Ən çox səs qazandığı bu seçkilərdə Şas Əmək və Sosial İşlər Nazirliyi, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi və Yerusəlim İşlər Nazirliyində nazir vəzifələri Şasın üzvləri tərəfindən icra edilmişdir.

2013-cü il seçkilərində də Şas partiyası ilə Benyamin Netenyahunun rəhbərliyi ilə Likudun birgə fəaliyyətinin davam etməsinə baxmayaraq, Şas və Likud arasında əvvəllər də baş verən gərginlik halları davam etmişdir. Belə ki, 2013-cü ildə büdcə kəsrləri etmək lazım idi və Şas liderləri rifah, səhiyyə və təhsillə bağlı büdcə kəsrinə qarşı çıxmışdılar.

Uzun illərdir ki, Şas partiyasına Arye Deri rəhbərlik edir. Arye Deri gənc yaşlarından İsrail siyasi səhnəsinə qoşulmuş və Şas partiyası yaranan zaman onun yaradıcılarından biri olmuşdur. 1985-ci ildə Daxili İşlər Nazirliyində baş məsləhətçi və eyni zamanda Şas partiyasının baş katibi seçilmişdir. 1986-cı ildə DİN-də baş katib vəzifəsinə keçmişdir. Həmin ildən 1999-cu ilə qədər Şas partiyasına rəhbərlik etmişdir. Arye Deri ilk dəfə 1992-ci ildə Knessetə üzv olmuş, növbəti seçkilərdə də (1996-cı il) yenə də Knessetdə kürsü qazanmağa müvəffəq olmuşdur. Arye Deri

Knessetin Xarici siyasət və müdafiə komisiyyasının üzvü olmuşdur [17]. 1999-cu ildə ( bəzi mənbələrdə 2000) 155 min dollar rüşvət aldığı üçün 3 illik həbs olunmuş, 2011-ci ildə yenidən Şas partiyası sıralarına qoşula bilmişdir. Partiyanın ruhani rəhbəri olan Ovadia Yosef həmin dövrdə Şasın təşəbbüsü ilə dini təhsil sisteminin gücləndirilməsinə daha çox diqqət çəkməyə yönəltmişdir. Həmin dövrdə partiyanın siyasi lideri olan Eli Yişay iki dəfə Daxili İşlər Naziri vəzifəsini icra etsə də (2002-2003, 2009-2013), xarizmatik lider olmamışdır. Həmçinin Eli Yişay yəhudi əhali arasında gedən sosial bölünməni dəstəkləmişdir. Lakin dini partiya olan Şas Netenyahunun rifah bölməsinə alternativ verməmişdir [56].

Eli Yişay 2014-cü ildə Şas partiyasından ayrılaraq Yaxad (Together-Birlikdə) partiyasının əsasını qoymuşdur. Artıq Yaxad partiyası rəhbəri – Eli Yişay İsrail Müdafiə Qüvvələrində xidməti yüksək qiymətləndirməklə yanaşı, yeşiva şagirdlərinin İsrail dövlətinin qabaqcılları olduğunu və Tövrat oxumaları ilə ölkəni müdafiə etdiklərini bildirmişdir [110].

Knessetdəki partiyalar arasında ərəblərin də təmsil olunduğu bir neçə partiya mövcuddur. Ərəb partiyalarından biri olan anti-sionist Balad partiyası Azmi Bişaranın rəhbərliyi ilə 1995-ci ildə yaradılmışdır. Mənası ibricədən Milli Demokratik Assambleya demək olan partiyanın adı qısaldılmış formada Balad adlandırılmışdır. Partiyanın rəhbəri Camal Zhalkadır. Baladın üzvü Knessetdə ilk ərəb qadın təmsilçi olan Hanin Zoabi Mavi Mərmərə hadisəsi zamanı İsraili qınamış və onun bu hərəkəti parlamentdə sağçılar tərəfindən xoş qarşılanmamışdır.

Hadaş partiyası 1977-ci ildə əsası qoyulan, solçu, yəhudi-ərəb birləşməsindən yaranan partiyadır. İkidövlətli həllin tərəfdarıdır [48]. Ərəb əsilli İsrail vətəndaşlarının üzvləri olduqları Balad, Hadaş, Taal, Birləşmiş Ərəb Siyahısı (The United Arab List) partiyaları eyni fraksiyaya daxil olmuş və XX Knesset seçkilərində 13 yer əldə etmişlər.

Onu da qeyd etmək lazımdır ki, İsraillilərin əksəriyyəti partiyaların az sayda olmasının tərəfdarıdır və onlar təklif edirlər ki, partiya sistemi bir sağ, bir sol, bir dini və dördüncü tərəf kimi bir ərəb partiyası ilə təmsil olunsun. Bu mövqeyi dəstəkləyən tərəf 4 ayrı dini partiyaya ehtiyac olmadığını iddia edirlər. Bunun əksinə olaraq, bir

çox adam İsrailin müxtəlif dini partiyalarının bir-birindən kifayət qədər fərqli olduğunu və bir tərəfin tək başına bütün ictimai ehtiyaclarını qarşılamayacağı fikrini müdafiə edir [75].

Göründüyü kimi, İsrailin dini institutları – Din İşləri üzrə Nazirliyi, Ali Ravvinat, yerli ravvinat, dini şuralar, dini təhsil ocaqları, dini partiyaların hər birinin ayrı-ayrılıqda dövlətin siyasi sistemində özünəməxsus yeri var. İstər DİN, istər Ali Ravvinat və eləcə də digər institutların geniş səlahiyyətlərə malik olması ölkədə dinin əhəmiyyətli rola malik olduğunu bir daha sübut etmiş olur.

## 2.2. Dinin İsrail cəmiyyətinin ictimai-siyasi həyatına təsiri

Dünyada bir çox siyasi rejimlər mövcuddur, bunlardan bir qismi demokratik, bir qismi avtoritar və s.-dır. Anti-demokratik rejim kimi də iki növ qeyd etmək olar – teokratiya və onun əksi tamamilə dünyəvilik (sekulyarlıq). Hazırda "təmiz" teokratiya yoxdur, lakin Səudiyyə Ərəbistanı, İran kimi teokartik rejimin mövcud olduğu dövlətlər vardır [114, 7]. İsrail din və dövlət arasındakı qarşılıqlı əlaqə baxımından dünyanın bir çox dövlətindən fərqlənir. Bir tərəfdən Qərb dövlətlərinin əksəriyyətində və Rusiyadan fərqli olaraq din dövlətdən ayrı deyil, digər tərəfdən də Səudiyyə Ərəbistanı, İran kimi müsəlman dövlətlərindən fərqli olaraq, teokratik dövlət də deyil. İsrailin teokratik dövlət olmamasına baxmayaraq, din dövlətdə əhəmiyyətli rola malikdir. Belə ki, İsraildə hökümət başçıları təkcə dini icmanın üzvlərini deyil, həm də sefard və aşkenaz icmalarını baş ravvinlərini də təyin edir və onları öz məqsədlərinə çatması üçün maliyyələşdirir, öz növbəsində dini partiyalar da dövlət idarəçiliyində iştirak edirlər. İsrailin dini partiyaları öz dini ehtiyaclarını əldə etməkdə maraqlıdırlar [22].

Dövlət və dinin qarşılıqlı əlaqəsi və sonuncunun müasir siyasi mədəniyyətdə tutduğu yer müasir həyatın ayrılmaz faktorudur. Din hətta əhalisinin böyük əksəriyyətinin sekulyar olduğu dövlətlərdə belə əhəmiyyətli yer tutur. İsrail kimi

dövlətdə isə din məsələsi ictimai siyasi diskursun mərkəzində dayanır, belə ki, ölkə və vətəndaşların həyatlarının əsas hissəsini əhatə edir. Elazar öz məqaləsində qeyd edir ki, dövlət ölkədəki dini müəsisələri idarə eləməyə çalışmır. Əksinə dini icmalar dövlət dəstəyindən istifadə edirlər [20].

Bildiyimiz kimi, 14 May, 1948- ci ildə İsrail müstəqil dövlət olmuş və Birləşmiş Millətlər Təşkilatı tərəfindən dövlətin müstəqilliyi tanınmışdır. Dövlət yarandıqdan az sonra Ben Qurion 400 ultra-ortodoks yəhudini Tövrat tədqiqatlarına davam edə bilmələri üçün ordudan azad etdi. Ben Qurionu haredimin hərbi mükəlləfiyyətini ləğv etməyə razı salan İsrailin ilk baş ravvini İsaak Hersoq idi. 1949-cu ildə Ben Quriona göndərdiyi məktubda ravvin İ. Hersoq Şoadan ( Yəhudilərin holokostunun ibricə ifadə olunduğu termin - שׁוֹאָה ) sağ qalan bu insanların Tövrat çalışmalarını davam etdirmələri üçün icazə verməsini istəmişdi [77, 94]. İsrailin təcili şəkildə əsgərlərə ehtiyacı olmasına baxmayaraq, Ben Qurion haredilərin tərəfini tutmuş və nəticədə onlar ordudan azad olunmuşdular. Ben Qurion BMT-nin nəzarətinə qarşı haredimin mənafeyini təmin etməyə xidmət etdikləri halda, İsrail üçün gözlənilməyən əlavə təsirlərin ola biləcəyinin fərqinə varmışdı. Tələsikliyə görə, bu imtiyazlar qanunlarla əsaslandırılmamış və İsrail dövləti bunları təsdiqləmək üçün qanunlar verməli olmuşdu. "Status-kvo" məktubunun bütün əyalətin mətbəxinin koşer olacağına dair verdiyi sözü yerinə yetirmək üçün Knesset 1948-ci ildə “Əsgərlər üçün Koşer yeməkləri qanunu”nu (“Kosher Food for Soldiers Ordinance”) qəbul etmişdir. Bu yəhudi qida qanunlarına uyğun olaraq, İsrail Müdafiə Qüvvələri ( Israel Defense Forces ) hər əsgər üçün koşer yeməyə zəmanət verirdi. İsrail hökümətinin bütün mətbəxlərində - Knessetdə, hökümət binalararında, Baş Nazirlərin evində, orduda, bütün iaşə qurumlarında – hamı koşer qidalardan istifadə etməlidir.

1947-ci ildə Ben Qurionun razılaşma əldə etmək üçün haredimin (ultra-ortodoksların) siyasi qolunu axtarmaqdan başqa seçimi yox idi. Aqudat Yisrael haredimi təmsil edən ilk siyasi partiya idi. 1912-ci ildə əsası qoyulan Aqudat Yisraelin əsas məqsədi siyasi və milliyətçi haredimi hədəfləyən sionizmi dini yəhudiliyə təhdid kimi qəbul etdirmək idi [93, 18]. Prinsipcə ortodoks yəhudilik dini və dünyəvi yəhudilər arasındakı fərqi tanımır. Bu səbəbdən Aqudat Yisrael kimi

partiya bu qabiliyyətə sahib olsaydı, bütün israilli yəhudi vətəndaşlarının həyatının hər sahəsində yəhudi qanunlarına riayət etmələrini tələb edərdi. 1920-ci illərin əvvəllərində Aqudat Yisrael Tövrat qanunlarının Knesset Yisrael (İngilis Mandatlığı hökuməti tərəfindən rəsmi şəkildə tanınan yəhudi camaatı) və institutları tərəfindən tətbiq edilməsini və Yişuvun bütün işlərinin Halaxaya uyğun olaraq həyata keçirilməsini tələb etdi. Aqudat Yisraelin öndə gələn mütəfəkkirlərindən olan Yaakov Breuer Şabat qanunlarının dindar və dünyəvi olan hər kəsə tətbiq edilməsini tələb etdi. Liebman və Don Yehiya Milli Dini Partiyanın (National Religious Party) Knessetdə əksəriyyətə sahib olmasının fərdi azadlıqları pozmaq istəyəcəyi ehtimalını inkar etmirdi.

İsrailin ilk Baş naziri olan Ben Qurion dinin İsrail hökümətində hansı rolu oynayacağı ilə bağlı qərar verməkdə çətin vəziyyətdə qalmış və nəhayət o, din və dövləti birləşdirməyə qərar vermişdir. “Hər hansı hökümət başçısı özü üçün prioritetlərini təyin etməli, əvvəlcə ilk iş üzərində qərar verməlidir...” Siyasətçilər ortodoks sionist ravvinlərin hökümətə qoşulmasını qəbul etdi. Hökümətin ravvin institutlarını maliyyələşdirib Ali Məhkəmənin yurisdikasiyasında qalmasına qərar verildi. Ben Qurion üçün ölkənin dini əlində tutmasının bir yolu var idi, ortodoks sionistlər üçün yəhudiliyi qorumağın başqa bir yolu var idi. Bununla yanaşı, ortodoks sektasında ultra-ortodoksların bəziləri kimi qətiyyən hökümətin nəzarəti altında olmaq istəməyənlər və hökümətin dəstəyi ilə öz xüsusi təşkilatlarını yaratmaq istəməyənlər də vardı [99, 9].

Milli dini sektor, 1960-cı illərin sonlarında İsrail Müdafiə Qüvvələri (IDF) ilə olan əlaqələrini gücləndirdi və o zamandan bəri, ortodoks əsgərlərin bütün ordu sıralarında iştirakı ilə birlikdə İMQ içindəki dini vəzifəlilərin təsiri artdı. İMQ, 1990-cı illərin sonundan bu yana, hökumət tərəfindən milli dinləri yerləşdirmək üçün istifadə edilən tətbiqləri çoxaldan və ya həmin tətbiqlərin həyata keçirilməsinə şərait yaradan ultra-ortodoks kişilər üçün inteqrasiya proqramları müəyyənləşdirmək üçün vəzifələndirildi [77, 93].

2007-ci ildən etibarən tətbiq olunmağa başlayan Şahar layihəsi ilə 22-27 yaş arası haredi gəncləri könüllülük əsasında 2 il müddətinə hərbi xidmətə qəbul olunmağa

başlamışdır. Burada dini təhsillərini də almağa davam edən haredi gənclər üçün şərait də yaradıldı. Orduya qoşulan haredilər üçün Nahal Haredi kimi də tanınan Netzah yehuda batalyonu da yaradıldı. Orduya qoşulan gənclərin dünyəvi həyatla tanış olub, onu üstün tutacağından narahat olan haredi din adamları bu layihəyə qarşı çıxmış, hətta harediləri hərbi xidmətə getmək əvəzində ölkəni tərk etməyə çağırmışdı. Yeş Atid partiyasından Yair Lapid və Habeyt Hayehudi (Yəhudi Evi) partiyasından Naftali Bennet harediləri orduda iştirak etməyə razılaşmalarına çalışan siyasətçilər arasındadır [10].

Knesset tərəfindən 2014-cü ildə haredilərin hərbi xidmətə çağırılmaları ilə bağlı mübahisəli qanun layihəsini təsdiqlənmişdir və təbii ki, bu haredilərin boykotu ilə nəticələnmişdir. Bu qanun layihəsinin 2017-ci ildə qüvvəyə minəcəyi gözlənilir.

İudaizmdə əməl olunan dini rituallardan biri də Şabat ənənəsinin qorunub saxlanılmasıdır. 1951-ci ildə "Əmək və İstirahət Qanunu" həftəlik Şabat qaydalarına riayət etmək üçün qəbul edilmişdir (Şabat cümə günü günbatan vaxtdan şənbə günü qaranlıq düşən vaxta kimi davam edir). Yəhudi ənənəsinə görə, göyü və yeri yaratmaq üçün 6 gün sərf etdikdən sonrakı 7-ci günü Tanrının bütün işlərin görülməsini qadağan etdiyi istirahət vaxtıdır. Tövratın müasir şəkildə əks-sədası – rezonansı ilə "Əmək və İstirahət Qanunu" dövlətin rəsmi istirahət günündə iş yerlərinin bağlı olmasını tələb edir. İsraillilərin böyük əksəriyyətini təşkil edən haredi olmayan sahibkarlar və vətəndaşlar şəxsən Şabat qaydalarına riayət etməsələr də, bu qanuna tabe olmaq məcburiyyətindədirlər.

İsrail eyni ildə mübahisəli məsələ olan "Dövlət Təhsil Qanunu"-nu qəbul etmişdir. Bu qanun haredim ilə dünyəvi yəhudilər arasında açıq mədəni bölünməni canlandırmışdır. "Dövlət Təhsil Qanunu" dövlət maliyyəsindən faydalanan, lakin dərs proqramları dövlətin ictimai məktəb proqramlarına uyğun gəlməyən dini məktəbləri muxtariyyətlə təmin etmişdir. Aqudat Yisrael tərəfindən yaradılan məktəblər dövlət tərəfindən rəsmi olaraq tanınmasa da, maliyyələşdirilmiş və onların şagirdlərinin təhsili ilə bağlı geniş səlahiyyətlər verilmişdir [93]. Bu qanundan sonra da təhsillə bağlı fərqli illərdə müxtəlif qanunlar qəbul olunmuşdur: "Xüsusi Təhsil Qanunu" (Special Education Law-1988), "Uzun Məktəb günü və Zənginlik

Araşdırmaları günü" (Long School Day and Enrichment Studies Law-1997), "Şagirdlərin hüquqları qanunu" (Students' Rights Law-2000), "Məktəb yeməkləri qanunu" (School Meals Law-2005). Sonrakı 4 qanun 1953-cü il qanununa əsaslanır [43].

Qeyd edək ki, haredi məktəblərinin çoxu Müstəqillik gününü qeyd etmirlər və ölkənin milli dəyərlərini uşaqlarına aşılamadıqları üçün tənqid olunurlar. Müstəqillik günündə avtobuslara asılmış bayraqları cırmaq, qara bayraqlar gəzdirmək kimi hallar yaşanan faktlardır. Ərəblərin məktəblərində də İsrail bayrağının asılması və bayrağa hörmət zəruri olduğu halda, haredi məktəblərində istər bayraq, istərsə də hər hansı bir digər simvolun aşılanmasına imkan verilməməsi ikili standartlı vəziyyətdir. Bununla yanaşı, dövlət haredi təhsilini dəstəkləyir. Hətta 2012-ci ildə İsrail Ali Təhsil Şurasının yeni layihəsi əsasında haredi təhsili üçün 180 milyonluq büdcə ayrılmışdır [10].

Druz sektorunda isə təhsilin məqsədləri bunlardır: "Druz və ərəb mədəni dəyərlərlə yanaşı elmdəki uğurların dəyərləri və İsrail ilə qonşuları arasındakı sülhün təmin edilməsi təməl təhsildir. Ana Vətən sevgisi bütün vətəndaşlar üçün eynidir və bu səbəbdən druzlar İsrail dövlətinə sadiqdirlər və dövlətin istehsalı və işlədilməsinə əməkdaşlıq edirlər. Druz təhsili, bütün vətəndaşların ortaq maraqlarını vurğulamağı qarşısına məqsəd qoyur, xüsusilə də, druzlar yəhudi mədəniyyətinin başa düşülməsi, İsrail-druz varlığının inkişaf etdirilməsi, cəmiyyətin mədəniyyətində druz gəncliyinin sağlam formada qurulmasına çalışır [25, 1].

İctimai ibri dilli məktəblərdə yəhudi tarixi və dini mətnlər öyrədilir. Lakin burada din dərsi səthi keçilir. İctimai məktəblər dindən daha çox yəhudi irsini və mədəniyyətini əhatə edən fənnlərin tədris edir. Dini tədrislə dini məktəblər məşğul olur. Dövlət Birləşmiş Tövrat Yəhudiliyi partiyasına bağlı olan "Azad təhsil" ("The Independent Education") və Şas partiyasına bağlı Tövrat təhsili sistemini maliyyələşdirir [59].

Partiyalar arasındakı münasibətlərə gəlincə isə, İsrail hökümətinin parlament sistemi və bir çox partiyalar 1948-ci ildəki ilk seçimdən sonra hər hansı bir partiyanın əksəriyyət səs çoxluğu qazanmasının qarşısını aldılar. Likud və Əmək (Labor) kimi

daha böyük partiyalar tərəfindən koalisiya tərəfdaşları olmağa təşviq edilən Şas və Aqudot Yisrael kimi partiyalara qarşı bunu etmək asan idi. Bundan əlavə, ultra-ortodoksal partiyalar diplomatiya, büdcə, ətraf-mühit və s. kimi ən əsas İsrail siyasi məsələlərindən ayrı salındığına görə, onlar yalnız öz cəmiyyətlərinin maddi ehtiyaclarını ödəmək üçün dövlətin yardımına önəm verirdilər.

Yeni siyasi güc israilli harediləri gücləndirdi, daha da zənginləşdirdi (İsrail cəmiyyətinin əksəriyyəti ilə müqayisədə kasıb olmalarına baxmayaraq), öz tədris proqramlarına uyğun olaraq daha çox təhsilli və hətta daha döyüşkən oldular. Xüsusilə, 80-ci illərdə haredi problemi İsraildə dünyəvi yəhudilərin əksəriyyəti tərəfindən tanınmağa başladı. Fikrimizcə, bu tanınma tərəflər arasında bir-birinə münasibətdə nifrətə gətirib çıxardı.

Aqudat Yisrael Begindən bu qədər çox imtiyaz aldığı zaman sefardların vəziyyəti yaxşı deyildi. 1984-cü ildə sefardlar özlərinin haredi siyasi partiyalarını – Şas partiyasını yaratdılar. Əlbəttə ki, bu siyasi inkişaf da haredi icmasındakı aşkenazi və sefardlar arasındakı bölünməyə də təsir edirdi. Lakin, ümumilikdə Şasın yaranması ultra-ortodoksları siyasi cəhətdən çox gücləndirdi.

Ratz, Meretz, Tzomet, Şinuy kimi qatı solçu partiyalar anti-haredi kompaniyaya başlamışdılar. Anti-haredi nifrəti 90-ci illərdə də özünü göstərmiş və bugünki dövrə kimi də gəlib çıxmışdır. Haredim bu kompaniyaya cavab olaraq, dünyəvi yəhudilərə qarşı hiddət inkişaf etdirməyə başlamışdır. Bu münasibət, xüsusilə, haredi cəmiyyətinin mülayim üzvləri tərəfindən mənimsənilirdi. Dünyəvi israillilərlə haredim arasındakı gərginlik, haredi ailələrində doğum səviyyəsinin yüksək olması, əsas etibarilə 1980-ci illərdən başlayaraq artmışdır. Tərəflərdən heç biri aralarındakı anlaşılmazlığı yüngülləşdirməyə çalışmamışdır [112, 28-32]. Bu ziddiyyətli münasibət bu gün də davam edir.

1992-ci il "İnsan hüquqları və azadlıq" və "Kəşfiyyat azadlığı" adlı Əsas Qanunlardan ikisi özündə İsrailin yəhudi və demokratik dövlət olduğuna dair qəti şərhi ehtiva edirdi. Eyni ildə qəbul edilən siyasi partiyalarla bağlı Əsas Qanunda İsrailin yəhudi və demokratik dövlət kimi mövcudluğunu rədd edən partiyanın seçkilərə qoşulmasına icazə verilməyəcəyini də bildirdilər.

Göründüyü kimi, İsrail cəmiyyətində dinin ictimai-siyasi həyata təsiri dövlətin demokratik və yəhudi xarakteri arasındakı münasibətlər ilə əlaqədar siyasi qanunlar və nizamnamələrdə öz əksini tapır. Bir tərəfdə demokratiyanın əhəmiyyətini, seçki azadlığını, bərabərlik və plüralizm prinsiplərini vurğulayan baxışlar var. Digər tərəfdə isə demokratiyanın ən geniş yayılmış formasında belə yəhudi əqidəsi ilə əlaqələrin saxlanaraq İsrail dövlətində insanların birliyinin əhəmiyyətni qoruyub saxlayan baxışlar mövcuddur. Yəhudi dini ilə əlaqədar qanunlar arasında şəxsi statusla əlaqədar (evlilik, boşanma, dəfn olunma və b.), yəhudi qanunlarına görə konversiya, şabatın rəsmi istirahət günü elan edilməsi, Pesax bayramı günlərində koşer (müqəddəs, halal) olmayan qidaların satışının qadağan olunması kimi və bir sıra başqa qanunlar vardır.

1953-cü il tarixli "Ravvin məhkəmələri mühakimə etmə qanunu" ilə İsrail sakini olan vətəndaşlar və İsraildəki yəhudilərin evlilik və boşanma haqqı ravvin məhkəmələrinin müstəsna məhkəmə səlahiyyətlərinə aid edilmişdir.

Evlilik məsələsi din və demokratiya arasındakı gərginliyin mərkəzindədir. Belə ki, Birləşmiş Millətlər Təşkilatı tərəfindən 1948-ci il "İnsan haqları bəyannaməsi"ndə olduğu kimi hər bir insanın dini təzyiq olmadan, sərbəst şəkildə evlənmənin əsas haqları olduğuna inananlar var. Bu mövqeyi dünyəvi yəhudilər, eləcə də, ailənin qurulmasında fərdin azad seçim hüququnu və dini plüralizmi tələb edən reformist və konservativ yəhudilər dəstəkləyirlər. Bunun əksinə olaraq, ravvin institutları, ortodoksal və ultra-ortodoksal yəhudilərin əksəriyyəti inanırlar ki, yəhudi millətinin identikliyi və birliyini qorumaqdan ötrü evlilik, boşanma və konversiya da daxil olmaqla, dinin cəmiyyətin həyatında bugünki rolunu qoruyub saxlamaq vacibdir [54, 28-30].

İsrail dövləti etnik evliliyə qanuni güc verən etnik dövlətdir. Yəhudi qanunlarına əsasən, hər kəs evlilik, boşanma, uşaqların vəlayəti və basdırmaq kimi şəxsi statuslar üzərində tam səlahiyyətə sahib olan dini icmaya məxsusdur. Dinlər arası evliliklər qanunsuz olmadığı halda, qanunlar tərəfindən dəstəklənmir [97].

Dövlət və din arasındakı gərginlik İsrailə xas deyil. Dövlət ilə din arasındakı sığınma əlaqələri, əksəriyyətin mübahisəli mövzularda qərar verərkən gücünü

istifadəyə maneə törətməsi həqiqətindən qaynaqlanır. Bunun yerinə, Şabat müşahidə, fərdi status, ictimai sahədə, kaşrut müşahidəsi də daxil olmaqla, kritik bölgələrdəki tələblərinə hörmət duyarkən ultra-ortodoks və milli dini də daxil olmaq üzrə dini azlıq ilə siyasi yerləşmə üçün səy göstərən bir konsorsium demokratiyası modeli inkişaf etdirilmişdir. Tarixən, İsraildəki vəziyyət, demokratiyanı davam etdirmə meylini əks etdirdiyi halda, dövlət və din arasında, fərqli dəyər və mənfəətlərə sahib siyasi partiyalar arasında praqmatik yerləşmə tənzimləmələri yaradır. Bu, İsrail kimi bölünmüş bir cəmiyyətdə xüsusilə kritik əhəmiyyət daşıyır [54, 19-20].

20 fevral, 2002-ci ildə İsrail Ali Məhkəməsi qərar qəbul etdi ki, reformist və ya konservativ hərəkatlarla çevrilən (konvertasiya olunan) yəhudilər rəsmi sənədlərdə yəhudi kimi siyahıya alınmalıdır. Ultra-ortodoksal Şas partiyasının üzvü, Daxili İşlər Naziri Eli Yişai (2016-cı ildən etibarən Arye Deri) cavab verdi ki, bu yəhudi xalqı üçün qalmaqallı, çətin və fəlakətli qərardır. Yishai Ali Məhkəməni assimilyasiyanı dəstəkləyən və yəhudi xalqını azaltmağa kömək edən marjinal axının gücləndirilməsinə görə tənqid etdi.

İsrailli aşkenazi ultra-ortodoksal yəhudilər Birləşmiş Tövrat İudaizmi (United Torah Judaism) üçün səs verməyə meyilli idilər. 1996-cı ildə Knessetdə 11 yer, 1999-cu ildə 17 yer, 2000-ci ildə 10 yer qazanan Şas partiyası isə ortodoks və daha çox ənənəvi sefardlardan ibarətdir. Adı çəkilən partiyaların hər ikisi ravvinlərin evlilik, boşanma və konversiya məsələləri üzərindəki səlahiyyətlərini azaldan hər hansı bir qanunvericiliyə qarşıdırlar [51].

Ümumilikdə dini partiyalar dünyəvi siyasi partiyalar üçün etibarlı olan qanuni şərtləri yerinə yetirməkdə və struktur olaraq siyasi partiyalardan fərqli olmayan analizlər edirlər. Bu səbəbdən də, onlar sivil mədəniyyətdə iştirak edirlər və legitimlik prinsipləri ilə onların proqramlarına uyğunlaşırlar. – xüsusilə, dövlət ideologiyasının dini komponenti- hansı ki, tez-tez müraciət edirlər [45].

1965-ci ildən başlayaraq, ərəb fəallar parlament seçkilərinə qoşulmaq üçün əl-Ard (Torpaq) adlı “sosialist siyahı” yaradaraq, siyasi təşkilat damı altında seçkilərdə iştirak etmək istəmiş, lakin İsrail bunu qeyri-qanuni elan etmişdir. Bundan sonra fələstinlilərin ərəb partiyası kimi seçkilərdə iştirak etməsi tələb edilmiş, lakin bu tələb

də rədd edilmişdir [6, 4]. Hazırda isə ərəb partiyalarının üzvləri ideoloji fərqlilikləri minimallaşdırmağa cəhd edirlər və ümumi səbəbləri - ərəb ictimaiyyətinin milli kollektiv hüquqları üçün kompaniya - vurğulayırlar. Həqiqətdə isə, ideoloji səviyyədə belə, ərəb azlığın İsraildəki statusu ilə əlaqədar müxtəlif axınlar tərəfindən qəbul edilən təkliflər arasındakı əhəmiyyətli fərqlər aralarındakı semantik fərqliliklərə baxmayaraq, asan təsbit edilmir. Misal üçün, yəhudi mədəni və dini irsi əsasında yaranmış yəhudi dövləti kimi İsrail dövlətinin nümunəsi olaraq, heç bir dünyəvi siyasi partiya İsrail siyasi arenasında müxtəlif rəsmi mərasimlər və ayinlərdə həyata keçirilən dini simvolizmdən özünü kənarlaşdırmamalıdır [89, 24-28].

Müasir dövrdə İsraildə din həm birləşdirici, həm də bölücü faktor kimi qiymətləndirilməlidir. İsrail hökümətini, dövlətin dəstəklədiyi institutları və İsrail parlamenti olan Knessetdəki qanunların qəbul olunduğu məsələlərdə dini təsir diqqətə çarpacaq dərəcədədir. Dini institutların, xüsusilə də, hakim Likud partiyası ilə koalisiyaya girən dini partiayaların fəaliyyəti də diqqət mərkəzindədir. Eyni zamanda din əksəriyyət israillinin həyatına təsir edir.

# FƏSİL 3. İSRAİLİN XARİCİ SİYASƏTİNDƏ DİN FAKTORU

## 3.1. Ərəb-İsrail münaqişəsində yəhudi-dini ekstremizmi və müsəlman radikalizmi

3 böyük səmavi dinin meydana gəldiyi, həm strateji əhəmiyyətinə görə, həm də zəngin təbii resurslara malik olduğuna görə dünyanın güclü dövlətlərinin diqqətini cəlb edən Yaxın Şərq regionu həmişə münaqişə ocağı kimi gündəmdə olmuşdur. Hazırkı dövrdə ərəb-yəhudi münasibətlərində davam edən gərginliyin də əsas mənbələrindən biri din faktoru hesab olunur. 1948-ci ildən əvvəlki dövrdə yəhudi ekstremist qrupların maraqlı tendensiyaları olmuşdur. İlk meyl, 1948-ci ildən əvvəlki dövrdə yəhudi ekstremist qrupların effektli müdafiələrini təmin etməklə əlaqədar idi. Əsas qayğıları isə bu idi ki, yəhudiləri yaşadıqları ölkənin hökümdarı qoruya bilmirsə və ya qorumursa, özləri onları qoruya bilsinlər. Bu hal, əsasən XIX əsrin sonlarına xas idi və 2 qrup – Şomer və Haqana yəhudilərin qayğısına qalmaqla məşğul olurdu. Dini ekstremist qrup olan Şomer Avropadakı yəhudi diasporasını qorumaqla yanaşı, Fələstindəki yəhudi məskənlərini də artırmağa çalışırdı. 1909-cu ildə qurulan Şomer I Dünya Müharibəsindən sonra mövcud olmadı. Haqana isə I Dünya Müharibəsindən sonra – 1920-ci ilin iyununda yaranmışdır [69] və Birləşmiş Əmək Partiyası (United Labor Party) ilə əlaqəli idi və əslində BƏP-in hərbi qolu kimi fəaliyyət göstərirdi. Əvvəlcə ekstremist qrup olan Haqana İsrail dövləti 1948-ci ildə yarandıqdan sonra İsrail ordusunun əsasını təşkil edən qanuni təşkilata çevrildi.

II tendensiya isə daha çox ekstremist qrup kimi tanınan Etsel və Lehi kimi qrupların adı ilə bağlıdır. Ərəblələ yanaşı, Etsel və Lehi təşkilatları da Bölünmə planına qarşı çıxmışdılar. Bu qruplar Avropadakı yəhudi diasporasının Fələstində məskən salmalarına silah gücünə də olsa, şərait yaratmağın tərəfdarı idilər. Lakin bu qrupların da fəaliyyəti uzun sürmədi.

Dövlət yarandıqdan sonra yaranan növbəti yəhudi ekstremist qrup isə 1932-ci ildə Brüklində anadan olan ravvin Meir David Kahane tərəfindən yaradılmışdır və onun Kax (Thus –Beləcə) partiyasının ekstremist fəaliyyəti olmuşdur. M. D. Kahane həm də Nyu-Yorkda yəhudi mətbuatının redaktoru olmuşdur. O, 1967-ci ildə Şomer və Haqana ideologiyasına əsaslanan Yəhudi Müdafiə Birliyini (Jewish Defense League-JDL) yaratmışdır. Bir qədər sonra bu birlik zorakılığa məruz qalmış yəhudi düşmənlərinə qarşı ekstremist qrupa çevrilmişdir. Kahane irqçi və fanatik olmuşdur. O, sionistlərə Məsih dünyagörüşünü təbliğ etmişdir. 1971-ci ildə İsrailə gəldikdən sonra onun ekstremist fikirləri daha da artmışdır.

Kahanenin fikirlərini müdafiə edən, onun davamçılarından biri də Barux Qoldşteyn olmuşdur. Çox güman ki, Qoldşteyn və Kahane arasındakı əlaqə ilə bağlı ən diqqət çəkən cəhət odur ki, Qoldşteyn Kahanenin bütün ekstremist fikirlərini bölüşürdü. Maraq doğuran cəhətlərdən biri də bu idi ki, Qoldşteynin inanclarının əksəriyyətinə müsəlmanlara qarşı yəhudi mühacir tərəfindən edilən ən dəhşətli terror aktlarından biri təsir etmişdir [106].

Ekstremist yəhudi qruplarının, xüsusilə Kahanenin ideologiyası dünyəvi yəhudilərə qarşı sərt olmuş və yəhudilər arasında ekstremist fikirlərin artması 1995-ci ildə İshaq Rabinin ekstremist dindarlardan olan Yiqal Amir tərəfindən öldürülməsində özünü bir daha sübut etmişdir. 1994-cü ildə Hevron qətliamı adını almış hadisəni isə müsəlman və yəhudilər arasında dini münaqişənin nümunəsi kimi göstərmək olar [107].

Onu da qeyd edək ki, digər adları çəkilən ekstremist qruplardan fərqli olaraq, Kahanizm kimi formalaşmış Yəhudi Müdafiə Birliyi dini təşkilat kimi hazırkı dövrdə də fəaliyyət göstərir. Bir neçə şöbəsi fəaliyyət göstərir.

Qeyd edək ki, ərəblər tərəfindən dini radikal hərəkatların təşkilatlanaraq geniş hal alması müstəqil İsrail dövləti yarandıqdan sonra geniş vüsət almışdır. Belə ki, 29 Noyabr, 1947-ci ildə BMT-nin Baş Assambleyası tərəfindən 181 (II) saylı qətnamə qəbul edilmişdir. 1948–ci ilin oktyabrın 1–dən gec olmayaraq ərəb və yəhudi dövlətləri qurulmalı, Fələstin 8 hissəyə bölünməli , 3 hissə ərəb dövlətinə, 3 hissə yəhudi dövlətinə, 7–ci hissə olan Jaffa isə yəhudi ərazisi kimi Ərəb anklavına

verilməli idi. Yerusəlim isə 8-ci hissə hesab olunurdu və burada BMT Qəyyumluq Şurası tərəfindən idarə olunan beynəlxalq rejim formalaşdırılmalı idi [101]. Bölünmə planına qarşı çıxan ərəb dövlətləri 1948-ci il, 14 Mayda elan olunan İsrail dövlət müstəqilliyini tanımadılar və 5 ərəb dövləti (Misir, İordaniya, Suriya, Livan və İraq) blok quraraq İsrailə qarşı 1948-1949-cu illəri əhatə edən ilk ərəb-İsrail müharibəsini başlatdılar [44]. İsrail 1949–cu il fevralın 24–də Misirlə, martın 23–də Livanla, aprelin 3–də İordaniya ilə və iyulun 20–də Suriya ilə atəşkəs anlaşmaları imzaladı. İraqın İsraillə sərhəddi olmadığı üçün onunla atəşkəs anlaşması imzalanmadı. Razılaşma əldə olunmasına baxmayaraq, tərəflər arasında narazılıqların olması sonrakı mərhələdə 1956-cı il Sinay müharibəsi, 1967-ci il 6 günlük müharibə, 1973-cü il Yom Kipur müharibəsi, 1982-ci il I Livan müharibəsi, daha yaxın keçmişdə isə 2006-cı il II Livan müharibəsinin baş verməsinə gətirib çıxartdı.

Bütün bu müharibələrdə də din faktoru əsas rol oynamışdır. Qeyd etdiyimiz kimi, ərəb-İsrail münaqişəsində əsas faktorlardan olan din amili həm ərəblər tərəfindən, həm də yəhudilər tərəfindən münaqişənin tənzimlənməsinə təsir göstərir. Bu zəmində bir neçə siyasi aktor meydana gəlmişdir. Belə müsəlman təşkilatlarından biri Fələstin Azadlıq Təşkilatıdır (FAT). Fələstin Azadılq Təşkilatı müstəqil Fələstin dövləti yaratmağı qarşısına məqsəd qoyan çətir xüsusiyyətində təşkilat olub, bir-birindən fərqli ideologiyalara sahib olan bir çox təşkilat, müqavimət hərəkatı, siyasi partiya və müstəqil fiquru özündə birləşdirmişdir [81].

FAT rəsmi şəkildə Yerusəlimdə 422 Fələstin milli fiquru tərəfindən 1964-cü ildə yaradılmış və onun ilk rəhbəri olan Əhməd Şükeyri 1964-1967-ci illərdə təşkilata rəhbərlik etmişdir. 1969-cu ildən 2004-cü il vəfat etdiyi vaxta qədər isə təşkilatın rəhbəri Yasir Ərəfat olmuşdur. 2004-cü ildən hazırkı dövr də daxil olmaqla FAT-ın rəhəbəri vəzifəsini Mahmud Abbas icra edir. FAT İsrail höküməti tərəfindən 1996-cı ildə tanınmışdır [36].

Fələstin Milli Azadlıq Hərəkatı (Palestinian National Liberation Movement-FATAH), Fələstin Ərəb Cəbhəsi (Palestinian Arab Front-PAF), Fələstinin Azadlığı üçün Demokratik Cəbhə (Democratic Front for the Liberation of Palestine-DFLP), Fələstin Xalq Mübarizəsi Cəbhəsi (Palestinian Popular Struggle Front-PPSF),

Fələstinin Azadlığı üçün Xalq Cəbhəsi (Popular Front for the Liberation of Palestine-PFLP), Ərəb Azadlıq Cəbhəsi (Arab Liberation Front), Fələstin Azadlıq Cəbhəsi (Palestine Liberation Front-PLF), Fələstin Demokratık Birliyi (Palestinian Democratic Union), Fələstin Camaatı Partiyası (Palestinian People's Party-PPP), As Sa'iqa, Ərəb Millətçiləri (Arab Nationalists) təşkilatları FAT-la fraksiyaya girmişdir. Təkcə Həmas və Əl-Cihaddan başqa digər müstəqil fiqur və fraksiyalar FAT-ın tərkibinə daxildir [82]. FAT 1967-ci ildən sonra Yasir Ərəfatın başçılığı altında daha çox güclənmişdir və 1967-ci ildə FAT-a qoşulan Əl-Fətih silahlı hərəkatı (təşkilatı) (1956-cı il İsrailin Misirə hücumundan sonra fələstinlilərin İsrailə müqaviməti üçün yaranmışdır) İsrailə qarşı göstərdiyi müqaviməti artıraraq FAT-ın tərkibində ön plana çıxmışdır. Əl-Fətih FAT üzərində nəzarəti ələ keçirmiş və 1964-cü ildəki Milli Nizamnamənin əvəzinə 1968-ci il Milli Nizamnaməsinin qəbul edilməsini təmin etmişdir. 1968-ci il nizamnaməsi əvvəlkindən fərqli olaraq, fələstinli şəxsiyyətini vurğulayaraq silahlı mübarizənin həyata keçirilməsini müdafiə edir.

Qeyd etdiyimiz kimi, 1967-ci il ərəb-İsrail müharibəsindən sonra FAT çox sürətlə Fələstinin siyasi həyatında mərkəz mövqe tutmağa başladı. 1974-cü ildə fələstinlilərin özləri, ərəb və islam ölkələri tərəfindən "yalnız Fələstin xalqının qanuni nümayəndəsi" kimi qəbul edildi. FAT-ın İsrailə qarşı silahlı mübarizələrinə - Vadi Hadad və Fələstinin Azadlığı üçün Xalq Cəbhəsi tərəfindən təyyarənin qaçırılması və 1972-ci il Münhen Olimpiya oyunlarında 11 yəhudi oyunçunun əsir götürülüb, sonra öldürülməsi daxildir. Lakin 1970-ci illərin əvvəlindən etibarən yeni işğal edilmiş Qərb Sahil və Qəzza bölgəsində İsrailə qarşı qiyam və beynəlxalq zorakılıq halları yavaş-yavaş səngiməyə başladı və FAT bu sahədə çox uğur qazana bilmədi [36].

1967-ci ildən sonra mərkəzi İordaniyada olan FAT 1970-ci ildə mərkəzini Livana köçürdü və yenidən əvvəlki sistemə bənzər təşkilatlar yaratmağa başladı. İordaniyadan çıxmasına səbəb isə İordaniyanın Fələstin düşərgələrinə hücum etmələri oldu. 1978–ci ilin martında FAT üzvləri tərəfindən Hayfa–Yerusəlim yolunda olan toqquşma baş vermiş və bundan sonra İsrail Cənubi Livan ərazisinə öz ordularını yerləşdirmişdir. Bununla bağlı BMT TŞ-nın 425 saylı qətnaməsinə əsasən İsrail

Livan ərazisini tərk etmişdi. Buna baxmayaraq İsrail bölgəni nəzarətsiz qoymadı. 1982-ci il İsrail işğaları ilə əlaqədar olaraq FAT-ın mərkəzi Tunisə köçürüldü.

Tərəflər arasında sülh danışıqlarının baş tutmamasının 3 səbəbi var idi:

• İsrail FAT-ı terrorçu təşkilat adlandırır, FAT isə İsrail dövləti məhv edilənə qədər mübarizəni davam etdirəcəyini bildirirdi.

• Soyuq müharibə bitdikdən sonra keçmiş Sovet respublikalarından və Avropa ölkələrindən gələn yəhudilər İsrail hökuməti tərəfindən işğal altındakı Fələstin torpaqlarında yerləşdirilirdi.

• Fələstinli terror təşkilatlarının İsrail dövlətinə yönəlmiş hücumları danışıqların başlanmasını gecikdirirdi.

1993-cü ilin yanvarından etibarən İsraillə Fələstin arasında danışıqlar başlamasına baxmayaraq, 1995-ci ildə baş nazir İtsaq Rabinin dindar yəhudi tərəfindən öldürülməsi və B.Netenyahunun hakimiyyətə gəlməsi kimi dəyişikliklərin olması, Hevron (Əl-Xalil) bölgəsinin boşaldılması prosesinə mane olurdu. Netanyahu, bir tərəfdən işğal altındakı bölgələrdə yeni yəhudi məskunlaşma yerlərinin açılmasına icazə verdiyi halda, digər tərəfdən də, Süleyman məbədinin qalıqlarına çatmaq məqsədilə, Məscidi-i Əqsanın altında tunel açılmasına icazə verərək fələstinliləri qəzəbləndirdi. Digər tərəfdən, sülh prosesinin hələ heç bir nəticəsi olmayan Yerusəlimin statusu, fələstinli qaçqınların evlərinə geri dönmələri kimi məsələlərdə Netanyahunun qeyri-konstruktiv mövqe tutması, Y. Ərafatın İsraillə razılaşma əldə etmədən müstəqil Fələstin dövlətini elan edə biləcəyi şərhinə yol açdı [7, 173-175].

İsrail 2005-ci ildə Qəzza bölgəsindən geri çəkildi və bu addımıyla bir növ Fələstində siyasi aktorları iqtidar üçün bir-birilə mübarizə aparmağa təhrik etdi. İlk olaraq Həmas 2006-cı il parlament seçkilərində qalib gəldi, bunun ardınca da Fətih və FAT-ı Qəzzadan çıxara bildi. Xüsusilə, Əl-Fətih və FAT ümumilikdə Fələstin siyasətində üstün cəhətlərini yenidən əldə edə biləcəyi, ya bilməyəcəyini konkret demək olmaz. Əlbəttə, Əl-Fətihin Fələstin siyasətindəki tək partiya dövrü sona çatmış və Fələstin siyasi arenasında yeni dövr başlamışdır [36].

İsrailin Qəzzadan geri çəkilməsinə baxmayaraq, yenə də onun mövqeyi güclüdür. Belə ki, 2006-cı ilin 29-30 iyununda İsrailin 1 əsgəri qaçırıldığı üçün Fələstin Milli Hakimiyyətinin (Palestinian National Authority) 9 nazirini həbs etmişdir [9, 608].

Digər Fələstin təşkilatı olan və daha çox dini-radikallığı ilə FAT-dan fərqlənən Həmasın kökləri Misirdə 1920-ci illərdən 1980-ci illərin yarısına kimi fəaliyyət göstərən və İsrail əleyhinə olan Müsəlman qardaşlığına (Muslim Brotherhood) qədər gedib çıxır. Həmas FAT-a ideoloji və sosial alternativ kimi meydana gəlmiş və daha çox dünyəvi olan FAT-a islamçı alternativ olmuşdur.

Həmas terrorizmi, İsrail əsgərinə və təhlükəsizlik işçilərinə hücumlarını gücləndirmişdir. Musab Yusifə görə, Həmasın rəsmi quruluşu 1986-cı ildə 7 Həmas üzvünün iclası ilə reallaşmışdır. Bu 7 nəfərdən biri bir qədər sonra təşkilatın ruhani lideri olan Şeyx Əhməd Yasin olmuşdur. Bir çox mənbələr isə Həmasın yaranmasını sırf I İntifada ilə əlaqələndirir. Belə ki, Həmasın kök salıb böyüməsində İntifadanın (1987-ci il, İntifada ərəbcə silkinmək, qalxmaq, baş qaldırmaq deməkdir. Fələstin xalqının İsrailə qarşı qalxmasını bildirir) rolu böyükdür. Eyni zamanda Həmas daha kiçik olan İslami Cihad və separatçı qruplardan fərqli olaraq, İranın dəstəyindən asılı deyildi [96, 17-28]. I İntifada ərəfəsində mühüm rol oynayan Həmas istər Qərb zolağı və Qəzza bölgəsi, istərsə də 1948-ci il sərhədlərində yaşayan ərəblərin hərəkatda iştirak etməsini təmin edən təşkilat olmuşdur. Bütün ərəbləri İntifadaya qoşulmağa səsləyən Həmas I İntifada ərəfəsində səsləndirilən solçu şüarlara islamçı şüarlar da əlavə edərək İntifadaya dini xüsusiyyət qazandırmışdır. Bu dövrdə Həmas üzvləri tərəfindən divarlara yazılan "İslami İntifada", "Mübarək İntifada", "Məscidlər inqilabı" kimi şüarlar bunun ən yaxşı göstəricisidir [16, 50].

İntifada bütün şiddəti ilə davam etdiyi zaman İsrail hərəkatın sürətini azaltmaq üçün mayın 18-i 1989-cu ildə aralarında Şeyx Yasinin də olduğu 250 nəfəri həbs etmiş və Yasini 2 İsrail əsgərinin ölümündə günahkar bildiyi üçün 15 illik həbsə məhkum etmişdir. Lakin İsrailin bu siyasəti istədiyi nəticəni verməmiş və İntifada daha da güclənmişdir. Yasinin həbsdə olduğu müddətdə təşkilatın rəhbəri Əbdüləziz Rantisi olmuşdur [13,185].

80-ci illərin sonu 90-cı illərin əvvəllərini əhatə edən dövr ərzində Həmas Qərb sahili və Qəzza zolağında həmkarlar ittifaqları və tələbə təşkilatlarında seçkilərdə qələbə qazandı. Bu nəticələr seçkilər olmadan da Həmasın nüfuzunun onun bölgədəki faktiki gücündən daha böyük təsirə malik olduğunu göstərdi. Həmas Fələstin Azadlıq Təşkilatının Fələstin xalqının nümayəndəsi olması və ciddi rəqib kimi İslam hərəkatını təşkil etməsi fikrinə qalib gəldi. Rəqib olmalarına baxmayaraq, Həmas və FAT nadir hallarda bir-birinə qarşı fiziki güc tətbiq etmişdir. Hər iki tərəf vətəndaş müharibəsi ilə nəticələnə biləcək zəifləmədən qorxurdu. Buna görə də FAT və Həmas gərginliyi azaltmaq üçün danışıqlara başladı. Fələstin qiyamı 2 təşkilat arasında bu günə qədər davam edən birgə yaşayışı formalaşdırmağa kömək etdi. Lakin Qərb sahilinin son statusu ilə bağlı İsrail-Fələstin razılaşmaları və cari danışıqları oyunun qaydalarını qəti sürətdə pozmuşdur [96, 17-18].

1991-ci ildə israilli hərbiçini qaçırdığı üçün təşkilatın 415 üzvü həmin dövrün baş naziri İtsaq Rabin tərəfindən Livana sürgünə göndərilmişdir. 1993-cü ildə Həmas üzvləri ilə İsrail əsgərləri arasında qarşıdurmalar daha da şiddətlənərək israilli məskunlaşanlara qarşı fələstinlilərin müqavimət hərəkatı artmışdır. 1994-cü ildə Barux Qoldşteynin reallaşdırdığı Hevron (Əl-Xəlil) hücumunda 30 fələstinli ölmüş, 100 fələstinli isə yaralanmışdır. Bunun qarşılığında isə Həmas Fələstin torpaqlarındakı işğalçı mövqeyindəki bütün israilliləri qanuni hədəf elan edərək əməliyyatların əhatəsini genişləndirmişdir [16].

1997-ci ildə Həmasın fəallarından olan (hazırkı rəhbər) Xalid Meşala Mossadın (İsrailin xarici kəşfiyyatı) 2 agenti tərəfindən sui-qəsd hazırlanmışdır və X. Meşal könüllü olaraq Suriyanın Şam şəhərində yaşamağa başlamışdır [67, 71]. Bundan sonra isə 1997-ci il, oktyabrın 30-unda həbsdə olan Yasin İsrail agentləri ilə dəyişdirilərək azadlığa çıxmışdır və Həmasın liderliyini yenidən ələ almışdır [13, 185].

2005-ci ildə İsrail Qəzza bölgəsindən geri çəkildiyi vaxt Həmas və bir çox fələstinli bu hadisəni Həmasın liderliyi ilə aparılan silahlı müqavimət hərəkatının nəticəsi kimi qeyd etmişdilər. Həmas İsraili qanuni dövlət olaraq əvvəllərdə olduğu kimi yenə də rədd etmişdir. Bundan sonra Həmas münaqişəni dini terminlərdən daha

çox, siyasi terminlərlə izah etməyə başlamış və özünün anti-yəhudidən çox anti-sionist tərəfdarı olduğunu iddia etmişdir. Belə ki, ilk İntifada dövründə "İsaril" terminindən və ya bu sözün törəmələrindən istifadə etməkdən boyun qaçıraraq, "yəhudilər" və "sionistlər" terminlərini bir-birinin yerinə işlətmişdir. Hərəkatın islamçılığı həmin dövrdə daha qabarıq olmuş və münaqişəni də dini cəhətdən şərh etmək əsas götürülmüşdür. Belə ki, 1990-cı illərin əvvəllərində, xüsusilə də, Həmasın daha sakit mövqedə olduğu Oslo danışıqlarından sonrakı rəsmi sənədlərində "sionistlər" termininin daha çox işlədilərək, demək olar ki, "yəhudilər" termininin az hallanması özünü göstərmişdir.

Davam edən zorakılığa baxmayaraq, Həmas əhalinin güclü dəstəyini ala bilmiş, II İntifadanın baş verməsi ilə Oslo dövrü başa çatdığı vaxt Həmas 2006-cı il seçkilərində öz gücünü göstərmək üçün hərəkətə keçmişdir. Bütün dünya Həmasın hər hərəkətinə şahid oldu və bunun qarşılığında Həmas sənədlərində dünyəvi və bürokratik dildən daha çox istifadəni qəbul etmişdir [67, 63-73]. 2008-ci ilin sonlarından başlayaraq, İsrail Qəzza bölgəsində hərbi əməliyyatlara başlamışdır. 2008-2009-cu illərdəki əməliyyatlarıyla Qəzzaya ağır zərbə endirən İsrail, nəhayət, 2010-cu ilin iyun ayında Qəzzadakı mühasirəni bir qədər yumşaltdı.

Hazırkı vaxtda da, 2004-cü ildən bəri təşkilatın siyasi lideri olan X. Meşalın rəhbəri olduğu Həmasın əsas məqsədi Fələstinin azad olunması ideyasının həyata keçməsini reallaşdırmaqdan ibarətdir.

İsrailə qarşı əks mövqedə olan digər dini radikal qruplardan biri də Hizbullahdır. Hərfi mənası Allahın partiyası deməkdir. Hizbullah İran tərəfindən dəstəklənən Şiə Əməl hərəkatından yaranmış və təşkilatın əsası 1982-ci ildə Livanda qoyulmuş, lakin siyasi münaqişələrə 1985-ci ildən etibarən qoşulmuşdur [8, 8-10].

Kristof Reuterə görə, İsrail 1982-ci il işğalı ciddi radikal və döyüşkən şiə hərəkatlarının yayılmasına gətirib çıxarmışdır.

Təşkilatın ilk baş katibi Şeyx Sübhi Tufeyli olmuşdur. 1989 və 1991 illəri arasında bu vəzifədə olan Tüfeylinin, Livan hökumətinə qarşı vətəndaş üsyanı Tüfeylini istefa etmək məcburiyyətində qoymuşdur. Bundan sonra vəzifəyə Abbas Musəvi seçilmiş, ancaq Musəvi də yalnız doqquz ay bu vəzifədə qala bilmişdir. 1992-

ci ildə İsrailin təşkil etdiyi sui-qəsd nəticəsində həyatını itirən Musəvinin yerinə Seyyid Həsən Nəsrullah keçmişdir. 1992-ci ildə liderliyi ələ alan Həsən Nəsrullah indiki vaxtda də Hizbullahın ən təsirli adı və baş katibi olaraq işlərini davam etdirir. Nəsrullah qısa müddətdə yalnız şiələrin deyil, Livanda bir çox sektanın də etimadını qazanmışdır. Şübhəsiz, bu təvəccöhdə əhəmiyyətli xüsuslardan biri oğlunun vəziyyətidir. 1997-ci ildə İsrailin Hizbullah mövqelərinə yönəlmiş əməliyyatı nəticəsində Həsən Nəsrullahın oğlu Hadi Nəsrullah həyatını itirmişdir. Bu xəbərin Livanda yayılması xalqda böyük təsir etmişdir. Çünki Livana aristokrat ailələr istiqamət verirdi və onlardan heç birinin oğlu bu formada döyüş meydanında həyatını itirməmişdi. Bu hadisə Livanda müsəlman, xristian olan hər kəsin gözündə Həsən Nəsrullahın möhtərəmliyini artırmış, çox adamda ona qarşı duyğusal bağın meydana gəlməsini təmin etmişdir. Hizbullah hazırkı günümüzdə də, həm ideoloji mövqeyinə görə, açıq baxışlarına görə dünyanın ən məşhur radikal təşkilatlarından biridir.

Hizbullah müqavimət qüvvələri tərəfindən yeddi İsrail əsgərinin öldürülməsinə və eyni zamanda Hizbullahın bir həftə əvvəl İsrailin şimalına etdiyi raket hücumuna reaksiya olaraq İsrail 1993-ci ildə Cənubi Livanda Əməliyyat Məsuliyyəti və ya Yeddi Gün Döyüşü adlı ağır silahlı hücum təşkil etdi. Dəniz, artilleriya və hərbi hava qüvvələri tərəfindən bu hücumun itkiləri ağır oldu, belə ki, Livanın 130 dinc sakini öldürüldü, 300000 insan öz evini tərk etdi, yüzlərlə ev dağıdıldı və onlarla məscid, qəbiristanlıq və məktəb viran edildi. Mütəxəssislər əməliyyatın yalnız Hizbullahı qarşısına hədəf qoymadığını, lakin bu dağıdıçılığın böyük və əhatəli xüsusiyyəti olduğunu qeyd edirlər [80].

Xüsusilə, 1991-ci ildən etibarən yeni proqramla Livan cəmiyyətinə açılan, İsrailə qarşı müqavimət fəaliyyətlərinə davam etsə də, siyasi mahiyyət qazanmağa başlayan Hizbullah 1997-ci ildə bir çox xristian qrupu da daxil olmaqla, reallaşdırdığı Bristol Oteli konfransıyla və yenə fərqli məzhəblərin də iştirak etdiyi Livan Müqavimət Briqadalarını yaratmış və bununla da livanlı şəxsiyyətini gücləndirməyi qarşısına məqsəd qoymuşdur [5, 600].

12 İyul 2006-cı ildə Hizbullah İsrail əsgərlərini əsir almağı və İsrail ordusunun əlindəki 3 Livan əsgərini xilas etməyi qarşısına məqsəd qoyan “Həqiqi vəd

əməliyyatı” (“Operation truthful Promise”) adlı əməliyyat başlatdığını bildirmişdi. Sərhədi keçən Hizbullah qüvvələri sürpriz hücuma keçərək, Zarit və Şetula bölgələri arasındakı sərhəddə İsrail ordusunun 2 patrul vəzifəsində olan və digər 3 əsgəri qətlə yetirmiş və 2 əsgəri əsir götürərək Livana qaçırtmışdılar. Hadisədən dərhal sonra qaçırılan əsgərləri qurtarmaq məqsədilə İsrail ordusu zirehli vasitələrini sərhədin Livan tərəfinə göndərsə də, əməliyyat gözlənildiyi kimi nəticələnməmiş və tanklardan biri minaya düşərək, 4 İsrail əsgəri də həyatını həyatını itirmişdi [19, 68].

2012-ci il, noyabrın 14-də İsrail Qəzza bölgəsinə bir neçə aviazərbə endirmişdi. Eyni zamanda Həmasın hərbi hissəsi də cavab olaraq İsrail ərazisini raket atəşinə tutmuşdu. Ramallahda keçirilən mitinqdə FAT-ın nümayəndəsi Cibril Racub parçalanmağa son qoyacaqlarını bildirmişdir [3].

Əvvəldə qeyd etdiyimiz kimi, Yaxın Şərq regionu daim münaqişə ocağı kimi yadda qalmışdır. Hazırkı dövrdə də Fələstin-İsrail münaqişəsi və bölgədəki dini radikal, ekstremist qrupların səngimək bilməyən münaqişəsi davam etməkdədir. Tərəflərin maraqlarının təmin olunması üçün isə razılıq əldə olunmalıdır. Bu da öz növbəsində həlli çətin məsələlər sırasında beynəlxalq münasibətlərdə aktual məsələlərdən biri kimi özünəməxsus yer tutur.

## 3.2 İsrailin xarici siyasət əlaqələrində din amilindən istifadə

Teokratik dövlət olmayan İsraildə dinin dövlətin idarəetmə sistemindəki rolu nəzərə çarpacaq dərəcədə mövcuddur. Dinin dövlətin daxili siyasətində güclü təsirə malik olması onun xarici siyasət əlaqələrində də özünü göstərir. Bu amilə İsrail dövlətinin həm dindar, həm də dindar olmayan əsas fiqurlarının fəaliyyət sferasında rast gəlmək mümkündür və hər iki halda din amilinə üstünlük verilir. Eyni zamanda ölkədən kənarda yaşayan diaspora üzvlərinin, lobbi təşkilatlarının fəaliyyətində yəhudi birliyinin olması da milli identiklik və din faktoruna əsaslanır.

Ölkə daxilində dini siyasi partiyalardan olan Şas xarici siyasətə münasibətdə daha mülayim politika həyata keçirir. 2013-cü ilə qədər Şasın mənəvi lideri olan Ovadia Yosef ilk dəfə 1953-cü ildə sefard hüququ və ənənəsi ilə cəmləşən və yeni sefard dininin, identikliyinin önə çıxması zəmnində yeşivalar və dini akademiyalar yaratmağın əsasını qoymuşdur [49]. Müasr dövrdə Şas mövcud olduğu 30 illik zaman ərzində marjinal etnik siyasi qrupdan İsrailin ən böyük partiyalarından birinə çevrilə bilmişdir. Bu gün də ölkənin əsas aktorlarından biridir.

2011-ci ildən Şas amerikan sefard yəhudiləri arasında körpü yaratmağa çalışmışdır və bu müvəffəqiyyətini İsraildə təkrarlamağı çalışır. 4 dekabr 2011-ci ildən etibarən Amerika Birləşmiş Ştatlarınının Şas ilə əlaqə saxlayan vətəndaşlarından ibarət yeni təşkilat – "Şasın amerikalı dostları" ("American Friends of Shas") adlı təşkilat yaratmışdır. Birliyin fəalları əsas missiyalarının Şasın ABŞ-dakı profilini yüksəltməkdən ibarət olduğunu vurğuladığı halda, bəzi təşkilat üzvləri isə Şasın İsraildəki əməliyyatlarını dəstəkləmək üçün aktiv olmağa çağırmışdılar [94]. Eyni zamanda, təşkilat qurucuları Amerikan Sefard Yəhudilərinin ən çox nüfuza malik olan ravvinlərdən Şasın ruhani, mənəvi lideri, ravvin Ovadia Yosefin başçılığı altında birləşməyi ümid edirdilər. Təşkilatın yaradıcıları ancaq bu yolla ortodoks sefard yəhudilərinin inkişafının mümkün olacağına inanırdılar.

Ölkə siyasətində güclü nüfuza malik olan ravvin Ovadia Yosef prezident Şimon Peresin dövründə ABŞ-la əlaqələrdəki böhran və onun dərinliyi məsələsində narahatlıq keçirmiş və ikitərəfli münasibətlər haqqında da müzakirələri olmuşdur [88].

İsraildən xaricdə yaşayan yəhudilərin də müvafiq təşkilatları mövcuddur ki, İsraillə mütəmadi əlaqə saxlayırlar. Belə ki, dünyada ən güclü üç lobbidən birincisi olan yəhudi lobbilərinin fəaliyyətində kifayət qədər İsrail meyilli siyasət yürütdüklərini görmək mümkündür. Bu mənada ABŞ və Avropa ölkələrindəki lobbi təşkilatlarının mövqeyi çox maraqlıdır.

ABŞ-da evangelizm və yəhudi lobbisi nümunəsində olduğu kimi dini qruplar təşkilati gücündən istifadə edərək daxili siyasətdə olduğu kimi, xarici syasətdə də olduqca təsirlidirlər. ABŞ-dakı dini qruplar içərisində ən yaxşı təşkilati quruluşa

sahib iki qrup evangelistlər (hərfi mənası açıq həqiqət deməkdir) və yəhudilərdir. Hər iki qrup ABŞ-ın Yaxın Şərqlə bağlı xarici siyasətində əhəmiyyətli dərəcədə təsirə malikdir. 1960-cı illərdən etibarən çox yaxşı təşkilatlanaraq təsirli olmağa başlayan evangelistlər bu gün Amerika protestantlığında güclü mövqe əldə ediblər. Hazırkı dövrdə də evangelistlərin artan gücü ABŞ-ın İsrailə meyilli siyasətinə təsir edir. Bu qrup Əhdi-Ətiqi əsas götürdüyünə görə, İsrailə çox böyük dəstək verir və ABŞ-ın İsraili dəstəkləməsi üçün də hər cür cəhd edirlər. Evangelistlərlə yanaşı, xristian fundamentalistlər də İsrail-Fələstin məsələsində şərtsiz olaraq İsraili dəstəkləyirlər. Həm evangelistlər, həm də xristian fundamentalistlər dini ideoloji cəhətdən yəhudilərin İsrailə köçünü, İsrail dövlətini yaratmalarını və genişlənmələrini dini normalara uyğun hesab edirlər. Buna görə də, İsraili nəyin bahasına olursa olsun, dəstəkləməyi dini vəzifə kimi qəbul edirlər.

Evangelist xristianlar digər xristian məzhəblərinə mənsub olanlarla müqayisədə xarici siyasət yanaşmalarında əhəmiyyətli dərəcədə fərqlənirlər. Bunun ən əhəmiyyətli səbəbi evangelist dini inancına mənsub olanların dünya siyasətində təyinedici rol oynaması ilə bağlıdır. Hazırkı dövrdə də ABŞ-da ən sürətlə yayılan məzhəb olan evangelistlərin sayı 11 Sentyabr, 2001-ci il hadisəsindən sonra daha da artmışdır. Onar xristian sağ, radikal sağ düşüncələri təmsil edirlər.

Xristian sağın, ABŞ-ın xarici siyasətində, xüsusilə, bir sahədə böyük bir çəkisi vardır: Yaxın Şərq. Çünki dini inancları ilə əlaqədar evangelistler arasında xristian sionistlər kimi adlandırılan qrup, ABŞ-ın Yaxın Şərq istiqamətli siyasətində İsraili və yəhudiləri mərkəz mövqedə tutan siyasət təqib etməsini istəyirlər. Xristian sionistlərin, İsrail və bu səbəbdən Yaxın Şərqi qəbul etməsi, Əhdi-Ətiqə (Tövrat) görə təyin olunur. Bu xristian Sionist qruplara, Əhdi-Ətiqdə dönüş nöqtəsi olan yeddi mərhələ, dövr təyin etdikləri üçün özlərinə "dispensasyonalistlər" də deyirlər. Bu qrup Əhdi-Ətiqdəki kəhanətlərə görə hərəkət edir. Əhdi-Ətiqə əsaslanan və dispensasyonalistlərin inandıqları yeddi mərhələ bunlardır:

- Yəhudilərin Fələstinə geri dönmələri;
- Yəhudi dövlətinin qurulması;

• Dünyanın, İsrail oğulları da daxil olmaqla, bütün xalqlarına Bibliyanın (İncil) vəz edilməsi;

• Kilsəyə iman edənlərin cənnətə yüksəldilməsi;

• Tribulasiya (Fəlakət dövrü); Yeddi il davam edəcək olan fəlakət dövrü. Bu dövrdə yəhudilər və digər imanlılar zülm görəcəklər. Ancaq yenə bu dövrdə yaxşılarla Dəccal liderliyindəki pislər döyüşəcəklər.

• Armagedon döyüşü (İsraildəki Megiddo düzənliyində ediləcəyi düşünülən döyüş);

• Dəccal və ordusunun məğlub olması və Məsihin padşahlığının qurulması.

Qurulacaq olan krallığın mərkəzi Yerusəlim olacaq və bu padşahlıq Yəhudilər tərəfindən idarə olunacaq. [15, 150-152].

Lobbinin iki əsas strategiyası vardır. Birincisi, Vaşinqtondakı əhəmiyyətli nüfuzunu istifadə edərək həm konqresə, həm də icra orqanına təzyiq edir. Dövlət orqanlarının fikirləri nə olursa olsun, lobbi İsraili dəstəkləməyi həmin orqan işçilərinin gözündə “ağıllı” seçim kimi göstərməyə çalışır. İkincisi, lobbi ictimaiyyətin İsraili müsbət şəkildə təsvir etməsini təmin etməyə çalışır. Bu məqsədlə də, siyasi müzakirələrində İsrail perspektivini dəstəkləyirlər.

Yəhudi lobbisinin fəaliyyətinin əsas dayaqlarından biri, İsrailin az qala tənqidlərdən azad olduğu konqresdə sahib olduğu nüfuzdur. Konqresin mübahisəli məsələlərdən çəkindiyi çox nadir hallarda olur, bu da İsraillə bağlı məsələlərdə hiss olunur. Bunun bir səbəbi bəzi əhəmiyyətli üzvlərin xristian sionist olmasıdır. Bunlardan biri olan Dik Armey 2002-ci ilin sentyabrında belə söyləmişdi: “Mənim üçün xarici siyasətdəki birinci prioritet məsələ İsraili qorumaqdır.” [76]. Dik Armey dəfələrlə İsrailin Fələstinin işğal altındakı torpaqlarının tamamilə ələ keçirməsinin tərəfdarı olduğunu vurğulamışdır [92].

Hər hansı bir konqres üzvü üçün bir nömrəli prioritetin Amerikanı qorumaq olacağını düşünə bilərik. Lakin ABŞ xarici siyasətinin İsrailin maraqlarını dəstəkləməsini təmin etmək üçün çalışan yəhudi senatorlar və konqres üzvləri də vardır [76, 3-24].

İsrail lobbisi və ABŞ-ın xarici siyasəti adlı kitabın yazıçılarından biri Harvard Universitetindən olan professor Stefan Volt lobbinin Amerikanın xarici siyasətinə təsirinin ön planda olduğunu vurğulamışdır. Müəllif əsərdə, lobbinin xarici siyasətə media və ictimaiyyətə müdaxilə etdiyini və bunun da amerikan xalqına zərər verdiyini vurğulayır. Müəllif qeyd edir ki, ABŞ-ın İsrailə həddindən artıq yardım etməsi və hərbi modernizasiya ölkəyə zərər verir [18].

Qeyd edək ki, ABŞ-dakı əsas lobbi təşkilatlarından biri və ən əsası Amerika İsaril İctimai İşlər Komitəsidir (The American Israel Public Affairs Committee – AIPAC). Bu təşkilatın ABŞ-İsrail hərbi proqramlarının həyata keçirilməsində, ticarət əlaqələrinin möhkəmləndirilməsində böyük rolu vardır. AIPAC lobbi təşkilatlar içərisində ən çox büdcəsi olan, sağçı lobbi təşkilatıdır [109].

2005-ci ilin mart ayında National Journal jurnalının araşdırmasına əsasən, AİİİK (AIPAC) Vaşinqtonun "Əzələ sıralamaları" ("Muscle Rankings") siyahısında II yeri tutmuşdur. AIPAC bir sıra etnik kökə əsaslanmayan lobbi təşkilatlarını qabaqlamışdır. Belə ki, İsrail son bir neçə onillikdə ABŞ-dan ən çox yardım alan ölkə olmuşdur və burda da AIPAC-ın təsiri güclüdür. Bu lobbinin gücü bir neçə faktordan qaynaqlanır və bu amillər özündə AIPAC-ın son dərəcə təsirli gücünü ehtiva edir.

AIPAC ABŞ-ın daxili siyasətində kökləri evangelist dini təriqətinə dayanan qeyri-adi güclü müttəfiqlərə malikdir. Bir neçə dini seçki bölgəsi üçün İsrailin taleyi teoloji olaraq xristianlığın inanc və istəkləri ilə bağlıdır. ABŞ-dakı xristian seçicilərin əksəriyyəti İsrail dövlətinin müvəffəqiyyətinin Bibliyadan qaynaqlandığına inanırlar. Xristian mühavizəkar evangelistlər İsrailin Məsihin qayıdışı üçün xristian ümidlərinə vəsilə olduğuna inanırlar. Amerikalıların 77/100%-i özünü xristian kimi xarakterizə edir və onların böyük əksəriyyəti də evangelistlərdir. Deməli, təəccüblü deyil ki, bu faktorlar AIPAC-ın gücünün artmasına təsir edir. Xristian dini icmasının, yəhudi olmayan amerikalı qrupların dini irslərini qorumaq üçün xüsusi missiya ilə Yaxın Şərqdə güclü Amerika varlığını dəstəkləmək baxımından AIPAC möhkəm əsasa malikdir [84, 8-21]. Ən təsirli təşkilat olan AIPAC-la Konqresin binası arasında iki bina məsafəsi var. Bu sayədə İsraillə əlaqədar hər hansı bir mövzu gündəmə gəldiyində zaman itirmədən senatorları, Nümayəndələr Palatası üzvlərini və əlaqədar

Komitə üzvlərini məlumatlandırmaq məqsədilə hazırlanan hesabatı yəhudilərə çatdırır.

Pat Robertson, Tom Delay və Cerri Falvel kimi məşhur evangelist liderlər ən böyük İsrail lobbisi olan AIPAC-ın üzvüdürlər. İsrail dövlət adamlarının belə ABŞ-a gəldikdə çox vaxt əvvəlcə evangelist liderlə görüşü də bir-birlərini necə dəstəklədiklərinin göstəricisidir.

Lakin onu da qeyd edək ki, Amerika yəhuidilərinin hamısı lobbinin tərkibinə daxil deyil. Belə ki, bəziləri üçün İsrail çox da əhəmiyyətli məsələ deyil. Məsələn, 2004-cü ildə aparılan sorğuda Amerika yəhdilərinin 36/100 %-i ya İsrailə çox bağlı olmadıqlarını, ya da heç bağlı olmadıqlarını bildirmişdir [76].

Ən qədim yəhudi lobbi təşkilatlarından biri olan ADL (Anti Böhran Birliyi - Anti-Defamation League) anti-semitizmə qarşı mübarizə aparır. Təşkilatın əsas nəşr orqanları araşdırıldığında, açıq şəkildə sionizm üçün mübarizə etdiyi aydın olur. Yalnız ADL-in yox, digər təşkilatların da məqsədlərini aydın şəkildə ifadə etdikləri nəşrlərində görülür. Bütün bu lobbilər, Yaxın Şərq ilə əlaqədar qəbul olunan qərarlardakı təsirlərini, İsrail əleyhdarı hərəkətlərin necə qarşısını aldıqlarını təşkilatlarının müvəffəqiyyəti kimi göstərməyi də yaddan çıxarmırlar. Bu müvəffəqiyyətlərdən ən önəmlisi isə, şübhəsiz ki, konqresə göstərdikləri təzyiq sayəsində İsrail üçün ayrılan hərbi və maliyyə yardımlarıdır.

Yəhudi sərmayədarları sayəsində ABŞ-ın öndə gələn mətbuat orqanları da lobbinin maraqlarını ifadə edir. "Ən öndə gələn üç TV şəbəkəsindən ikisinin, NBC və CBS şərikləri yahudilərdir. Eyni zamanda yəhudilər ən yüksək tirajlı və siyasi fəaliyyəti olan qəzetlərdən “New York Times”, “New York News” və “Washington Post”un sahibidirlər. Bununla yanaşı, rəhbəri yəhudi olmayan, siyasi və maddi gəlir səbəbilə İsrail lehinə nəşrlər edən media orqanları da vardır. “Wall Street Journal”ında keçmiş redaktorunun "Shamir, Şaron, Bibi ... Bu adamlar nə istərsə, istəsinlər mənə uyğundur." dediyi də faktlar sırasındadır. Bundan başqa, “Commentary”, “New Republican” və “Weekly Standard” kimi jurnalların də bu kimi səbəblərlə İsraili şövqlə müdafiə etdiyi də göstərilir. Mediadan bu səmərəli istifadə, məlumatların sürətlə yəhudi xalqına çatdırılmasını və xəbərdar edilməsini

təmin edir və hər cür yəhudi əleyhdarı davranışa qarşı çıxır. CNN rəhbərlərindən biri İsrail əleyhinə xəbər hazırladığı hallarda, bir gündə 6000 elektron poçt gəldiyini bildirmişdir [76].

Siyasi cəhətdən başda Konqres olmaqla, siyasi qərar qəbul edənləri "məlumatlandıran" qruplardan biri də WINEP-dir (Washington Institute for Near East Policy-Yaxın Şərq Siyasəti üzrə Vaşinqton İnstitutu). WINEP digərlərindən fərqli olaraq lobbinin fikir komandasını təşkil edir. Təşkilatda çalışan akademiklər və Yaxın Şərq mütəxəssisi əsgərlər və jurnalistlər vasitəsilə elmi mənbələrə malik olur . İnstitutun ingiliscə, türkcə və ərəbcə məqalələr nəşr etməsi diqqət çəkir [18, 59-61]. Eyni zamanda WINEP digərləri ilə müqayisədə İsrailə bağlılığını qabarıq şəkildə ifadə etməsə də, üzvlərinin əksəriyyəti İsraillə dərin əlaqəsi olan şəxslərdir.

Amerikalı yəhudilər, Pew Araşdırma Mərkəzi tərəfindən edilən araşdırmaya görə, əksəriyyətlə Yəhudi olmaqdan qürur duyduqlarını və yəhudi xalqına aid olduqları üçün güclü olduqlarını söyləyirlər.

Dindar yəhudilərlə müqayisədə dinə inancı olmayan yəhudilər (eyni zamanda ümumiyyətlə dünyəvi ya da mədəni yəhudilər olaraq da adlandırılırlar) təkcə daha az dindar olmaqla kifayətlənməyib, eyni zamanda yəhudi təşkilatları il əlaqəli deyillər və uşaqlarını yəhudi identikliyinə meylləndirmə ehtimalları olduqca azdır. Hal-hazırda evlərində kiçik uşaq böyüdən dindar yəhudiləri 90%-dən çoxu övladlarını yəhudi və ya qismən yəhudi olaraq tərbiyə etdiklərini söyləyir. Tam tərsinə, anket, Yəhudilərin dinsizlərin üçdə ikisi yəhudi ya da qismən yəhudi olmadıqlarını söyləyir [28].

ABŞ-da digər yəhudi təşkilatlardan fərqli olaraq, İsraillə yanaşı Fələstin dövlətinin yaradılmasını dəstəkləyən təşkilatlar da mövcuddur. Son dövrlərdə yaranan J Street belə təşkilatlardandır. 2008-ci ildən etibarən rəsmi şəkildə fəaliyyət göstərməyə başlayan J Street (J küçəsi) lobbi təşkilatı təşkilat İsrail tərəfdarı, sülh tərəfdarı amerikalıların İsrailin etibarlı, demokratik və yəhudi xalqının milli evi olmasını istədiyini bildirir.

Belə ki, J Streetin üzvləri Amerika siyasətində və yəhudi icması ilə çalışaraq, ABŞ və İsrail maraqlarının ilə yanaşı, yəhudi və demokratik dəyərlər inkişaf etdirən siyasətlər müdafiə edir və İsrail-Fələstin münaqişəsində iki dövlətli həll təklif edirlər.

Lobbi təşkilatının nümayəndələri təşkilatın İsrail tərəfdarı və eyni zamanda sülh tərəfdarı amerikalılar üçün siyasi ev və səs olaraq xidmət etmək üçün yaradıldığını, amerikalı yəhudilərinin əksəriyyətinin fikirlərinin daha əvvəl siyasətdə az təmsil edildiyini və sayılmadığını iddia edirlər. J Streetin üzvləri Yerusəlimin yekun statusu və sərhədləri, rəsmi İsrail və Fələstin orqanları arasında imzalanan və hər iki xalq tərəfindən də qəbul edilən razılaşmanın bir hissəsi olaraq müzakirə edilib həll edilməlidir [26]. Bu lobbi təşkilatı İsrailin paytaxtının Yerusəlimin paytaxtı olduğunu və razılaşma əldə olunan təqdirdə iki dövlətli həll kontekstində beynəlxalq səviyyədə tanınacağını düşünür [68].

Yəhudilərin Avropaya ilk köçü Roma imperatorluğu dövründə başlamışdır [40]. Avropalıların yəhudilərə qarşı anti-semitik yanaşmalarının əsas səbəblərindən biri onların iqtisadi cəhətdən inkişafı idisə, digər əsas səbəblərdən biri də xristianlıqda İsa Məsihin yəhudilər tərfindən öldürüldüyü inancıdır.

2016-cı ildə ümumi saylarını 14.410.700 nəfər olduğu göstərilən yəhudilərin 15%-i (1.669.800 nəfər) Avropa ölkələrində yaşayır. İsrailə mənəvi bağlılıq məsələsinə gəldikdə isə erkən dövrlərdən Avropada məskunlaşmış yəhudilər identiklik məsələsində İsrailə bağlılıqdan çox, özlərini avropalı kimi identifikasiya edirlər. Bu mənada Avropa yəhudi diasporası sonradan Avropaya miqrasiya edən yəhudilərdən təşkil olunmuşdur. Bununla əlaqədar olaraq, İsrailə Avropadan köç edən yəhudilər özlərini avropaya aid hiss edirlər. İsrail və avropa arasındakı tarixi və mədəni əlaqələrə görə, İsraildəki bir çox siyasi partiya Avropa İttifaqına üzvlüyü müdafiə edir. Bəzi kiçik ultra-ortodoks qruplar istisna olmaqla,yaşadıqları cəmiyyətə assimilyasiya olmağa çalışan Avropa diasporasının yaxın zamanda məhv olacağı və Avropada yəhudi identikliyinin silinəcəyi də qeyd edilir [17, 190-194].

Yəhudi lobbisinin güclü təsirinin olduğu Balfur deklarasiyası olmuşdur. Hazırkı dövrdə, Aropadakı bir sıra lobbi təşkilatlar ABŞ-da olduğu kimi açıq olmasa da, İsrail siyasətini dəstəkləyir və Aİ-nin xarici siyasətində İsrailə doğru meyilləndirirlər.

Bunlardan ən məşhuru Avropa Yəhudi Konqresidir (European Jewish Congress-EJC). Təşkilatın dəstəyi ilə hər il ölkələr üzrə anti-semitik halların yaşandığı faktların qeyd olunduğu məqlələr yazılır. Holokostun unudulmaması istiqmətində də AYK-nin geniş fəaliyyəti mövcüddur. Bu təşkilat Avropanın fərqli ölkələrində yaşayan 40 lider tərəfindən idarə olunur. Təşkilat İsrail siyasətinin tənqid olunmasını yəhudilərin günahlandırılması kimi qəbul edir. Avropa Yəhudi Konqresinin fəaliyyət göstərməsində əsas məqsədi anti-semitizmlə mübarizə aparmaqdır. Bundan əlavə, Avropa siyasətinin İsrailə qarşı siyasətində təsirli olmaq, avropalılar və isarillilər arasında dialoqun təsis edilməsi və Mərkəzi və Şərqi Avropa ölkələrində əvvəllər mövcud olan yəhudi mədəni həyatını yenidən canlandırmaq  da təşkilatın əsas məqsədləri sırasına daxildir [41]. Lakin Avropa lobbi təşkilatları arasında sözükeçən birlik olmasına baxmayaraq, Avropa Yəhudi Konqresi də ABŞ-da fəaliyyət göstərən lobbilərlə müqayisədə Avropa Parlamentinə güclü təsir edə bilmir. Belə ki, Avropa Parlamenti 27 dekabr 2008 - 18 yanvar 2009-cu illər ərzində İsrailin Qəzzadakı "Tökmə qurğuşun" əməliyyatı barəsində Qoldstounun məruzəsini [46] dəstəkləmiş və İsrailin günahkar olduğunu bildirmişdir. Bu məsələdə Avropadakı yəhudi lobbiləri AP-nin qərarına təsir göstərməkdə aciz qalmışdır.

Qeyd etdiyimiz kimi, ABŞ ilə müqayisədə zəif olmalarına baxmayaraq, Avropanın bir çox ölkələrində yəhudi lobbiləri fəaliyyət göstərir. Fransadakı 3 böyük çətir xüsusiyyətli lobbi də bunlara daxildir. Bunlardan biri Consistoire Central Israélite de France (CCIF- Fransa Yəhudilərinin Mərkəzi Assambleyası)  adlı lobbi qrupudur. Ölkədəki dinlə bağlı işlər bu təşkilat tərəfindən idarə olunur və təşkilata baş ravvin tərəfindən idarə edilir. Təşkilat 1808-ci ildə yaradılmış və fransız yəhudi nümayəndəliyi kimi yəhudi dini həyatından məsuldur [34].

Böyük Britaniyadakı ən təsirli lobbilərdən biri isə Böyük Britaniya İsrail Əlaqələri və Araşdırma Mərkəzidir. (Britain Israel Communications and Research Centre-BICOM) BICOM İngiltərədə İsrail üçün daha çox dəstəkləyici mühit yaratmağı qarşısına məqəd qoymuş təsirli lobbi qrupudur. Bununla yanaşı, buradakı yəhudi azlıq İsrail siyasətinin dəstəyi məsələsində  hakim hakim mövqeyə malik deyil. 2007-ci ildə təsirli xarici yəhudi maraq qruplarından Müstəqil Yəhudi Səsləri

(Independent Jewish Voices –IJV) İsrailin İngiltərədəki müəyyən yəhudi təşkilatlarının tənqidi olmayan dəstəyinə qarşı etiraz olaraq yaradılmışdır. Yenə də İsraildəki digər yəhudi təşkilatlarının mövqeyi ilə qarşı-qarşıya gələn Müstəqil Yəhudi Səsleri, antisemitizm və irqçi fəaliyyətlərlə mübarizə, hökumətlə əlaqə qurma və digər dini və etnik qruplarla əməkdaşlıq etmək kimi mövzularda digər maraq qrupları ilə bir araya gəlir [71].

Azərbaycan da tarixən yəhudilərin məskunlaşdığı ərazilərdən olmuşdur, sayları təxminən 16000 nəfər olan dağ yəhudiləri, Avropa yəhudiləri (aşkenazi) və gürcü yəhudilərinin vətənidir. Dağ yəhudiləri Əhdi-Ətiqlə yanaşı, Talmudu və ravvin rəvayətlərini də iudaizmin əsas mənbələri sırasına aid edirlər.

Musa Kalankatlı yəhudilərin Qafqaza gəlişini e.ə I əsrə aid edir. Azərbaycan Avropada dağ yəhudilərinin kompakt yaşadığı yeganə dövlətdir. Azərbaycan yəhudilərin kompakt, sıx və rahat yaşadıqları ölkə olmaqla yanaşı, həmçinin yəhudilərin ən çox miqrasiya etdikləri ölkələrdən biridir. Ölkədə yəhudilərin öz saytları (www.yahudi.az), Qubada (yeşiva), Bakıda (Xabad-or-Avner) məktəbləri fəaliyyət göstərir, AZ-İZ, Qüllə, Amişav kimi qəzetləri nəşr olunur. Eyni zamanda yəhudilərin Azərbaycanda (Bakı, Quba, Oğuz) bir neçə sinaqoqu fəaliyyət göstərir. 2003-cü ilin martın 9-da Bakıda Avropanın ən böyük sinaqoqu açılmışdır [2]. 5 noyabr 2016-cı il tarixində yəhudi din xadimləri Yuşvayev Simax və Şneor Seqal Azərbaycanda multikultural ənənələrin və dinlərarası münasibətlərin inkişafı üçün göstərdikləri xidmətlərə görə Azərbaycan Respublikası Prezidenti tərəfindən fəxri diplomla təltif olunmuşlar [1].

Ümumilkdə, bu qənaətə gəlmək mümkündür ki, istər daxili, istərsə də xarici siyasətdə din amil özünü göstərir. Ölkə maraqlarının təmin olunmasında, həyata keçirilməsində din amili özünəməxsus rola malikdir.

# NƏTİCƏ

Tədqiqat işində müəyyən edilən vəzifələr yerinə yetirilmişdir. Əldə edilən nəticələr aşağıdakı şəkildə ümumiləşdirilə bilər.

Dinə əsaslanan Erets Yisraelə qayıtmaq ideyası İsrail dövlətinin yaranma ideologiyasında əhəmiyyətli rol oynamışdır. Fələstindəki ingilis mandatlığının sona çatmasından bir gün əvvəl, 14 May 1948-ci ildə müstəqilliyini elan edərək qurulan İsrail dövləti, yarandığı vaxtdan təxminən 70 il keçən dövlətdir. Və İsrail dövləti dini və tarixi köklərini Tövratda bəhs edilən İsrail Torpaqlarına (Eretz İsrail) qədər aparır.

Bu gün sionizmin bir qolu hesab olunan dini sionizm özündə müxtəlif ideologiyalı, bu və ya digər əmrlərə əməl edilməsinə ciddi yanaşanları, Halaxanın (yəhudi qanunları) astanasında olanları və onu “sadələşdirmək” üçün vasitələr axtaran liberalları, özlərini Xardal (haredim datiim leumiim) adlandıran qatı dindarları , ravvin A. İ. Koku öyrənənlərdən “neoxasidlərə” qədər müxtəlif təşkilatları, qrupları və fərdləri birləşdirir.

Eyni zamanda, İsrail dövlətinin qurulmasından bu günə qədər dini-sionist partiyalar ölkənin siyasi həyatında aktiv iştirak edirlər. Bundan əlavə, dini sionistləri İsrail dövlətinə “müqəddəs gəmi” kimi yanaşmaları və ictimai həyatın müxtəlif sferalarına inteqrasiya eləmək cəhdləri birləşdirir.

Ölkənin zəngin dini-etnik tərkibi vardır. Qanun yəhudilik, xristiyanlıq, islam, druz və bahayi dinini tanıyır. Şərqi ortodoks, latın (Roma katolik), qriqoryan erməni, erməni katolik, suriyalı katolik, yunan katolik melkit, maronit, suriyalı ortodoks kimi qəbul edilən xristian dini icmaları tanıyır.

Dini normalar həmçinin hər bir israillinin həyatına təsir edir. Məsələn, şənbə və yəhudi bayramları günlərində kütləvi nəqliyyat vasitələri işləmir və evlilik və ailə məsələri dini qanunlara tabedir.

İsrail cəmiyyətində dinin ictimai-siyasi həyata təsiri dövlətin demokratik və yəhudi xarakteri arasındakı münasibətlər ilə əlaqədar siyasi qanunlar və

nizamnamələrdə öz əksini tapır. Bir tərəfdə demokratiyanın əhəmiyyətini, seçki azadlığını, bərabərlik və plüralizm prinsiplərini vurğulayan baxışlar var. Digər tərəfdə isə demokratiyanın ən geniş yayılmış formasında belə yəhudi əqidəsi ilə əlaqələrin saxlanaraq İsrail dövlətində insanların birliyinin əhəmiyyətni qoruyub saxlayan baxışlar mövcuddur.

Teokratik dövlət olmayan İsraildə dinin dövlətin idarəetmə sistemindəki rolu nəzərə çarpacaq dərəcədə mövcuddur. Dinin dövlətin daxili siyasətində güclü təsirə malik olması onun xarici siyasət əlaqələrində də özünü göstərir.

Şas partiyası son dövrlərdə amerikan sefard yəhudiləri arasında körpü yaratmağa çalışmışdır və bu müvəffəqiyyətini İsraildə təkrarlamağı çalışır. 2011-ci ilin sonlarından etibarən Amerika Birləşmiş Ştatlarınının Şas ilə əlaqə saxlayan vətəndaşlarından ibarət yeni təşkilat – "Şasın amerikalı dostları" ("American Friends of Shas") adlı təşkilat yaradılması da bunun bir sübutudur. Birliyin fəalları əsas missiyalarının Şasın ABŞ-dakı profilini yüksəltməkdən ibarət olduğunu vurğuladığı halda, bəzi təşkilat üzvləri isə Şasın İsraildəki əməliyyatlarını dəstəkləmək üçün aktiv olmağa çağırırlar.

İsraildən xaricdə fəaliyyət göstərən amerikan yəhudi diasporası çox güclü mövqeyə malikdir və ABŞ-da bir çox nüfuzlu təşkilatlar fəaliyyət göstərirlər. Bu yəhudi təşkilatları müxtəlif sahələr üzrə iş aparırlar. Ümumilikdə, 300-ə yaxın yəhudi təşkilatı və 250-yə yaxın yəhudi ittifaqı arasında ən nüfuzlusu Şimon Peresin "ABŞ-İsrail körpüsü" adlandırdığı AIPAC ("American Israel Public Affairs Committee") təşkilatıdır ki, Amerikada eyni sinaqoqda bir araya gələ bilməyən yəhudilər, məsələ İsrailin xeyri naminə olduğu təqdirdə AIPAC-da birləşir. Həmçinin yəhudiləri evangelist xristianlar da dəstəkləyirlər. Bunlarla yanaşı, dindar yəhudilərlə müqayisədə dinə inancı olmayan yəhudilər təkcə daha az dindar olmaqla kifayətlənməyib, eyni zamanda yəhudi təşkilatları ilə əlaqəli deyillər və uşaqlarını yəhudi identikliyinə meylləndirmə ehtimalları olduqca azdır.

ABŞ-la müqayisədə Avropada fəaliyyət göstərən yəhudi təşkilatları siyasi qərarların qəbul olnumasında daha az təsirə malikdir. Bəzi təşkilatlar da mövcuddur ki, (Müstəqil Yəhudi Səsləri (Independent Jewish Voices –IJV)) İsrailin İngiltərədəki

müəyyən yəhudi təşkilatlarının tənqidi olmayan dəstəyinə qarşı etiraz olaraq yaradılmışdır. Yenə də İsraildəki digər yəhudi təşkilatlarının mövqeyi ilə qarşı-qarşıya gələn Müstəqil Yəhudi Səsleri, antisemitizm və irqçi fəaliyyətlərlə mübarizə, hökumətlə əlaqə qurma və digər dini və etnik qruplarla əməkdaşlıq etmək kimi mövzularda digər maraq qrupları ilə bir araya gəlir.

Ərəb-İsrail münaqişəsinə gəlincə isə hazırkı dövrdə də Yaxın Şərq regionunda baş verən münaqişələr davam etməkdədir və bütün bu müharibələrdə də din faktoru əsas rol oynamışdır. Qeyd etdiyimiz kimi, ərəb-İsrail münaqişəsində əsas faktorlardan olan din amili həm ərəblər tərəfindən, həm də yəhudilər tərəfindən münaqişənin tənzimlənməsinə təsir göstərir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

**Azərbaycan dilində**

1. Azərbaycanda multikultural ənənələrin və dinlərarası münasibətlərin inkişafında xidmətlərinə görə bir qrup şəxsin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Dövlət və Din jurnalı, NOYABR-DEKABR 2016, №06 (47), 120 s. // www.scwra.gov.az

2. DİN // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin PREZİDENT KİTABXANASI, 39 s. // http://files.preslib.az/projects/remz/pdf/atr_din.pdf

3. Həmas və Fələstin Azadlıq Təşkilatı birləşir // http://apa.az/dunya-xeberleri/asiya-olkeleri-xeberleri/hamas-ve-felestin-azadliq-teskilati-birlesir.html

4. Yehovanın Şahidləri. Çıxış 23:1—33, Çıxış 23:31. // https://www.jw.org/az/nəşrlər/müqəddəs-kitab/nwt/mündəricat/Çıxış/23/

**Türk dilində**

5. Bozkurt A. HİZBULLAH'IN LÜBNAN'DA KURULUŞU VE POPÜLARİTESİNİN SEBEBLERİ // Tarih Okulu Dergisi, Mart 2014, Sayı XVII, s. 599-627. //
http: //www.johschool.com/Makaleler/2081318687_26.%20a.ganibozkurt.pdf

6. Domazeti R. İSRAİL'DE ETNİK VE DİNÎ AZINLIKLAR // İNSAMER, Mart 2017, p. 1-12. // http://insamer.com/rsm /files/ISRAILDE%20ETNIK%20VE%20DINI%20AZINLIKLAR.pdf

7. Erhan Ç. Filistin-İsrail barış süreci nereye gidiyor? // Ankara Üniversitesinin Siyasal Bilgiler Fakültesi dergisi, s. 173-180. // http://www.politics.ankara.edu.tr/dergi/pdf/56/2/cagrierhan.pdf

8. Es-Sadık A (tərcümə edəni Yılmaz M). “Hizbullah” Hakkındaki Gerçeği Biliyor musunuz?. İstanbul: 2011, 184p. // https://d1.islamhouse.com /data/tr/ih_books/single/tk_maza_ta3ref_3an_hezb_allah.pdf

9. Gözler K. ANAYASA HÜKUKUNUN GENEL TEORİSİ, II cilt: Bursa, Ekim, 2011, s. 1-688. // https://books.google.az

10. Hasanov E. İSRAİL TOPLUMSAL ÇATIŞMASINDA HAREDİLER // ORA DOĞU, Kasım-Aralık, Cilt:6, Sayı: 65, p. 64-65. // http://www.orsam.org.tr /files/OA/65/16eldarhasanov.pdf

11. İSRAİL HAKKINDA GERÇEKLER: İSRAİL ENFORMASYON MERKEZİ / Yayına hazırlayan. Ruth Ben-Haim: Kudus: 2009, 352s. // http://mfa.gov.il/MFA_Graphics/MFA%20Gallery/Documents%20languages/Turkish /ISRAIL%20HAKKINDA% 20GERCEKLER.pdf

12. Kızıloğlu S. İSRAİL DEVLETİ’NİN KURULUŞUNA KADAR GEÇEN SÜREÇTE YAHUDİLER ve SİYONİZM’İN GELİŞİMİ // Sosyal bilimler, Ocak 2012, Cilt 2, Sayı 1, s. 35-64.

13. Kodaman T., Seraç E. HAMAS ( HAREKET-ÜL MUKAVEMET-UL İSLAMİYE- İSLAMİ DİRENİŞ HAREKETİ): ORTA DOĞU, Cilt 1, Sayı 1, 2006, s. 177-197 // http://www.akademikortadogu.com/belge/ortadogu 1%20makale/timucin _kodaman _esma_sarac.pdf

14. Seferoğlu D. Filistin Siyasetinin Yeni Aktörü: Pragmatik Bir Örgüt Olarak HAMAS: Yüksek Lisans Tezi. Ankara, 2014, 157s.

15. Şahin M. DİN-DIŞ POLİTİKA İLİŞKİSİ: ABD ÖRNEĞİ: DOKTORA TEZİ. Ankara, 2007, 202 p. // https://www.academia.edu/5275030/DİN-DIŞ_POLİTİKA_İLİŞKİSİ_ABD_ÖRNEĞİ_DOKTORA_TEZİ_Hazırlayan_Mehmet_ŞAHİN_Tez_Danışmanı

16. Torlak F., Ziya S., Senem Z., Neslihan G. Filistinde siyasi akyörler ve siyasi partiler: Siyaset, Ekonomi ve Toplum Araştırmaları Vakfı, Mayıs,2012, s. 91. // http://file.setav.org/Files/Pdf/filistin’de-siyasi-aktorler-ve-partiler.pdf

17. Ulutaş U., Torlak F., Ziya S. ve d. İsrail siyasetini anlama kılavuzu. SETA, Aralık 2012. s. 200. // http://file.setav.org/Files/Pdf/20121221123959_israil-siyasetini-anlama-kilavuzu-web.pdf

18. Yaylar Y. EVANJELİZM VE TÜRKİYE PLANI: YÜKSEK LİSANS TEZİ. KIRŞEHİR, TEMMUZ 2011, 97s. // http://ulusaltezmerkezi.com/evanjelizm-ve-turkiye-plani/

19. Yeşiltaş M., Balcı A. İKİNCİ LÜBNAN SAVAŞI: BİR YENİDEN DEĞERLENDİRME // Akademik ORTA DOĞU, 2010, Cilt 4, Sayı 2, s. 67-90. // http://www.akademikortadogu.com/belge/ortadogu8%20makale/murat_yesiltas_ali_balci.pdf

**Rus dilində**

20. Баулина И. ГРАЖДАНСКАЯ РЕЛИГИЯ В ИЗРАИЛЕ: ОТ БЕГИНА К НЕТЕНЬЯХУ. Вестник Томского государственного университета. История. 2016. №2, с. 83-87. // http://cyberleninka.ru/article/n/grazhdanskaya-religiya-v-izraile-ot-begina-k-netanyahu

21. Нойбергер Б. Власть и политика в Государстве Израиль. Часть 6. Открытый университет, Тел-Авив, 1997, 221 с.

22. Тверская М. НЕКОТОРЫЕ ВОПРОСЫ СИОНИЗМА И ОРТОДОКСАЛЬНОГО МОДЕРНИЗМА. с. 237-242 // http://www.russianscientist.org/files/archive/Nauka_Religia/2006_TVERSKAYA_1.pdf

23. Хазанов О.В. Еврейское национальное самосознание эпохи модернизации в свете научного и религиозного подходов. с. 93-107 // http://sun.tsu.ru/mminfo/000063105/289/image/289_93-107.pdf

24. http://www.samomudr.ru/d/ravKUK%20_Izrail%20i%20ego%20zemlja.pdf

**İngilis dilində**

25. Abbas R. The Druze in Israel are a minority within a minority: Ph.D., Western Galilee College // http://www.wgalil.ac.il/files/AbstracRandaAbbas.pdf

26. ABOUT J STREET // http://jstreet.org

27. Adelman J. The Druze of Israel: Hope for Arab-Jewish Collaboration // http://www.huffingtonpost.com/jonathan-adelman/the-druze-of-israel-hope-_b_8265050.html

28. A Portrait of Jewish Americans: Overview. Findings from a Pew Research Center Survey of U.S. Jews: Pew Research Center, OCTOBER 1, 2013, 22p. // http://www.pewforum.org/2013/10/01/jewish-american-beliefs-attitudes-culture-survey/

29. Avineri Y. Rav Kook's vision: Timely or premature? // Jewish Action, Spring 2006, p. 28-31 // http://ou.org.s3.amazonaws.com/pdf/ja/5766/spring66/RavKook.pdf

30. Babie P. LAW, RELIGION, CONSTITUTION: FREEDOM OF RELIGION, EQUAL TREATMENT, AND THE LAW // Chapter 14, 10 September 2015 // https://www.adelaide.edu.au/press/journals/law-review/issues/36-1/alr-36-1-ch14-babie.pdf

31. Baron J., Wittmayer S. A social and religious history of the Jews. New York, Columbia University Press, 1937, Vol. 3, p. 177-304. // https://archive.org/details/socialreligioush03baro

32. Baumgart C. Religious Zionism and Israeli Foreign Policy // Cornell University Peace Studies Program, Occasional paper, December 2006, 26 p. // https://www.files.ethz.ch/isn/27212/Religious_Zionism.pdf

33. Birnbaum E. The Politics of Compromise: State and Religion in Israel: Fairleigh Dickinson Univ Press, 1 January, 1970, 348p. // https://books.google.ie/books

34. Central Consistory of The Jews of France: SHOAH Research Center // http://www.yadvashem.org

35. Choshen M. The Voters Decide // The Jerusalem Institute for Israel Studies. 2p. // http://en.jerusaleminstitute.org.il/.upload/media/colomns/voters_decide.pdf

36. Citation for Palestine Liberation Organization // http://www.oxfordislamicstudies.com

37. Dana N. Druze Identity, Religion – Tradition and Apostasy // p. 5-20. // http://app.shaanan.ac.il/shnaton/15/14.pdf

38. Deutsch N. What are the Attitudes of Religious Jews in Israel Towards Non-Jews? / The Center for Israel Studies and the Jewish Studies Program / Selected Papers from the Conference, October 28, 2014, p. 17-21 // https://www.american.edu/cas/js/news/upload/How-Jewish-is-the-Jewish-State-Eipert-2.pdf

39. Eliezer Ben-Rafael. The Faces of Religiosity in Israel: Cleavages or Continuum? // Israel Studies // Vol. 13, No. 3, Fall, 2008, p. 89-113. // http://www.jstor.org/stable/30245833?seq=1#page_scan_tab_contents

40. Europe. Antiquity // http://www.jewishvirtuallibrary.org/europe

41.European Jewish Congress. Uniting European Jewry // http://www.eurojewcong.org

42. Facts and Figures IN THE EDUCATIONAL SYSTEM / Jerusalem: Ministry of Education, March 2013, 98p. // http://meyda.education.gov.il/files/minhalcalcala/facts.pdf

43. Fuchs I. Religion in Israel // Israel Studies: An Anthology, November 2010, 10p. // https://www.jewishvirtuallibrary.org/jsource/isdf/text/fuchs.pdf

44. Frankel B. History in dispute: The Middle East since 1945. First series: St. James Press, September 15, 2003, 408 p. // https://books.google.ca/books?id=CDYsAQAAIAAJ&q=%22nakba+day%22&dq=%22nakba+day%22&hl=en&ei=9zzMTaPaC9HJswbnsMy3AQ&sa=X&oi=book_result&ct=result&resnum=10&ved=0CE8Q6AEwCTgo

45. Gaier M. Religious Parties in the Political Systems of Pakistan and Israel // Interdisciplinary Graduate Conference on the Middle East, South Asia and Africa, April 15-17, 2010, p. 1-18.

46.Goldstone Report 2009 // http://www.whatreallyhappened.com/WRHARTICLES/Goldstone_Report.pdf

47. Grief A. Druze and Jews // Political and Cultural History, SPRING 2005, 6p.

48. Guide to Israel's political parties // http://www.bbc.com/news/world-middle-east-21073450

49. Gur H. October 5, 2014, Shas tries to get back on its feet // http://www.timesofisrael.com/shas-tries-to-get-back-on-its-feet/

50. Hansel L. CHRISTIANS IN ISRAEL. A COMPLEX QUESTION OF IDENTITY // KAS INTERNATIONAL REPORTS, 2010, p. 34-52. // http://www.kas.de/wf/doc/kas_21321-1522-2-30.pdf?101208143454

51. Hanson E. Religion and Politics in the International System Today. Cambrige University Press, 2006, 331p.

52. Harts P. World Religions. BAHAI'S FAITH // CHELSEA HOUSE PUBLISHERS, 2009, 144p. // https://bahai-library.com/pdf/h/hartz_bahai_faith.pdf

53. Hasisi B., Weitzer R. POLICE RELATIONS WITH ARABS AND JEWS IN ISRAEL // Advance Access publication, 7 July 2007, p. 728-745. // https://www.researchgate.net/publication/242514541_Police_Relations_with_Arabs_and_Jews_in_Israel

54. Hasson Sh. State and Religion in Israel Possible Scenarios: Institute for Israel Studies. University of Maryland, 2015, 104p. // http://israelstudies.umd.edu/Israel%202023%20State%20and%20Religion%20in%20Israel.pdf

55. Hertsel T. The Jewish State. American Zionist Emergency Council, 1946, 49 p. // http://www.mideastweb.org/jewishstate.pdf

56.http://www.davidlehmann.org/david-docs-pdf/Journalism/JC%20article.pdf

57. Independence Day 1948. "The Most Crowded Hours in... History" // http://www.historama.com/online-resources/articles/israel/story_israel_first_independence_day_14_may_1948.html

58. Inter-Religious Coordinating Council in Israel (ICCI). Israel and the Occupied Palestinian Territories // https://www.insightonconflict.org

59. International Religious Freedom Report for 2015 // United States Department of State // Bureau of Democracy, Human Rights, and Labor. 45p. // https://www.state.gov/documents/organization/256481.pdf

60. ISRAEL AND THE OCCUPIED TERRITORIES. International Religious Freedom Report for 2011//https://www.state.gov/documents/organization/193099.pdf

61. Israel Judicial Branch: Beit Din & Judges From Bible to Modern Times // http://www.jewishvirtuallibrary.org

62. Israel Judicial Branch: Rabbinical Courts vs Civil Courts // http://www.jewishvirtuallibrary.org

63. Israel’s Arab citizens: Key facts and current realities // UK Task Force on issues relating to Arab citizens of Israel, June 2013, 5p. // http://uktaskforce.org/docs/130625-israel-s-arab-citizens---key-facts-and-current-realities.pdf

64. Israel’s Declaration of Independence: the Birth of a Jewish and Democratic State//https://jcrc.org/uploads/Israels_Declaration_of_Independence_Study_guide.pdf

65. Israel's population grew 2% in 2016 // http://www.globes.co.il/en/article-israels-population-grew-2-in-2016-1001169718

66. Israel’s Religiously Divided Society, MARCH 8, 2016 // http://www.pewforum.org/2016/03/08/israels-religiously-divided-society/

67. Janssen F. Hamas and its Positions Towards Israel: Netherlands Institute of International Relations Clingendael, January 2009, 99p. // https://www.clingendael.nl/sites/default/files/20090200_cscp_security_paper_jansen.pdf

68. JERUSALEM // http://jstreet.org

69. Jewish Defense Organizations: The Haganah // http://www.jewishvirtuallibrary.org/the-haganah

70. Knesset Elections Results // http://www.knesset.gov.il

71. Kolpinskaya E. RELIGIOUS MINORITIES IN BRITISH POLITICS: PRESSURE GROUPS OR GROUPS UNDER PRESSURE? / Paper tabled at the ECPR General Conference. Reykjavik: 2011, 21p. // https://ecpr.eu/Filestore/PaperProposal/9f47032e-fe88-4eda-9cfd-2b1ce7ebbcac.pdf

72. Laurence A. Hoffman. Reform religious Zionism // Sh'ma 25/478, p. 5-6. // http://www.bjpa.org/Publications/downloadFile.cfm?FileID=7430

73. Liebman Ch., Yadgar Y. Secular-Jewish Identity and the Condition of Secular Judaism in Israel, 39p. // http://www.bjpa.org

74. Lerner N. Religion and the Secular State in Israel // p. 421-430. https://www.iclrs.org/content/blurb/files/Israel.pdf

75. Mahler G. Political Parties and Interest Groups in Contemporary Israel. // December, 2007, 22p.

76. Mearsheimer J. J., Walt S. M. The Israel Lobby and U.S. Foreign Policy. KSG Faculty Research Working Paper RWP, 06-011. Harvard University, March 2006. 86p. // http://mearsheimer.uchicago.edu/pdfs/A0040.pdf

77. Military Service in Israel: Challenges and Ramifications / with edit Elran M., Sheffer G.: Institute for National Security Studies, September 2016, 102p. // http://www.inss.org.il/uploadImages/systemFiles/memo159.pdf

78. Ministers by Ministry // https://www.knesset.gov.il

79. Nisan, Mordechai. The Druze in Israel: Questions of Identity, Citizenship, and Patriotism // Middle East Journal, Autumn2010, Vol. 64 Issue 4, p575. // http://connection.ebscohost.com

80. Ozkaya T. HEZBOLLAH AND ITS POSITION TOWARDS ISRAEL: Thesis for the degree of Master of Science, September, 2009, 109p. // http://en.academicresearch.net

81. Palestine Liberation Organization. NEGOTIATION AFFAIRS DEPARTMENT // http://www.nad-plo.org/

82. Palestine Liberation Organization (PLO) // http://www.kas.de

83. Parsons L. The Druze between Palestine and Israel1947–49 // Center for Middle Eastern Studies, p. 7-27. // https://link.springer.com

84. Pokrant T. THE IMPACT OF ETHNIC GROUPS ON UNITED STATES FOREIGN POLICY: for baccalaureate degrees in Political Science and History with honors in Political Science. Spring 2015, 62p.

85. Rabbi Scot A. Berman. Religious Zionist Ideology In Context, Bnei Akiva //http://www.bneiakiva.org/uploads/_pdf/ReligiousZionistIdeologyinContext.pdf

86. Religion-Druze // INTER AGENCY TASK FOR, an Israeli Arab Issues, June 2014, 2p. // http://iataskforce.org/sites/default/files/resource/resource-267.pdf

87. Religious Zionism in Israel Today: Toward the Center // THE JEWISH PEOPLE POLICY INSTITUTE, p. 137-152. // http://jppi.org.il/uploads/Religious_Zionism_in_Israel_Today-Toward_the_Center.pdf

88. Report; Rabbi Yosef Supports Jerusalem Freeze // http://www.israelnationalnews.com

89. Rudnitzky A. Arab Citizens of Israel Early in the Twenty-First Century: Institute for National Security Studies. October 2016, 137 p. // http://www.inss.org.il/uploadImages/systemFiles/memo150%20(6).pdf

90. Samet M. The Beginnings of Orthodoxy // Oxford University Press, Vol. 8, No. 3, October, 1988, p. 249-269 // http://www.jstor.org

91. Seligson M., Caspi D. Arabs in Israel: Political Tolerance and Ethnic Conflict // THE JOURNAL OF APPLIED BEHAVIORAL SCIENCE, 1983, Vol. 19, No 1, p. 55

92. Senior Republican calls on Israel to expel West Bank Arabs // http://vanderbilt.edu/lapop/israel/1979-arabsinisrael.pdf

93. Shanan A. ISRAEL'S HAREDIM EFFECT: THEOCRACY IN A DEMOCRATIC STATE: for the degree Master of Arts in Liberal Studies. Washington, April 1, 2014, 101p. // https://repository.library.georgetown.edu

94. Shas Sets Up Shop in U.S. // http://forward.com

95. Shlomo S. The Invention of the Jewish People. Verso, 2009, 332 p. // http://www.rafapal.com/wp-content/uploads/2012/01/Shlomo-Sand-The-Invention-of-the-Jewish-People-2009.pdf

96. Slonim O. The Hamas and Terror: An Alternative Explanation for the Use of Vionlence // Strategic ASSESSMENT, December 1999, Volume 2, N 3, p. 17-20. //http://www.inss.org.il/uploadImages/systemFiles/The%20Hamas%20and%20Terror%20An%20Alternative%20Explanation%20for%20thr%20Use%20of%20Violence.pdf

97. Smooha S. Ethnic Democracy: Israel as an Archetype. Israel studies, Volume 2, N 2, p. 198-240 // http://soc.haifa.ac.il/~s.smooha/download/Ethnicdemocracy IsraelasArchetype.pdf

98. Tirosh Y. RELIGIOUS ZIONISM. an anthology. The essence of Religious Zionism // Jerusalem, 1975, p. 11-35 // http://www.israel613.com/books/ERETZ_ RELIGIOUS_ZIONISM.CV.pdf

99. THE FUTURE OF COMBINIG SINAGOGUE AND STATE IN ISRAEL: What Have We In First 50 Years? // Table of Contents, 2000, 42p. // http://www.hjil.org/articles/hjil-22-3-bassli.pdf

100. The Jewish State. Theodor Herzl's Program for Zionism // http://zionism-israel.com/js/Jewish_State.html

101. THE PLAN OF PARTITION AND END OF THE BRITISH MANDATE , p. 0 // http://www.un.org/Depts/dpi/palestine/ch2.pdf

102. The Status of Jerusalem // Israel Ministry of Foreign Affairs // March 1999. // http://mfa.gov.il

103. United Torah Judaism // http://www.ynetnews.com/articles/0,7340,L-3499371,00.html

104. “Victims of Our Own Narratives?” Portrayal of the “Other” in Israeli and Palestinian School Books. Study Report, February 4, 2013, 57p. // https://d7hj1xx5r7f3h.cloudfront.net/IsraeliPalestinian_School_Book_Study_Report-English.pdf

105. Vital Statistics : Latest Population Statistics for Israel // http://www.jewishvirtuallibrary.org/latest-population-statistics-for-israel

106. Wager T. COMMONALITY OF CONTEMPORARY EXTREMIST GROUPS: WHY SOME FALL AND OTHERS FLOURISH: for the degree of Master of Arts in Liberal Studies. Washngton, November, 2009, 135p. https://repository.library.georgetown.edu/bitstream/handle/10822/558112/Wager_georgetown_0076M_10420.pdf;sequence=1

107. Weissbach M. Hebron massacre dews heavy blow to peace // EIR International. Volume 21, N 12, March 18, 1994, p. 84-86. // http://www.larouchepub.com

108. 'What will become of us? Who will lead us?': More than 700,000 mourners attend Israel's largest ever funeral after the death of ultra-orthodox rabbi // http://www.dailymail.co.uk/news/article-2449176/Ovadia-Yosef-Funeral-Rabbi-attracts-700-000-mourners.html

109. Why Opposing the Israel Lobby Is No Longer Political Suicide // https://www.thenation.com/article/room-criticize-israel-grows-are-policy-changes-table/

110. Yachad // https://en.idi.org.il/israeli-elections-and-parties/parties/yachad/

111. Yakov R. Religious Roots of a Political Ideology: Judaism and Christianity at the Cradle of Zionism // MEDITERRANEAN REVIEW, June 2012, Vol. 5, No 1, p. 75-100 // http://archives.cerium.ca/IMG/pdf/04_yakov.pdf

112. Yates J. Haredim vs. Secular: Israel’s Internal Culture War and the Fight for Israeli Identity: Levitt Fellowship Research // August 30, 2012, 77p. // https://hamilton.edu/documents/Joshua%20Yates%20Levitt%20paper.pdf

**İbri dilində**

113. אבינועם רוזנק. ציונות דתית בין הרב קוק לתלמידיו: מהצהרת בלפור ועד להתנתקות // מאי 2008, ע. 36-42 // http://www.kibbutz.org.il/mifne/articles/080416_roznek56-57.pdf (Ravvin Kok və şagirdləri arasında dini sionizm. Balfur bəyannaməsindən başlayaraq)

114. נויברגר.ב. דת ודמוקרטיה בישראל. ירושלי, יולי 1997. ע. 41 // http://fips.huji.ac.il/sites/default/files/floersheimer/files/neuberger_religion_and_democracy_in_israel.pdf (İsraildə din və demokratiya)

115. פרק 9 - מגמות ביחסים בין יהודים לערבים. ע.47 (Yəhudilər və ərəblər arasındakı əlaqələrdə meyllər)